**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜSTƏQİLLİK DÖVRÜ "AZƏRBAYCAN" JURNALINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN BƏDİİ İFADƏSİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**

İddiaçı: ____________________ **Südabə Ağabala qızı Ağabalayeva**

Elmi rəhbər: ____________________ **Rəhilə Məmməd qızı Qeybullayeva, filologiya elmləri doktoru, professor**

**BAKI – 2024**

## MÜNDƏRİCAT

**GİRİŞ** ........ 3

**I FƏSİL. XX ƏSR ƏDƏBİ PROSESİNDƏ "AZƏRBAYCAN" JURNALININ YERİ** ........ 8

1.1. "Azərbaycan" jurnalının tarixi: ictimai-siyasi və sosial-mədəni kontekst ........ 8

1.2. "Azərbaycan" jurnalının strukturu və əsas bədii yaradıcılıq istiqamətləri ........ 25

**II FƏSİL. "AZƏRBAYCAN" JURNALI MİLLİ–MƏNƏVİ DƏYƏRLƏRİN BƏDİİ SALNAMƏSİ KİMİ** ........ 51

2.1. Müstəqillik dövrü "Azərbaycan" jurnalında milli ideyaların və ictimai idealların əksi ........ 51

2.2. Dini – irfani dəyərlərin poetik ifadəsi ........ 74

**III FƏSİL. ƏDƏBİYYAT MƏNƏVİ YADDAŞIN BÜTÖVLÜYÜ KİMİ** ........ 89

3.1. Tarixi və mənəvi yaddaş məsələləri çağdaş nəsrin və dramaturgiyanın obyekti kimi ........ 89

3.2. Haqq savaşımız və şəhidlik ali, sakral dəyər kimi ........ 110

**NƏTİCƏ** ........ 121

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** ........ 125

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsr Azərbaycan ədəbiyyatının inkişafı milli mətbuatın təcrübəsi ilə sıx bağlıdır. Belə ki, milli mətbuatın, xüsusən ədəbi-bədii dərgilərin yaranması və inkişafı yeni Azərbaycan ədəbiyyatının inkişafını da şərtləndirmişdir, eyni zamanda mətbuat dilinin və üslubunun formalaşmasında, janr sisteminin təşəkkülündə bu proses qarşılıqlı olmuşdur.

XX əsr Azərbaycan ədəbiyyatı tarixini "Azərbaycan" jurnalı olmadan təsəvvür etmək mümkün deyil. Klassik "Molla Nəsrəddin", "Füyuzat" dərgiləri kimi, "Azərbaycan" jurnalı da estetik, bədii təfəkkürümüzün parlaq ifadəsidir.

"Azərbaycan" jurnalı yarandığı ilk illərdən Azərbaycan ədəbi-bədii fikrinin ən yaxşı nümunələrini – klassik və müasir ədəbiyyatı, folklor və tərcümə mətnlərini oxuculara çatdırmaq kimi mühüm bir vəzifəni yerinə yetirir. Jurnalın çoxəsrlik Azərbaycan ədəbiyyatının təbliğində xidmətləri onun fəaliyyətinin sistemli araşdırılmasının vacibliyini ön plana çıxarır.

Ədəbiyyatyönlü mətbuat orqanlarının yarandığı yüz ildən artıq bir dövrdə mənəvi dəyərlərin dövri nəşrlər, mətbuat tarixi diskursunda öyrənilməsinin səviyyəsi və tarixi araşdırmamızın məqsədi olmasa da, ədəbi jurnalların dövrilik baxımından mütəmadi, davamlı və çoxyönlü istiqaməti ədəbiyyatın təbliğində və inkişafında bu nəşrlərin dinamik və strateji məzmunlu rolundan danışmağa imkan verir.

Azərbaycanda ədəbi jurnallar cari ədəbi prosesi əks etdirən, istiqamətləndirən və tarixiləşdirən mənbə, milli mənəviyyatın və ədəbiyyatın salnaməsi kimi həmişə böyük rol oynamışdır. Milli-mənəvi dəyərlərin ideoloji-siyasi, mədəni-tarixi kontekstdə dəyişməsi ədəbiyyatın estetik obrazının, ideya-məzmun istiqamətinin dəyişməsini şərtləndirir. "Azərbaycan" jurnalı bu dəyişikliklərin mənzərəsini verməklə yanaşı, onu izləməyə imkan verən nəşr nümunəsidir.

Jurnal bu gün də ədəbi prosesin, ədəbiyyatın ən yaxşı nümunələrini oxuculara çatdırmaq ənənəsini uğurla davam etdirir. Sovet dövlətinin və ideologiyasının təzyiqlərinə, sərt – ideoloji – siyasi yasaqlara, qanlı repressiyalara baxmayaraq, jurnal Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunmasında və təbliğində müstəsna xidmət göstərmişdir. XX əsrin 90-cı illərində zəif büdcə imkanlarına rəğmən, jurnal

nəşrini davam etdirmiş, dövlətçilik və istiqlal ideyalarının inkişafında mühüm rol oynamışdır.

Jurnalın yaradıcılıq və ideya istiqamətinin mənəvi dəyərlər problemi ilə əlaqədar öyrənilməsi araşdırmanın aktual məsələlərindən biridir. “Azərbaycan”ın çoxəsrlik Azərbaycan ədəbiyyatının təbliğində danılmaz xidmətləri onun fəaliyyətinin sistemli araşdırılmasının vacibliyini ön plana çıxarır. Ədəbi orqanın fəaliyyətinin mənəvi dəyərlər kontekstində öyrənilməsi mühüm nəzəri məsələlərdən biridir. Dərc olunmuş ayrı-ayrı əsərlər bu və ya digər dərəcədə xüsusi tədqiq olunsa da, bütövlükdə müəyyən tarixi zaman kəsiyində mənəvi dəyərlər kontekstində sistemli şəkildə araşdırılmamışdır.

XX əsrin 90-cı illərindən – Azərbaycan siyasi müstəqilliyini əldə etdikdən sonra jurnalda dərc olunmuş bədii mətnlərin öyrənilməsi göstərir ki, jurnal, adına uyğun olaraq, həmişə milli-mənəvi dəyərləri əsas tutmuşdur. Qısa vaxt ərzində SSRİ-nin dağılması, postsovet respublikalarında yaşayan xalqların azadlıq və müstəqillik qazanması, Qarabağ müharibəsi, 20 Yanvar, Xocalı faciələri və s. jurnalın mövzu-ideya palitrasına ciddi təsir göstərmişdir. Bu da jurnalın həmin aspektdə araşdırılmasını aktuallaşdırır.

Ümumiyyətlə, jurnalın tarixinin, ayrı-ayrı dövrlərinin müxtəlif metodoloji aspektlərdə araşdırılmasını xatırlatmaq yerinə düşərdi. Mövzunun işlənməsi dərəcəsi baxımından aşağıdakı araşdırmaları qeyd edə bilərik. İlk növbədə, İ.Novruzov jurnalın ilk on illik dövrünü (1923-1932-ci illər) əhatə edən dissertasiyasında (1968-ci il) “Azərbaycanda sovet ədəbiyyatının inkişafında “Maarif və mədəniyyət” (“İnqilab və mədəniyyət”) jurnalının rolunu araşdırmışdır. R.Tağıyevin “Azərbaycan” jurnalı və Azərbaycan sovet ədəbiyyatının aktual problemləri (1923-1976-cı illər)” mövzusunda namizədlik dissertasiyası və onun əsasında yazdığı monoqrafiya bu sıradandır. B.Məmmədovun “Azərbaycan bədii publisistikasının inkişaf meyilləri və sənətkarlıq məsələləri (XX əsrin ikinci yarısında)” adlı namizədlik dissertasiyası, A.Əzimovanın “Azərbaycan” jurnalında publisistika”, Aynurə Paşayevanın “Azərbaycan” jurnalında publisisitika məsələləri (1953-2010)” monoqrafiyaları, eləcə də jurnalın müxtəlif yubiley illəri ilə bağlı məqalələr, jurnalın fəaliyyəti və yaradıcılıq

təcrübəsi ədəbiyyatşünaslar və yazıçıların fikir və rəyləri mövzunun tədqiqi üzrə ciddi mənbələrdəndir. Nəşrin 80 illik yubileyi ərəfəsində Ə.Əfəndiyevin hazırladığı "Azərbaycan" – 80" biblioqrafik göstərici (1923-2003) jurnalın öyrənilməsində qiymətli mənbədir.

Göründüyü kimi, "Azərbaycan" jurnalı filoloji fikir müstəvisində (jurnalistika, ədəbiyyatşünaslıq) müəyyən qədər tədqiq olunsa da, müstəqillik dövrü "Azərbaycan" jurnalının fəaliyyəti diqqətdən kənarda qalmışdır ki, bu da mövzunun aktuallığını şərtləndirən amillərdən biridir.

Araşdırmanın aktuallığı təkcə "Azərbaycan" jurnalının bir ədəbi-bədii orqan kimi fəaliyyəti, yaxud ədəbi prosesi təşkil etməsi ilə deyil, həm də Azərbaycanın ədəbi-mədəni, ictimai-siyasi həyatında mühüm yer tutması ilə milli-mənəvi məkanın formalaşmasında oynadığı rol ilə şərtlənir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini "Müstəqillik dövrü "Azərbaycan" jurnalı, predmetini isə jurnalda dərc olunmuş bədii əsərlərdə milli-mənəvi dəyərlərin təhlili təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** "Azərbaycan" jurnalı Azərbaycan ədəbiyyatının tarixinin öyrənilməsi, müasir ədəbi prosesin xüsusiyyətlərinin ümumiləşdirilməsi baxımından vacib mənbələrdən hesab edilir.

Araşdırmada ölkənin əsas ədəbi-bədii orqanının – "Azərbaycan" jurnalının nümunəsində milli-mənəvi dəyərlərin əks olunması sistemli şəkildə, müxtəlif janrlar və mövzu-motiv səviyyəsində təhlilə cəlb edilir. "Ədəbi jurnal" diskursunda milli-mənəvi dəyərlərin ritorik formaları və imkanları araşdırılır. İlk dəfə olaraq müstəqillik dövründə jurnalın fəaliyyəti ölkənin ictimai-siyasi, mədəni-tarixi kontekstində təhlil edilir və ümumiləşdirilir. Tədqiqat işində istiqlal, türkçülük ideyaları, şəhidlik və milli-azadlıq mövzuları mənəvi dəyərlər kimi təhlil edilir. "Azərbaycan" jurnalının yaradıcılıq istiqamətləri və bədii-estetik təcrübəsi dövlətçilik dəyərlərinin bədii mətnlərdə realizə imkanları (üslub, motiv, ideya, obraz) kontekstində nəzərdən keçirilir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada əsas məqsəd "Azərbaycan" jurnalının mənəvi dəyərlərin bədii ifadəsi sahəsində rolu və əhəmiyyətinin müəyyən

edilməsindən ibarətdir. Bunun üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– "Azərbaycan" jurnalının sovet və postsovet dövrü tarixini, fəaliyyətini və yaradıcılıq istiqamətlərini göstərmək;

– "Azərbaycan" jurnalının strukturu ilə ədəbi proses arasında münasibətləri əsaslandırmaq:

– "milli-mənəvi dəyər" anlayışının mahiyyətini müəyyən etmək;

– "Azərbaycan" jurnalını etnik-mədəni dəyərlər sisteminin bədii təcəssümü kimi əsaslandırmaq;

– müstəqillik dövründə milli-ideoloji dəyərlərin – azərbaycançılıq, türkçülük ideyalarının "Azərbaycan" jurnalında aktuallaşmasını şərtləndirən ictimai-siyasi, tarixi-mədəni amilləri və səbəbləri müəyyənləşdirmək;

– ədəbiyyatın ayrı-ayrı sahələri (nəsr, poeziya, ədəbi tənqid, publisistika) səviyyəsində mənəvi dəyərlər kontekstində imkanlarına diqqət yetirmək;

– müstəqillik dövründə "Azərbaycan" jurnalında dərc olunmuş əsərlərdə mənəvi dəyərlərin mövzu-ideya baxımından təsnif edilməsi.

**Tədqiqatın metodları.** Tədqiqatın metodoloji əsasını tarixi, təsviri, qismən də semiotik təhlil metodları təşkil edir. Araşdırmada Azərbaycan ədəbiyyatşünaslığının və ədəbi tənqidinin materiallarından, Avropa və rus nəzəri fikrinin müddəalarından müəyyən qədər istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– "Azərbaycan" jurnalı ölkənin əsas ədəbi orqanı olmaqla, müasir ədəbiyyatımızın inkişaf təmayüllərini müəyyənləşdirmişdir;

– müstəqillik dövrünün əsas ictimai-siyasi görüşləri, milli məfkurə ideyaları milli-mənəvi dəyərlər kimi qəbul olunur, eləcə də, jurnalın fəaliyyət və yaradıcılıq istiqamətlərini formalaşdırmışdır;

– türkçülük, azərbaycançılıq, bütöv Azərbaycan ideyaları "Azərbaycan" jurnalında, xüsusən, poeziyada, publisistikada aparıcı xəttə çevrilmişdir;

– klassik irsə münasibət və cari ədəbi proses ədəbiyyat tarixinin ayrılmaz tərkib hissələri kimi təqdim edilir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işinin nəzəri əhəmiyyəti ondadır ki, müstəqillik dövrü "Azərbaycan" jurnalının yaradıcılıq fəaliyyəti ictimai-siyasi, ədəbi-estetik kontekstdə öyrənilir, milli-mənəvi dəyərlər filoloji kateqoriya kimi təhlilə cəlb edilir.

Dissertasiya işi milli ədəbiyyatın təbliğində və tədrisində gərəkli mənbələrdən biri kimi müəyyən əhəmiyyətə malikdir. "Azərbaycan" jurnalının ədəbiyyatımızın aksioloji aspektdə funksionallığının və rolunun öyrənilməsi, mətbuat tarixinin tədqiqi baxımından maraq doğura bilir.

Dissertasiyanın təcrübi əhəmiyyəti ondadır ki, araşdırmanın müddəalarından xüsusi kurslarda və seminarlarda, "Ədəbi proses" və "Jurnalistika tarixi" fənlərinin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın mövzusu Bakı Slavyan Universitetinin Elmi Şurasında təsdiq olunmuş və "Azərbaycan ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas müddəaları müəllifin ayrı-ayrı elmi jurnal və məcmuələrdə çap olunmuş məqalələrində, beynəlxalq və respublika səviyyəli konfranslarda etdiyi məruzələrin materiallarında əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Slavyan Univeristetinin "Azərbaycan ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu və ümumi həcmi**. Dissertasiya 225797 işarə olmaqla, giriş (8813 işarə), 3 fəsil (I Fəsil – 85567 işarə, II Fəsil – 65123 işarə, III Fəsil – 59669 işarə), nəticə (6383 işarə), istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL
# XX ƏSR ƏDƏBİ PROSESİNDƏ “AZƏRBAYCAN” JURNALININ YERİ

## 1.1.“Azərbaycan” jurnalının tarixi: ictimai-siyasi və sosial-mədəni kontekst

Milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında və təbliğində ədəbi orqanların rolu və yeri, media subyektlərinin mobil yayım imkanları, cəmiyyətə təsir gücü və çevikliyi amili ilə sıx bağlıdır. Sivil cəmiyyətlərdə insan münasibətlərinin tənzimlənməsi hüquq normalarına söykənsə də, mənəviyyat insanın böyüyüb formalaşdığı mühitdən qaynaqlanır. Bu mühitin keyfiyyətini isə çoxcəhətli və heç də asan olmayan qarşılıqlı münasibətlərin davamlı mənəvi ölçüləri təyin edir. Bunu bizə az qala “kosmik tənhalıq” xofu yaşatmış pandemiyanın ağır və gərgin ahəngi bir daha diqtə etdi. Həmin üzücü aylar həm də ətrafımıza və həyata yenidən baxmağa vadar etdi və *“...biz bir daha əmin olduq ki, texnologiyalar, elmi nailiyyətlər hansı səviyyədə inkişaf edir-etsin, insan münasibətlərində, fəaliyyət sahələrində mənəvi-etik yanaşmalar və peşəkarlıq dəyişməyən dəyərlər olaraq qalır”* [16, s.14-15].

Azərbaycan mədəniyyəti və ədəbi-bədii fikrinin tarixində çox böyük rol oynamış milli mətbuatın mənəvi, ədəbi dəyərlərimizin qorunub saxlanılmasında və inkişafında təcrübəsi xüsusi araşdırma mövzusudur. Milli ədəbiyyatın inkişaf dinamikasını izləməyə imkan verən mətbuat nümunələri, əsasən, XX əsrin əvvəllərindən yaranmağa başlamışdır. Doğrudur, XIX əsrin sonlarından başlayaraq, bir sıra mətbu orqanlar müəyyən ədəbi-bədii mətnlər dərc etməklə, dünya ədəbiyyatı nümunələrindən tərcümələrə yer verməklə maarifçi ədəbiyyatın inkişafına ciddi təsir göstərmişlər.

XX əsrin əvvəllərində nəşrə başlamış “Molla Nəsrəddin”, “Füyuzat” jurnallarının yaradıcıları da, həmin nəşrlərdə publisistik yazıları, bədii yaradıcılıq nümunələri, eləcə də, tərcüməçilik fəaliyyətləri ilə çıxış etməklə, gələcəkdə ədəbiyyatın inkişafı ilə daha ardıcıl, davamlı məşğul olacaq jurnal yaratmaq

düşüncəsini formalaşdırmışlar. Məhz milli mətbuatın inkişafı sayəsində XX əsrin əvvəllərindən başlayaraq, Azərbaycan cəmiyyəti ictimai fikirdə ciddi irəliləyişə nail olmaqla, milli və siyasi müstəqilliyini qazandı, azadlığını təmin etdi.

Ötən yüzilin ilk onilliyində mütərəqqi mətbuatın ənənələrini inkişaf etdirən Azərbaycan ziyalıları qabaqcıl Avropa ictimai fikrinin təsiri altında yeni bir məktəb yaratdılar. "Molla Nəsrəddin" jurnalı özünün forma və məzmunu ilə yeni realist poeziyanın və nəsrin inkişafına mühüm töhfələr verdi. Bu jurnalın fəaliyyəti Azərbaycan ədəbiyyatında Mirzə Cəlil və Sabir ədəbi məktəblərinin yaranmasını şərtləndirdi.

"Molla Nəsrəddin" jurnalı qısa vaxt ərzində Azərbaycanda qabaqcıl inqilabi-demokratik mətbuat nümunəsi oldu. Milli-mədəni düşüncənin qabaqcıl nümayəndələri milli ideologiyanın yaradılması və formalaşması yolunda mühüm addımlar atdılar. Jurnal yalnız satirik mətbuatın əsasını qoymadı, özünün yeni forma və məzmunu ilə satirik jurnalistikanın və satirik rəssamlığın inkişafına mühüm töhfələr verdi, Mollanəsrəddin ədəbi məktəbini yaratdı. "Molla Nəsrəddin" jurnalı vasitəsilə Mirzə Ələkbər Sabir yetişdi və Azərbaycan ədəbiyyatında Sabir ədəbi məktəbi yarandı. "Molla Nəsrəddin" Sabiri kəşf etdisə, Sabir də məcmuənin geniş yayılmasına rəvac verdi. Ə.Haqverdiyev bunu nəzərdə tutaraq yazırdı: *"...təb Sabirin idi, istedadi-şeiriyyə Sabirin idi, fəqət mövzu verən "Molla Nəsrəddin" və Cəlil Məmmədquluzadə idi*" [87, s.271].

"Molla Nəsrəddin" ədəbi dərgi olmasa da, jurnalın əsasını qoyduğu ədəbi məktəb milli özünüdərkin formalaşdırılmasına mühüm töhfələr verdi.

Təxminən eyni vaxtda "Füyuzat" jurnalı da nəşrə başlayır. "Həyat" qəzetinin 1906-cı il sentyabrın 3-də çıxan sonuncu sayında "Füyuzat" jurnalının yaranması xəbəri ilə bağlı elanda Ə.Hüseynzadə yazırdı: *"Həyat" qəzetəsi bu gündən etibarən tətil etdiyi üçün yerinə "Füyuzat" namı ilə ədəbi, fənni, ictimai-siyasi bir həftəlik məcmuə intişara başlayacaqdır"* [52]. Bununla milli mətbuatda ilk dəfə olaraq mətbuatın ədəbi yönü önə çəkilir, jurnalın səhifələrində ədəbi-bədii materiallara geniş yer verməklə, qısa bir müddətdə ədəbi prosesdə bədii, ədəbi zövq formalaşdırmağa töhfə vermişdir. Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının

gücləndirilməsinin bu nəşrin fəaliyyəti ilə bağlı olduğunu nəzərə alsaq, ədəbi mətbuatın milli-mənəvi problemlər sahəsində nə qədər əhəmiyyət daşıdığını görməmək mümkün deyil. Ədəbi-bədii, ideoloji düşüncəni formalaşdıran “Füyuzat” jurnalı Azərbaycan ədəbiyyatında romantizmin istiqamətlərini müəyyənləşdirdi. Ayrı-ayrı yollarla eyni məqsədə doğru səmtlənmiş hər iki jurnal, belə demək mümkünsə, xalqın milli “mən”lik və istiqlal şüuru tarixinin M.F.Axundzadə mərhələsindən sonra “*Azərbaycanda milii ideya, milli ədəbi-bədii tərəqqi tarixində kontekstlərin radikal bir şəkildə dəyişməsini”* [101, s.185] şərtləndirdi. Uzun müddət sovet ədəbiyyatşünaslığı bu iki jurnal arasında ziddiyyətli məqamları kəskin münaqişə və fikir ayrılığı səviyyəsində qabardıb. Müstəqillik illərində isə, bəzi müəlliflər subyektiv səmimi rəğbətdən çıxış edərək, *“...Molla Nəsrəddin” xəttini də danmayaraq, “Molla Nəsrəddin”in və “Füyuzat”ın arasında heç bir fərq olmadığını sübut etməyə cəhd göstərirlər. Bu isə yanlış qənaətdir. “Füyuzat”ın, “Molla Nəsrəddin”in ictimai-ədəbi yönləri və linqvistik prinsipləri kəskin fərqlidir. Bu polemik münasibət, ilk növbədə, dillə bağlıdır”* [32, s.61].

Hər iki ədəbi məktəbin səciyyəvi cəhətləri ilə bağlı ədəbiyyatşünas, Xalq yazıçısı E.Əfəndiyevin analogiyası bu məqamı vurğulayır ki, biri nə qədər həyati, digəri nə qədər elitar olsa da, xalqın gələcəyi ilə bağlı düşüncələrində, elm və maariflə bağlı, nadanlıq və cəhalətə qarşı eyni mövqedə olan bu nəşrlərin fərqli cəhətləri o idi ki: “*Molla Nəsrəddin”in mündərəcatı bir az sol tərəfdən baxışı ifadə edir,”Füyuzat”ın mündərəcatı isə bir az sağ tərəfdən baxışı ifadə edir, ancaq həmin mündərəcatın daxili kütləsi eynidir”* [56, s.157].

Sovet dövrü ədəbi mətbuatının orqanı olan “Maarif və mədəniyyət” jurnalı tarixi missiyası, fəaliyyət prinsipləri baxımından “Molla Nəsrəddin” və “Füyuzat” jurnallarının xələfidir, həmin nəşrlər kimi, milli-estetik təfəkkürümüzün ifadəsidir.*“Molla Nəsrəddin”in yaradıcıları jurnalın nəşrini zəmanənin tələbi, cəmiyyətin ehtiyacı kimi qiymətləndirərkən nə qədər haqlı idilərsə, “Azərbaycan”ın sələfi “Maarif və mədəniyyət” jurnalını da uzaqgörən milli düşüncə sahiblərinin tarixi dəyərləndirmək fürsətindən düzgün yararlanmaq cəhdləri yaratdı”* [18, s.168]. İlkin məqsədi maarifçiliyi artırmaq və mədəniyyət sahəsində olan yenilikləri əks

etdirmək olan jurnalın “Maarif” adlandırılması qərara alınmışdı. “Təlim və tərbiyə” adlı şöbənin yaradılması nəşrin Əsasnaməsində maarif, məktəb, pedaqoji məsələləri işıqlandırmaq məqsədi kimi izah olunurdu. Sonralar bu şöbənin adı dəyişdirilərək, “İctimai və siyasi şöbə” adlandırılmışdı və Xüsusi şöbənin funksiyasını daşıyırdı. Bununla belə, jurnal ilk nömrəsindən ədəbi-bədii nəşr kimi fəaliyyət göstərmiş, oxucunun bədii tələbatını ödəməyə çalışmışdır. Jurnalın redaksiyası Maarif Evində yerləşirdi və nəşrin ilk redaktoru ədib və maarif xadimi Tağı Şahbazi (Simurğ) olmuşdur.

Birinci nömrəsi 1923-cü il yanvarın 28-də çapdan çıxmış “Maarif və mədəniyyət” jurnalının məqsəd və vəzifələri Xalq maarif komissarı Mustafa Quliyevin “Maarif və mədəniyyət” sərlövhəli baş məqaləsi və “Bir-iki söz” adlı redaksiya məqaləsində şərh edilmişdir. Yeri gəlmişkən, jurnalın ilk müraciətinin müəllifi, 1923-1926-cı və 1929-1931-ci illərdə həm də jurnalın məsul redaktoru olmuş M.Quliyev nəşrin repressiya qurbanı olmuş beş redaktorundan biridir.

Azərbaycanda maarifi inkişaf etdirməyi, dilimizin saflığını qorumağı qarşısına məqsəd qoyan jurnal bu işdə ədəbi qüvvələrə bel bağlayırdı: *“Ümid ediriz ki, bu məcmuə ümumazərbaycan ədib və mühərrirlərinin fikri ittihadla ədəbiyyatımızın tədqiq və intişasına yardım edəcəkdir. Bu barədə Azərbaycan maarifi yolunda hər qələm əhlinin bizə yardım etməsi onların borcudur”* [111, s.3].

Jurnalın ilk nömrəsində dərc olunmuş Hüseyn Cavidin “Peyğəmbər” pyesindən parçalar, Cəlil Məmmədquluzadənin “Zırrama” və Tağı Şahbazi Simurğun “Aldanmış ümid” hekayələri, Salman Mümtazın Nəsimi haqqında irihəcmli oçerki, Hənəfi Zeynallının “Şeyda” əsərindən bəhs edən yazısı, Abbas Səhhətin fransız şairi Alfred Müssedən tərcümə etdiyi “Mais gecəsi” şeiri, professor Presmanın qeydləri, Mustafa Quliyevin yazdığı baş məqalə və digər materiallar jurnalın ədəbi siyasətinin mənzərəsini təqdim edirdi, yəni jurnalda üslubların, istiqamətlərin, tərz və meyillərin rəngarəngliyinin gözlənilməsi nəşrin heç də siyasi ideologiyanın tribunası kimi düşünülmədiyini deməyə əsas verir. Bu, əslində, bir qədər sonra baş verəcəkdi və həmin dövr sonralar şərti olaraq, cəmiyyəti qanunların yox, “yuxarıdan” qərarların idarə etməsi dövrü kimi səciyyələndirilirdi.

Jurnalın nəşrə başladığı ilk illər, ölkədə siyasi-ideoloji mərhələnin əvvəli milli ədəbi təfəkkürün taleyində müxtəlif ədəbi nəsillərin birgə rolundan danışmağa imkan verir. Bu illər ədəbi-bədii janrların, üslubların, mövzu və süjet rəngarəngliyindən danışmağa müəyyən qədər imkan versə də, həmin dövrü daha çox müzakirələr, mübahisələr, Mehdi Hüseynin təbiri ilə desək, "ədəbi döyüşlər" dövrü kimi səciyyələndirmək olar. Tendensiya XX əsrin 20-ci illərinin ortalarında, daha konkret deyilsə, ideoloji iqtidarın ədəbiyyat sahəsində siyasəti haqqında 1925-ci il Qətnaməsinin qəbul edilməsindən sonra başlanmışdı. Onun mahiyyətində ədəbi mühitdə proletar ədəbiyyatının hegemonluğuna nail olmaq dururdu. *"Bu sənəddə ilk dəfə 20-ci illərdə fəaliyyət göstərən yazıçılar rəsmi surətdə sinfi mövqedən üç qrupa bölündü: proletar yazıçıları, burjua-qolçomaq yazıçıları və cığırdaşlar! Məhz bundan sonra ədəbi mübahisələr bədii-estetik problemlərə doğru yol aldı. Əslində, 30-cu illər ərəfəsində ədəbiyyatda cığırdaşlar uğrunda çarpışma gedirdi"* . [157, s.164]

Sosrealizm ideyası ilə ədəbi-nəzəri qarşıdurmanın güclənməsinin əsas səbəbi partiyanın XVI qurultayında irəli sürülmüş "Sosializmin bütün cəbhə boyu geniş hücumu!" şüarı idi: "*...qurultayın qərarları əsasında milli məsələyə meylə qarşı mübarizə fəallaşdı; partiyanın bəzi üzvləri belə hesab edirdilər ki, vahid beynəlmiləl dil tətbiq etməyin vaxtı çatıb,.. siyasi, təsərrüfat və administrativ rəhbərliyi mərkəzləşdirmək tələb olunurdu, az qala respublikaları ləğv etmək təklif edilirdi* [180, s.648].

İfrat sovetləşmənin səbəbləri üzərində düşüncələr Yaxın Şərq, eləcə də Türkiyə ilə münasibətlərə fokuslanmağı labüd edir; XX əsrin 20-ci illərində bir qrup ziyalı – H.Cavid, B.Çobanzadə, Ə.Abid və b. Türkiyədə təhsil almışdılar, üstəlik, Bakıya dəvət olunmuş bir çox türk müəllimləri ali təhsil ocaqlarında dərs deyirdilər. Bakı Dövlət Universitetinin müəllimi İsmayıl Hikmətin iki cildlik "Azərbaycan ədəbiyyatı" kitabı F.Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsərindən sonra ən yaxşı mənbə hesab olunurdu. O, həm də "Maarif və mədəniyyət" jurnalının səhifələrində elmi-nəzəri məqalələri ilə fəal çıxış edirdi. Daha bir türkiyəli ziyalı – Mühitdin Birgen də Azərbaycan mədəniyyəti və ədəbiyyatı üçün az iş görməmişdi. *"...jurnalın ilk baş redaktoru Tağı Şahbazi o zamanlar Xalq maarif komissarının müavini vəzifəsində çalışırdı və vaxt məhdudluğundan jurnalın baş redaktoru vəzifəsini*

*Mühitdin Birgen icra edirdi*” [138, s.8].

Ədəbiyyatşünas, tənqidçi, tərcüməçi V.Quliyev *“jurnalın başlanğıcdan seçdiyi, doğru-düzgün istiqamət məni xoş mənada heyrətləndirdi*” şərhində M.Birgenin 1923-1924-cü illərdə jurnalda dərc olunmuş *“ümumtürk ədəbiyyatı, ortaq türk dili, Azərbaycan türk ədəbiyyatında dünyəvilik, xəlqilik, millilik və demokratizm, humanizm və bəşərilik haqqında söylənən və bu gün də əhəmiyyətini itirməyən, saxta ideologiya və mənasız “izmlərdən” uzaq”* məqalələrinin səciyyəsi ilə bağlı qənaətlərinə istinad etdiyini bildirir və onu da əlavə edir ki, “Azərbaycan” belə bir zəmin, belə bir bünövrə üzərində ucalıb [113, s.59-60]. Yeri gəlmişkən, tədqiqatçı A.Paşayeva 1924-cü ilin sentyabrından 1925-ci ilin iyun ayına qədər jurnalın nəşrində yaranmış fasiləni M.Birgenin, Azərbaycan Fövqəladə Komissiyasının qərarı ilə, 1923-cü ilin sonunda respublikadan çıxarılması faktı ilə izah etməyin ağlabatan olduğunu qeyd edir [138, s.8]. Fasilə ilə bağlı belə bir yozum heç də məntiqi görünmür və belə yanaşmanı doğru hesab etmək üçün daha inandırıcı arqumentlərin göstərilməsinin vacibliyini düşünürük.

1920-ci il rus-bolşevik işğalından sonra bir qrup milli ziyalı, o cümlədən M.Rəsulzadə, M.Məmmədzadə, Ə.Topçubaşov, Ə.Ağaoğlu və b. ölkəni tərk etdilər. Mühacirətdə də ideoloji mübarizəni davam etdirən bu insanlar mətbu çıxışları ilə sovetlərin siyasətini davamlı şəkildə ifşa edirdilər.

1927-ci ildən sonra SSRİ – Türkiyə münasibətləri gərginləşdiyinə görə türk ziyalıları da Azərbaycanı tərk etməli oldular. Siyasi-ideoloji mühitin qarşıdurması şəraitində bu ölkələrin ədəbiyyatları ideoloji cəbhənin tərəfləri kimi qəbul etdirilirdi. Bununla belə, bolşevik ideoloji institutları türk kommunist Nazim Hikməti, Tofiq Fikrəti nəşr edir, yaradıcılıqlarını təqdir edirdi. Leninqrad Şərqşünaslıq məktəbi azərbaycanlı tələbə Əli Nazimi Türkiyəyə ezamiyyətə göndərirdi, həmin ölkədə məqaləsinin dərc olunması isə, “siyasi sayıqlığın itirilməsi” kimi qiymətləndirilirdi. SSRİ-də, xüsusən Azərbaycanda pantürkist axtarışları gücləndirilir, türkdilli xalqların ortaq ədəbi abidəsi olan “Kitabi-Dədə Qorqud” ideoloji cəhətdən zərərli hesab edilərək, qadağan olunur, ümumilikdə, türkdilli xalqların şifahi və yazılı ənənələrinə “müharibə elan edilir”, bu sahə üzrə mütəxəssislər ən ağır repessiya işgəncələrinə

məruz qalır, əsərləri məhv edilirdi.

Jurnalın ilk sayından başlayaraq, klassik irsə münasibətin jurnalın ədəbi siyasətində aparıcı xətt olduğunu görmək olar. Klassik ədəbi irsin tədqiqi ilə bağlı məsələlər qaldırılır (S.Mümtazın "Azərbaycan şairlərindən: İmadəddin Nəsimi" irihəcmli oçerki; bu, Azərbaycan ədəbiyyatşünaslığında İmadəddin Nəsimi ilə bağlı ilk yazıdır, Şah İsmayıl Xətainin şeirləri və s.) [125, s.20-30] və həmin istiqamət bu gün də davam etdirilir. Bu, təkcə folklora, şifahi xalq ədəbiyyatı nümunələrinə müraciət, klassik mətnlərin süjetlərinə, bədii əsərlərin strukturuna, poetik sintaksisinə və s. müraciətlərlə müşayiət olunmur. Müstəqillik dövründə də bədii məndəricəyə, fəlsəfi mahiyyətə, ideya dəyərlərinə, estetik təfəkkür tərzinə yaxınlıq və bağlılıqda da özünü göstərir. *"M.F.Axundzadə irsinin öyrənilməsi, əsasən, sovet dövründə həyata keçdiyinə görə, mütəfəkkirin ərəb-islam mədəniyyətilə bağlı fikirləri daha çox ideoloji mənfəət yönümündən istifadə edilmişdir. Nəticədə ‚...ədibin bu istiqamətdə baxışlarına bir çox hallarda obyektiv şəkildə yanaşılmamışdır. Dövrümüzdə mütəfəkkirin fəlsəfi, estetik və dini görüşləri heç bir ideoloji təpgi olmadan tədqiq edilməli, ərəb-islam mədəniyyəti ilə bağlı baxışları əsaslı və geniş şəkildə öyrənilməlidir*" [91, s.172].

Yeni sovet mədəniyyəti yaratmaq adı altında xalqları, o cümlədən Azərbaycan xalqını tarixi-mədəni keçmişindən uzaqlaşdırmaq, əsrlərlə formalaşmış mütərəqqi ənənələrdən imtina, milli-mənəvi dəyərlərin sıxışdırılması əsas hədəfə çevrilirdi. Bu məqsədini həyata keçirməkdə ədəbiyyatı bütövlükdə bir mətbu tribuna, vasitə kimi görən bolşevik ideologiyasının "strukturuna" partiya qərarları, ədəbi direktivlər daxil edilirdi. "Pantürkizm", "panislamizm", milli-tarixi yaddaşa qarşı mübarizə, humanitar siyasətin "məntiqi" əsası kimi, tənqid və təqibin dövriyyəsini sürətləndirirdi. İyirminci illərin ortalarından başlayaraq, bu siyasətə qarşı dirəniş göstərənlər yalnız "köhnələr" deyildi. Sovet quruluşunu alqışlayan, Azərbaycan sovet ədəbiyyatının yaradıcıları olan şair və yazıçıların, az da olsa, bir qismi milli düşüncəyə, mədəni irsə şovinist münasibətlə razılaşmayaraq, etirazlarını ən müxtəlif səviyyələrdə və formalarda bildirirdilər. Əlbəttə, bu, açıq, kəskin etiraz deyildi, daha çox dolayı təəssübkeşlik, müdafiə səciyyəli idi, bununla belə, ədəbi siyasətdə bu yöndə hər cür

cəhdlər “idarəolunmazlıq” təhlükəsi kimi qiymətləndirilir, dərhal kəskin hücumlara məruz qalırdı. Həmin dövrün ədəbi tənqidi ziyalıları estetizmə qapılmaqda ittiham edir, belələrini yalnız öz həyatları ilə məşğul olmaqda qınayır, eləcə də, Azərbaycanın tarixi keçmişini tərənnüm etməyi siyasi sayıqlığın itirilməsi kimi qiymətləndirirdi. Həmin ziyalı qrupuna mənsub H.Cavid xüsusilə “hədəfdə” idi: *“...H.Cavid öz Teymurləngini səhnəyə çıxarır və o müstəbid qaniçici fatehi idealizə etməyə başlayır. H.Cavid öz qara gözlüyünü çıxarmalı, həyata yaxından baxmalı, bir dəfə də olsa, işçi dairəsinə getməli, Lenin fabrikasını, Şmidt zavodunu, özəkləri, klubları gəzməli idi. O zaman başqa cür yazar, başqa cür düşünər, başqa cür görər və hiss edərdi”* [112, s.9].

Əruz və heca vəznlərini köhnəlik sayan, tarı, muğamı “əzilən siniflərin fəryadı” kimi qiymətləndirən M.Quliyev, bir yandan, tarın tədrisinə qarşı çıxır, əvəzində türk xalq nəğmələrinin toplanıb işlənməsini vacib sayır, bir yandan da: *“bən heç də məhəlli xalq musiqisi alətlərinin əleyhdarı deyiləm, məhəlli nəğmə və alətlərin öyrənilməsi və toplanmasına hər türlü yardımda bulunmaq tərəfdarıyam*” – yazırdı. Bu, yalnız bir kommunist ziyalının ifrat marksist mövqeyi ilə düşüncələrindəki ziddiyyətli ikiləşmə deyildi, bu, əslində, həmin dövrün bir çox ideoloqunun faciəsi idi.

Azərbaycan sovet poeziyasının yaradıcılarından biri olan Səməd Vurğunun 30-cu illərdə “siyasi-ideoloji sayıqlığı ittiham olunarkən, şair mövqeyini belə əsaslandırırdı: *“...mən kommunistəm, ona görə də mən özümü ən böyük internasionalist hesab edirəm. Mən bütün insanlara, bütün xalqlara və millətlərə səadət arzulayıram və bu yolda çalışıram. Lakin bununla bərabər, məndən ötrü ən müqəddəs torpaq Azərbaycandır, ən doğma xalq isə Azərbaycan xalqıdır, onun dili və şeiri mənim vicdan səsimdir, doğma anamdır. Əgər buna görə məni millətçi etmək istəyirlərsə, qoy etsinlər. Bir gün gələr, tarix həqiqəti açar”* [171, s.37].

Yeri gəlmişkən, S.Vurğun nəzəri görüşlərində klassik irsin milli müəyyənliyinə xüsusilə diqqət ayırmış, eləcə də, “Avesta”, “Kitabi-Dədə Qorqud” kimi ədəbi abidələrin milli təfəkkürün, estetik düşüncənin formalaşmasında və inkişafında rolunu yüksək qiymətləndirmişdir. Azərbaycan fəlsəfəsinin böyük abidələrindən biri

hesab etdiyi “Avesta”nı məzmununa və əhəmiyyətinə görə, həm də dünyanın mənəvi inkişafında qiymətli sənəd olduğunu müxtəlif məqalə və çıxışlarında qeyd edən şair bədii yaradıcılığında da, məsələn, “Fərhad və Şirin”, “Muğan”, “Hürmüz və Əhrimən”, “Zərdüştün xülyaları” və b. əsərlərində həmin mövzudan mənbə kimi yararlanmışdır. *“... özü də Səməd Vurğun bunu o vaxt edirdi ki, ictimai-ideoloji mühit bu məqsəd üçün o qədər də hazır və münasib deyildi. Məlum rejimin qara projektorları öz “işığını” təkcə ayrı-ayrı ziyalıların, fikir adamlarının üzərinə deyil, əsrlərin o üzündən bu günə körpü olan abidələrimizin də üstünə salırdı və “Avesta”nın, “ Kitabi-Dədə Qorqud”un lazımınca tədqiqi dövrün məntiqinə zidd idi.*” [40, s.20].

“İnsan” mənzum faciəsinin “Vətən uğrunda” [172] jurnalında dərcindən sonra onun Zərdüştün fəlsəfəsinə uymasını vurğulayırdılar. Şair isə, ideologiyanı şəxsi və milli hisslərin mühitində anlamağı, sevməyi doğru sayır, yaradıcı düşüncəsini “*çoxəsrlik milli ideologiya, fəlsəfə, psixologiya və mənəviyyatın nəcibliyinin”* (S.V) daşıyıcısı kimi qiymətləndirirdi.

Əlbəttə, ədəbi orqana yalnız ədəbi prosesin salnaməsi, inikas vasitəsi kimi yanaşmaq onun ictimai funksionallığını məhdudlaşdırmaq demək olardı. Ədəbi orqan, hər şeydən əvvəl, ədəbi-bədii mövqeyi və platforması ilə dövrün, zamanın şəraitinə tabedir. Ona görə də bir əsrlik tarixi olan bu jurnal zaman keçdikcə mövzu-ideya istiqamətlərində müəyyən dəyişikliklərə məruz qalsa da, estetik-ədəbi dəyərlərə sadiq olmuşdur.

Nəşrə başlaması ilə həm də ən müxtəlif təmayüllərə, nəsillərə və ictimai görüşlərə mənsub ziyalıları bir araya gətirməklə, “ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında” partiya qərarının (23 aprel, 1932-ci il) yerinə yetirilməsi ilə yanaşı, jurnalın milli ədəbiyyatın inkişafı sahəsində xidmətləri danılmazdır.

“Maarif və mədəniyyət” jurnalının fəaliyyəti, populyarlığı onun ətrafında yazıçıların birləşməsinə və təşkilatlanmasına zəmin olmuşdur. İdeoloji idarəetmənin bir vasitəsi kimi nəzərdə tutulmuş ədəbi cəmiyyətlər “ümidləri doğrultmadı”. Yeni istiqamətli ədəbiyyatın yaradılması, sovet quruluşunu təbliğ edən yazıçıların təşkilatlanması məqsədi ilə sovet yazıçılarının I Ümumittifaq qurultayında iştirak

edən Azərbaycan nümayəndə heyətinin üzvləri – C.Cabbarlı, M.K.Ələkbərli, S.Rüstəm, M.Müşfiq, S.Vurğun, S.Mümtaz, Q.Qantəmir, M.Hüseyn, Y.Şirvan, Ə.Nazim və b. artıq jurnalın ətrafında birləşmişdilər. 1927-ci ildən "İnqilab və mədəniyyət" adı ilə nəşr edilən jurnal 1934-cü il iyunun 13-də Azərbaycan Yazıçılarının I qurultayında Azərbaycan Yazıçılar İttifaqının orqanı kimi qəbul olundu.

İdeologiyaya münasibətdə fərqli mövqedə duran yaşlı və gənc ədəbi nəsillər jurnalda eyni dərəcədə təmsil olunurdular. A.Şaiq, S.S.Axundov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, S.Mümtaz, B.Çobanzadə, Ə.Nazim, Ə.Abid və digər tanınmış ziyalılar jurnalın ədəbiyyat siyasətinin müəyyən edilməsində yeni ədəbi qüvvələrlə birgə iştirak edirdilər. İdeoloji təyinatından asılı olmayaraq, Stalin rejiminin ədəbiyyata, incəsənətə qarşı apardığı mənəvi terrora baxmayaraq, ədəbi qüvvələr bədii yaradıcılıq nümunələri, eləcə də nəzəri görüşlərində milli-mənəvi dəyərlərə, xüsusən folklora, klassik irsə, onun tədqiqinə, ədəbiyyatın nəzəri məsələlərinə, tərcümə vasitəsilə ədəbi-bədii fikrin inteqrasiyasına mümkün qədər diqqət ayırmağa çalışırdılar.

Aydın məsələdir ki, ictimai-siyasi münasibətlər dəyişkənliyinin mədəni mühitin məzmununa və mahiyyətinə təsiri qaçılmazdır. İnqilablar, siyasi dəyişkənliklər və keçid dövrü adlandırılan mərhələ həmişə ahəngdar inkişafa mane olur. Həmin mürəkkəb dövrdə hansı amillər daha aktiv olursa, cəmiyyətdə mənəvi-mədəni mühiti də həmin amillər səciyyələndirir. Bu yenilənmə daha çox sənətin və yaradıcı fərdin üslubunda, dil sistemində özünü göstərir. XX əsrin 20-ci illəri də bu mənada istisna deyildi. Yeni sovet-bolşevik ideologiyasının tərkib hissəsi kimi yaranan ədəbiyyatın ideoloji iqtidarı nəşrin adının tez-tez dəyişməsini bu mənada diqqətdə saxlayırdı. *"...təkcə zamanın ədəbi mənzərəsini deyil, həm də müxtəlif ictimai-siyasi proseslərin ziddiyyətli məqamlarını öz səhifələrində əks etdirən, ciddi ədəbi meyarlarla nəşr edilən"* [123, s.15] jurnalın adı fəaliyyət göstərdiyi illər ərzində altı dəfə dəyişdirilmişdir. Jurnal ilk nömrəsindən başlayaraq, 48-ci nömrəsinədək "Maarif və mədəniyyət", 1928-ci ildən 1936-cı ilin 6-cı nömrəsinədək "İnqilab və mədəniyyət" adı ilə nəşr olunmuşdur. Bu illərdə artıq hər şey inqilabın tam və qəti

qələbəsinə səfərbər edilirdi. Ədəbiyyatın "aləmdən nəşəyə" (S.Rüstəm) keçidi təqdir olunur, sənətin kütləviləşdirilməsi şüarı ümumi yaradıcılıq prinsipinə çevrilirdi. Ana dilinin sıxışdırılmasının, eləcə də, ideoloji-siyasi basqının bariz nümunəsi kimi, jurnalın 1936-cı ilin 6-cı nömrəsindən 1941-ci ilin 5-ci nömrəsinədək "Revolyusiya və kultura" adlandırılması ideologiyanın milli-mənəvi dəyərlərə münasibətini ifadə edirdi.

"Maarif və mədəniyyət" jurnalının sosial-pedaqoji funksiyası XX əsrin iyirminci illərinin sonuna doğru inteqrativ funksiyanı üstələyərək, inzibati təsir sisteminin rıçaqlarından birinə çevrildi. Bu, yalnız bir ədəbi jurnal səciyyəsi olmayıb, ümumən siyasi, mənəvi-etik dəyərlərin mahiyyətini yeni düşüncənin və sovet həyat tərzinin təbliğinə yönəlmiş ideoloji texnologiyaları, alətləri rejimin səciyyəsinə uyğunlaşdırmaq məqsədi güdürdü. Bu da başadüşüləndir; hətta bu gün də, hətta ən demokratik ölkələrdə belə, humanitar mədəniyyət rəsmi siyasətə dəstək olur. Burada əsas məsələ maarifləndirmədir və jurnalın adında təsbit olunmuş bu funksiya onun fəaliyyətində həmişə aparıcı olmuşdur. Bir qədər bu ifadənin məğzinə varmaqla qeyd etmək lazımdır ki, siyasətin kütləviləşməsinə xidmət edən yaradıcı fərdlər "göstərişlə dövriyyəyə buraxılan" ideyaları, adətən, şəxsi mövqe kimi "dərk edərək", bu ideyaların yayılmasına və oturuşmasına həvəslə qoşulurdular. Lakin cəmiyyətin həyatında elə ciddi və mürəkkəb məqamlar olur ki, bu zaman "yuxarıların" və "aşağıların" mövqeyi nəinki üst-üstə düşür, hətta təbliğat siyasətin önünə keçir.

Böyük Vətən müharibəsi başlanandan – 1941-ci ilin iyun ayından etibarən, 1946-cı ilin 4-cü nömrəsinədək "Vətən uğrunda" adı ilə jurnalın 28 nömrəsi çıxmışdır. 1946-cı ilin 5-ci nömrəsindən, 1952-ci ilin 12 nömrəsi də daxil olmaqla, jurnal yenidən "İnqilab və mədəniyyət" adı ilə nəşr olunmuşdur. 1953-cü ildən isə, Səməd Vurğunun təklifi ilə "Azərbaycan" adı ilə çıxır.

Yeri gəlmişkən, burada "Azərbaycan" adı ilə çıxmış jurnallarla bağlı qısa məlumat verməyi məqsədəuyğun hesab edirik. Belə ki, eyni adlı jurnal ilk dəfə Təbrizdə (1906-1907) "Molla Nəsrəddin" jurnalının təsiri altında nəşr olunmuşdur. Daha bir "Azərbaycan" jurnalı "Azərbaycan Kültür Dərnəyi"nin orqanı kimi 1952-ci ildən Ankarada nəşrə başlamış, sonradan "Azərbaycan Türk Kültür Dərgisi" adı ilə

çıxmış və nəşri hazırda da davam edir. Azərbaycan Demokrat Partiyası Mərkəzi Komitəsinin orqanı kimi fəaliyyət göstərmiş "Azərbaycan" qəzetinin 1956-1960-cı illərdə redaktoru şair Hökümə Bülluri olmuşdur.

*"Səhər erkən alçaqdan uçan təyyarələr səngərlərə Berlində latın qrafikası ilə Azərbaycan dilində çap olunmuş "Azərbaycan" adlı qəzetin yeni-yeni nömrələrini salırdılar (səpirdilər – A.S.). Bu qəzetlərdə əsgərlərin çoxunun bilmədiyi Müsavat partiyasının məramnaməsi, Azərbaycan Demokratik Cümhuriyyəti hökümətinin 1918-ci ildə bəyan etdiyi proqram açıqlanır, Azərbaycan şairlərinin milli ruhda yazılmış şeirləri dərc olunur, legionerlərin sovet cəmiyyətinin eybəcərliklərini, ordu sıralarında rusların başqa millətlərə qarşı apardığı ayrıseçkilik siyasətini, qəddarlıqlarını, qeyri-humanist münasibətlərini ifşa edən yazıları çap olunurdu"* [132, s.56].

"Azərbaycan" jurnalı, hansı ad altında çıxmasından asılı olmayaraq, sovet totalitar ideoloji sistemi daxilində ədəbiyyatın, milli dilin, mədəniyyətin, bir sözlə, yaddaşın qorunması baxımından bu gün də mühüm mənbə olaraq qalır. Adlarının müxtəlifliyinə rəğmən, Azərbaycan Yazıçılar Birliyinin orqanı olan jurnal ilk nömrəsindən bugünədək ədəbiyyatın təbliği işində müstəsna xidmət göstərmişdir. Təsadüfi deyil ki, bu illər ərzində mədəniyyətimizdə onun yeri və rolu "Azərbaycan ədəbiyyatının salnaməsi", "ədəbiyyatımızın güzgüsü", böyük yaradıcılıq məktəbi" metaforaları ilə fərqləndirilmiş, jurnalın fəaliyyəti ədiblərimiz, şairlərimiz üçün təcrübə məktəbi, "yazıçılıq akademiyası" (S.Rəhimov) kimi dəyərləndirilmişdir. "*Milli ədəbiyyat və mədəniyyətin, ana dilimizin daha geniş yayılmasına və zənginləşməsinə aparan yollardan biri və ən böyüyü "Azərbaycan" jurnalından keçir*" [114, s.60] – fikri jurnalın yalnız nəşr faktı deyil, fərqli ictimai münasibətlər sistemində milli mədəniyyət quruculuğunun tərkib hissəsi, vasitəsi olduğunu ifadə edir. Ona görə də jurnalın tarixinin öyrənilməsi, bütövlükdə ədəbiyyatımızın, mədəniyyətimizin keçdiyi yolun öyrənilməsidir.

Azərbaycan ədəbiyyatının tarixini öyrənmək və müasir ədəbi prosesi qiymətləndirmək üçün mühüm ədəbi mənbələrdən biri olan "Azərbaycan" jurnalı yarandığı ilk illərdən Azərbaycan bədii fikrinin ən yaxşı nümunələrinin – klassik və

müasir ədəbiyyatın, folklor və tərcümə nümunələrini oxuculara çatdırmaq kimi mühüm bir vəzifəni yerinə yetirir. *"Artıq tarixə çevrilmiş sovet dövrünün ədəbi problemlərini dolğunluğu ilə əks etdirən jurnal bu gün də ədəbi prosesin aynası kimi çıxış edir"* [70, s.4].

Jurnal təkcə Azərbaycan ədəbiyyatının tarixini öyrənmək və müasir ədəbi prosesi qiymətləndirmək üçün mühüm mənbə, Azərbaycan bədii fikrinin ən yaxşı nümunələrini – klassik və müasir ədəbiyyatını, folklor və tərcümə nümunələrini oxuculara çatdıran bir dərgi, dəyər daşıyıcısı deyil, həm də mədəni, ictimai-siyasi hadisədir. Bir əsrlik tarixi olan "Azərbaycan" jurnalı özü ədəbi fakta, janra çevrilmişdir. Cəmiyyətin humanist ovqatda inkişafına can atmaq, cəmiyyət üzvlərinin mənəvi gücünün artmasını, ümumi ahəngi, harmoniyanı təmin etməyə öz töhfəsini vermək düşüncəsi aşılamaq bu gün də jurnalın qarşısında duran əsas məsələlərdən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin daxili siyasət kursunun əsas tezislərindən olan *"Ölkənin gələcəyini və uğurlu inkişafını təmin edən təbii resurslar deyil, humanitar amildir"* prizmasından yanaşıldıqda, "Azərbaycan" jurnalının 100 illik yaradıcılıq yolunu ictimai-siyasi və sosial-mədəni kontekstdə aşağıdakı kimi ümumiləşdirmək olar:

Müəlliflərin xalqa bağlılığı, milli ədəbi dilə münasibətdə peşəkarlığın yüksək səviyyəsi jurnalda milli-mənəvi dəyərlərin uğurla əks etdirilməsini təmin edir. Jurnal milli özünüifadə və özünütəsdiqin optimal variantını milli-mədəni-mənəvi məzmundan güc alan vurğunu qabartmaq və onu daha geniş əraziyə ötürə bilən kommunikasiya nümunəsi olmaqda görür və bu mövqeyində də yüksək demokratik düşüncəsinə sadiqdir: *"rəqabət yox, sağlam, xoş niyyətli tərəfdaşlıq və əməkdaşlıq "Azərbaycan" jurnalının müəllif və mətn siyasətində, yaradıcı istedadın özünüifadə imkanlarının reallaşdırılmasında söykəndiyi əsaslardır"* [9, s.158].

İlk vaxtlarda mədəniyyətlərin rəngarəngliyini real imkanlardan və mövcud mexanizmlərdən bəhrələnməklə humanitar əməkdaşlığa yönləndirmək platformasında fəaliyyətə başlamış "Maarif və mədəniyyət" jurnalının "İnqilab və mədəniyyət", "Revolyusiya və q(k)ultura" kimi ad – enerji dəyişkənliyinə məruz qalması, bu yöndə partiyanın ədəbiyyat siyasətinin əsl üzünü göstərən 1925-ci ilin məlum qətnaməsi

Azərbaycan cəmiyyətinin həyatında olduğu kimi, jurnalın da taleyində ağır izlər qoymuşdur; jurnalın beş redaktoru, onlarla müəllifi repressiya qurbanı olmuşdur.

"Azərbaycan" jurnalının inkişaf tarixinin növbəti – ikinci mərhələsi repressiya siyasətinin, Böyük Vətən müharibəsinin nəticələrindən, dünyanın siyasi-ideoloji mənzərəsində sosializm düşərgəsinin möhkəmlənməsi, eləcə də, şəxsiyyətə pərəstiş dövrünün "mülayimləşmə" ilə əvəz olunması dövrünə düşür. Repressiya siyasətinin fəlakətləri yalnız XX əsrin 30-cu illərində qalmadı, tarixin yaddaşını zədələdi. Bu zədələnən tarix, ideoloji texnologiyalar sisteminin də insanlıq qədər fəlakət yaşadığını söyləyir. "Azərbaycan" jurnalı XX əsrdə 37-ci ilin qanlı repressiya siyasətini, sovet-bolşevik totalitar rejiminin sərt senzurasını, II Dünya savaşının, Böyük Vətən müharibəsinin ağrılarının saxta nikbinlik pafosunu da özündə yaşadır. Bu mənada jurnalın salnaməsini yalnız uğurlar salnaməsi kimi səciyyələndirmək doğru olmaz. "Azərbaycan" jurnalının səhifələrində, məs., "Ədəbiyyat" qəzetinin səhifələrində aldığı yer qədər olmasa da, dövrün konyukturasının müəyyən izləri də var, Xalq yazıçısı Elçinin təbirincə desək, *"Dali sürrealizmini xatırladan "ədəbi" hadisələr də ( məs.,"Dədə Qorqud"un faktiki olaraq "düşmən" elan edilməsi, yaxud faciəvi 1937-39-cu illər repressiyasının ədəbiyyata soxulması və "ifşalar*") həmin səhifələrdə qeyd olunub. *"...Söhbət, obyektiv salnamədən, özü konyukturaya uymadan dövrün ədəbiyyatını və ədəbi hadisələrini, təmayüllərini, mühitini olduğu kimi təcəssüm etdirən bir salnamədən gedir*" [53, s.7].

XX əsrin 60-cı illərində siyasi "mülayimləşmə"nin təsiri özünü göstərdikcə, humanitar düşüncədə, incəsənətdə, ədəbiyyatda mənəvi dəyərlərin yenidən "sərf – nəzər edilməsi" başlanmışdı. Ənənəvi sosiomədəni məkan hələ öz mövqeyini qorusa da, Azərbaycan ədəbiyyatı tarixində 60-cılar nəsli "Azərbaycan" jurnalının timsalında özünüifadə ünvanı tapdı. Bu nəslin istedadlı nümayəndələri – poeziyada Ə.Kərim, F.Sadıq, F.Qoca, Ə.Salahzadə, V.Səmədoğlu, İ.İsmayılzadə və s. gənclərə, nəsrdə Y.Səmədoğlu, M.İbrahimbəyov, R.İbrahimbəyov, Anar, Elçin, İ.Məlikzadə və başqa imzalara meydan verməklə, jurnal, əslində, yeni ədəbi çağırışları, estetik meyilləri aktuallaşdırdı. *"...onların ədəbiyyata, sənətə gəlişi ilə ədəbiyyatda, sənətdə bütöv bir mərhələ başlanır, yeni cərəyan – fikir, düşüncə məktəbi formalaşır və özünü təsdiq*

*edir – ədəbiyyatda, bədii fikirdə yeni dəyərlər, prinsiplər, görüşlər, zövqlər doğurur Ədəbiyyat sanki başqalaşır, yenidən doğulur"* [146, s.160].

Hakim sosializm realizminin prinsiplərinin çərçivələrindən kənara çıxmaqla, yaradıcı ədəbi azadlığı dəstəkləməklə, jurnal müstəqil düşüncə meyillərinə meydan verdi. Burada bir məqam üzərində dayanmağı vacib hesab edirik ki, müstəqillik dövrü ədəbiyyatşünaslığında, xüsusən ədəbi tənqidində hakim ədəbi iqtidarın – sosrealizmin təftişi inkar üzərindən aparılır, onun ədəbi-mədəni düşüncənin inkişafında rolu rədd edilir. Müəyyən məqamların qarşıdurma, ayrı-seçkilik, birtərəfli yanaşma ilə təhriflərə, özü də kifayət qədər ciddi təhriflərə məruz qalması danıla bilməz. Lakin bu da həqiqətdir ki, yalnız bir cərəyanın hökmranlığı bədii-estetik "bozluğu" şərtləndirsə də, ədəbi dilimizin inkişafı məhz bu dövrdə gücləndi, Azərbaycan coğrafiyası parçalanmaya məruz qalsa da, bədii düşüncə birləşdirici amil olaraq qalmağı bacardı. Bunu Azərbaycan ədəbiyyatında Cənub şeirləri, Araz rəmzi və s. nümunələr təsdiq etdi. Odur ki, *"...sosrealizmin XX əsr Azərbaycan ədəbiyyatının inkişafına vurduğu zərəri qətiyyən sərf-nəzər etməməli, əldə edilmiş bədii-estetik dəyərləri qiymətləndirməyi bacarmalıyıq"* [56, s.165].

60-cılar ədəbi nəslinin siyasi rejimə qarşı mübarizə apardığını iddia etmək olmaz və ümumiyyətlə, bu nəsil siyasi iqtidara müxaliflik iddiasında olmamışdır. Ədəbi iqtidarın prinsiplərindən uzaqlaşmaq cəhdləri, ədəbi azadlığın imkanlarını genişləndirirdi. Həmin dövrdə jurnal mənəvi dirçəlişə rəvac verən bədii düşüncəni milli özünüdərk platformasına istiqamətləndirən yeganə ədəbi tribuna idi.

70-ci illərin sonu – 80-ci illərin əvvəllərində "Azərbaycan" jurnalının nəsr, dramaturgiya, publisistika örnəkləri ilə tarixi yaddaşın bərpa olunması, milli özünüdərkin inkişafı, milli mənlik şüurunun güclənməsi istiqamətində xidmətləri xüsusilə qeyd olunmalıdır. "Adımız, tariximiz, taleyimiz", "Ədəbi yaddaş", "Ədəbi faciələr", "Tarix: həqiqətlər, fərziyyələr", "Açılmamış səhifələr", "Ədəbi irsimizdən", "Cənubdan səslər", "Türk dünyamız" və s. rubrikalarda təqdim olunan müxtəlif materiallarda təkcə yazıçı və şairlər deyil, müxtəlif sahələrdə çalışan ziyalılar, elm və sənət xadimləri qlobal və məhəlli problemləri qabardır, cəmiyyətin diqqətini taleyüklü məsələlərə yönəldirdilər.

Jurnal 80-ci illərin ortalarında ölkədə "yenidənqurma"nın, aşkarlığın verdiyi imkanlardan yararlanmağa, cəmiyyəti maraqlandıran aktual məsələlərə, etnomədəni problemlərə diqqət yönəltməyə, yeni ədəbi axtarışlara yol açmağa çalışır. Məhz bu dövrdə Azərbaycan ədəbiyyatında böyük hadisə kimi qiymətləndirilən bir əsərin – yazıçı Yusif Səmədoğlunun "Qətl günü" romanının dərc olunması Azərbaycan ədəbiyyatının yeni keyfiyyət mərhələsinə keçdiyini, dolayısı ilə ədəbi iqtidara və siyasi rejimin ideoloji əsaslarının çürüklüyünə qarşı münasibətini ifadə edirdi.

Fərqli ictimai-siyasi münasibətlər sistemində fəaliyyət göstərmiş jurnal milli ədəbiyyatı inkişaf etdirmək missiyasını ehkam kimi yox, yaradıcı şəkildə bu gün də davam etdirir; dövrün bədii-estetik dərkinə xidmət etməklə yanaşı, yeni minilliyin ədəbi-bədii düşüncəsinin dünya mədəniyyəti kontekstində yerini və əhəmiyyətini gücləndirməklə. *"Azərbaycan" jurnalının müstəqillik dövründəki fəaliyyəti bu ədəbi orqanın çoxillik ömür yolunun ən şərəfli səhifəsidir. Sözün həqiqi mənasında, "Azərbaycan" jurnalı bütün janrlar üzrə yeni tarixi epoxanın ən yaxşı əsərlərinə geniş yer verməklə müstəqillik dövrü ədəbiyyatımızın formalaşması və inkişafına məsuliyyətlə xidmət edir"* [88, s.8].

Jurnalın inkişaf tarixinin müstəqillik dövrü mərhələsinin səciyyəsi fərqli ədəbi-estetik platformaların rəqabəti mühitində fəaliyyət göstərməsidir. Cəmiyyətin sosializmdən, ədəbi-bədii düşüncənin sosrealizmdən azad olduğu bu dövrün ilk illəri daha çox xaosu səciyyələndirir. Bu xaosun dağıdıcı, inkarçı iddiaları cəmiyyətdə və ədəbi-bədii fikirdə ənənə – novatorluq qarşıdurması, "qocaları öldürmək zamanı" (R.Kamal) yarlıqları ilə həvəslə qaynayıb-qarışırdı. Yeri gəlmişkən, *"bəşər nəslinin bütün tarixi boyu yaratdığı dəyərləri saf-çürük etmədən həzm – rabedən keçirmək istəyi ən yeni postmodernist konsepsiyanın aparıcı xüsusiyyəti kimi özünü büruzə verir"* [110, s.172-174].

Alternativ ədəbi-mədəni tribuna və platforma olmaq iddialarının nümayiş etdirildiyi nihilist mövqe, ədəbi nəsillərə qarşı dözümsüzlük fonunda sağlam, ağıllı, dərrakəyə sığışacaq həddə yeniliyi alqışlamağın tərəfdarı olan klassik jurnalın mövqeyi həmin illərdə də, bu gün də diqqətəlayiqdir; milli-mədəni, ədəbi-bədii dəyərlərə nihilist münasibətə, konkret olaraq, klassik ədəbi irsə, xüsusən Azərbaycan

ədəbiyyatının çox mühüm bir dövrünə arxa çevriləndə "mühafizər" damğasından çəkinməyən jurnal məqamlar üzərində dayanmaq yox, məqamlararası vəhdətə xidmət etmək xəttini əsas götürür: "*...siyasi basqılara baxmayaraq, xalqımızda milli ruhu qoruyub yaşatmaq üçün çox böyük işlər görmüş yazıçılarımızın üstündən asanlıqla xətt çəkiləndə – mühafizəkarıq. Biz illərlə cilalana-cilalana yaranmış gözəl, saf, dumduru Azərbaycan dilimizlə necə gəldi rəftar olunanda, onun strukturu... pozulanda – mühafizəkarıq"* [108, s.12].

2003-cü ildə "Azərbaycan" jurnalının 80 illik yubileyi ərəfəsində Azərbaycan Respublikasının Prezidenti, ədəbiyyatımızın böyük dostu və himayədarı, Ümummilli lider Heydər Əliyev "Ədəbiyyat tariximiz üçün mühüm hadisə olan yubiley münasibətilə" təbrik məktubunda müasir və klassik Azərbaycan ədəbiyyatına əsas yer verməklə yanaşı, Azərbaycan oxucusunu dünya ədəbiyyatının qiymətli nümayəndələri ilə müntəzəm olaraq tanış edən jurnalın fəaliyyətini yüksək qiymətləndirirdi: "*...Onun səhifələrində ədəbi prosesi əks etdirən tənqidi yazılar, elmi araşdırmalar, publisistika və incəsənətə dair materiallar da geniş yer tutmuşdur. Bütün bunlar "Azərbaycan" jurnalını yarandığı gündən ədəbiyyatımızın güzgüsünə çevirmişdir... Artıq tarixə çevrilmiş sovet dövrünün ədəbi problemlərini dolğunluğu ilə əks etdirən jurnal bu gün də ədəbi prosesin aynası kimi çıxış edir"* [70, s.4].

Bir daha vurğulamaq istərdik ki, nəşrin ədəbiyyat tarixinin öyrənilməsi baxımından ciddi mənbələrdən biri olması həm də onunla şərtlənir ki, XX-XXI əsrlər ədəbi nəsillərinin yaradıcılıq axtarışları, uğurları, hətta sapmaları jurnalda bütün polifonizmi ilə əhatə olunmuşdur. Bir yaradıcılıq orqanı kimi jurnalın fəaliyyətinin elmi tədqiqata cəlb olunması, biblioqrafiyasının hazırlanması, universitetlərin filologiya və jurnalistika ixtisaslarında seçmə fənn kimi tədris olunmasını şərtləndirən də bu amillərdir.

Beləliklə, jurnalın tarixinə qısa, icmal şəklində ekskurs göstərir ki, "Azərbaycan" jurnalının tarixi bütövlükdə XX əsr ədəbiyyatımızın, mədəniyyətimizin tarixidir. 70 illik sovet totalitar rejimi çərçivəsində "Maarif və mədəniyyət", "İnqilab və mədəniyyət"... və nəhayət, "Azərbaycan" adları altında çıxmasına baxmayaraq, milli ədəbiyyatın və dilin, etnomədəni yaddaşın

qorunmasında onun xidmətləri danılmazdır.

“Azərbaycan” bu müddət ərzində ədəbi dilin qorunmasında, ədəbi qüvvələrin birləşməsində əvəzsiz rol oynamışdır. Senzuranın amansız təzyiqlərinə, repressiyanın qanlı və buz nəfəsinə, ideoloji məhdudiyyətlərə və yasaqlara baxmayaraq, “Azərbaycan” jurnalı Azərbaycan ədəbiyyatının əsas mənəvi “sığınacaq yeri” olaraq qalmışdır.

“Azərbaycan” jurnalı müstəqillik illərində milli ədəbiyyat tarixinin tərkib hissəsi olmuş, Azərbaycan sovet ədəbiyyatı və onun yaradıcıları, sosrealizmin ziddiyyətləri, eləcə də, bu ziddiyyətlərin işıqlandırılmasında obyektiv elmi nəzərdən çıxış etmək mövqeyini qorumağa çalışmışdır. Azərbaycan ədəbiyyatında baş verən yeniliklərə bu dövrdə də həssas yanaşmaqla, müasir ədəbi prosesin inkişafının mənzərəsini əhatə edən jurnal ədəbi prosesin mövcud durumunu və inkişafını müəyyənləşdirən nüfuzlu ədəbi orqan kimi fəaliyyətini davam etdirir.

## 1.2.“Azərbaycan” jurnalının strukturu və əsas bədii yaradıcılıq istiqamətləri

Bu gün “Azərbaycan” jurnalı müstəqil Azərbaycanın Yazıçılar Birliyinin aylıq ədəbi-bədii orqanıdır. Onun sələfi olan “Maarif və mədəniyyət” jurnalı 1926-cı ildə Azərbaycan Xalq Maarif Komissarlığı və Qızıl Qələmlər Cəmiyyətinin, 1928-ci ildən Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin orqanı kimi fəaliyyət göstərmişdir. 1934-cü il iyunun 13-də Bakıda Azərbaycan Yazıçılarının I qurultayında Azərbaycan Yazıçılar İttifaqı yaradılarkən, “İnqilab və mədəniyyət” jurnalı bu yaradıcılıq təşkilatının orqanı kimi təsdiq olunmuşdur.

1923-cü ildən bu günədək, ayrı-ayrı vaxtlarda dövriliyində müəyyən azalmalar, tirajında dəyişikliklər olsa da, heç bir il də olsun, nəşrini dayandırmamışdır. Yalnız 90-cı illərin əvvəllərində ölkədəki siyasi-ictimai mənzərənin xaosu, ən başlıcası, müstəqilliyin ilk kövrək addımlarında dövlətin idarəçiliyi naşılıq və səriştəsizliyin əlində qalanda, media subyektləri, o cümlədən Yazıçılar Birliyinin orqanları

mətbuatın taleyinə etinasız münasibətin qurbanı qismində, hətta bağlanmaq təhlükəsi qarşısında qaldı. "Azərbaycan" jurnalının ədəbi-tarixi missiyasının məsuliyyətini dərindən dərk edən redaksiya əməkdaşları və bir çox müəlliflər nəşrin fəaliyyətini dayandırmaması üçün hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirdilər. Jurnalın həmin dövrdə baş redaktoru olmuş Y.Səmədoğlunun: *"Dəhşətli poliqrafiya çətinlikləri ilə üzləşsək də, minimum əmək haqqı ilə razılaşsaq da, hətta son aylarda əsər sarıdan qıtlıq çəksək də, getmək fikrimiz yoxdur"* [153, s.4] qətiyyəti nə qədər nikbin olsa da, sərt reallıq ciddi maddi-mənəvi dayağın qaçılmaz olduğunu diqtə edirdi. Belə bir vaxtda total zərurətin yenidən Azərbaycan rəhbərliyinə gətirdiyi prezident Heydər Əliyevin Yazıçılar Birliyi və onun ədəbi orqanlarının büdcəyə qəbul edilməsi ilə bağlı göstərişi ilə nəşrlərin ardıcıl dövriliyi bərpa olundu. *"Ən vacib məqamlardan biri ədəbi jurnalın funksiya və spesifikasının doğru-düzgün yerinə yetirilməsidir. Ədəbi jurnal nə qəzetdir, nə tənqid dərgisi, nə sürüşkən başlıqlara qucaq açan internet saytı, nə də xəbər bülleteni... Jurnalın əsas vəzifəsi çağdaş ədəbiyyatımızın ümumi mənzərəsini konkret bədii əsərlər vasitəsilə göstərməkdir"* [74, s.115].

Bu və digər məsələlərin ardıcıl, davamlı və əhatəli şəkildə izlənilməsi və ümumiləşdirilməsinə imkan verən peşəkar sistemləşdirmə nəşrin kompozisiya – struktur bitkinliyinin nəticəsində mümkündür. Jurnalın bədii strukturu ədəbiyyatın aparıcı ədəbi növlərinə (nəsr, poeziya, dramaturgiya, publisistika və ədəbi tənqid) əsasən müəyyənləşmişdir.

Jurnalda Poeziya, Nəsr, Publisistika, Tənqid və ədəbiyyatşünaslıq, Dramaturgiya, biblioqrafik xarakterli Kitab rəfi daimi rubrikaları ilə yanaşı, hər ilin sonuncu sayında təqdim olunan il ərzində jurnalda dərc olunmuş materialların adlı siyahısı rubrikalar üzrə sistemləşdirilmiş şəkildə verilir. Şifahi xalq ədəbiyyatı, folklor, o cümlədən, onun peşəkar yaradıcılıq hadisəsi kimi qiymətləndirilən aşıq yaradıcılığı nümunələri, dünya xalqları, eləcə də postsovet ölkələri xalqlarının ədəbiyyatından bəhs edən bədii əsərlər, ədəbi-tənqidi materiallar işıq üzü görür. İncəsənət, mədəniyyət, mətbuat, dilçilik, tarix, fəlsəfə, hüquq və digər elm sahələrini əhatə edən ümumi xarakterli materiallar da jurnalın zəngin mündəricəsini izləməyə

imkan verir, şifahi və yazılı qaynaqlarla əlaqələri, milli-ədəbi təfəkkürün qatları arasında tarixən mövcud olmuş rabitəni qorumağa və möhkəmləndirməyə çalışır.

Jurnalın Azərbaycan romanının və modern poeziyanın, bədii publisistikanın formalaşmasında əhəmiyyətli rolunu qeyd etmək lazımdır.

Peşəkar yazıçıların jurnalı olan "Azərbaycan" S.Əhmədli, İ.Muğanna, İ.Əfəndiyev, İ.Şıxlı, Ə.Cəfərzadə, B.Bayramov, H.Abbaszadə, M.İbrahimbəyov, Ə.Məmmədxanlı, Y.Səmədoğlu, Anar, Elçin, R.İbrahimbəyov, İ.Məlikzadə, F.Kərimzadə, M.Süleymanlı, R.Rza, B.Vahabzadə, M.Araz, M.Yaqub, X.Rza, F.Qoca, N.Həsənzadə, İ.İsmayılzadə, R.Rövşən, S.Azəri, F.Sadıq, A.Abdullazadə, V.Əziz, S.Rüstəmxanlı, Ə.Əmirli, A.Məsud, F.Mustafa kimi yazıçı və şairlərin əsərlərinin dərci ilə yanaşı, həm də yeni nəsil yazıçılarını formalaşdırmışdır. V.Bayatlı, R.Qusarçaylı, A.Mirseyid, Z.Sarıtorpaq, V.Bəhmənli, F.Məmmədli, T.Nurəli, N.Bəyim, Q.Nəcəfzadə, R.Tağızadə, S.Abdulla, S.Budaqlı, Ç.Abdullayev, S.Alışarlı, M.Cəfərli, K.Əfsəroğlu, İ.Fəhmi, E. Hüseynbəyli, M.Nur, F.Uğurlu, Varis, V.Nuru, Q.Turalı, T.Vahid kimi yazıçı və şairlər yeni bədii düşüncənin formalaşmasında bu tribunadan istifadə edirlər. Bütün bunlar "Azərbaycan" jurnalının yeni ədəbi mühitin aynası olmağına imkan vermiş və əsas tribunasına çevirmişdir.

"Azərbaycan" jurnalı istedadlı gəncliyin özünüifadə imkanlarını Ədəbi gənclik, Gənc tənqidçinin tribunası, Debüt rubrikalarında təmin edir, ədəbi prosesin yeni imzalar, alternativ düşüncə və meyillərlə, yaradıcılıq axtarışları ilə bağlı eksperimentlərlə, müasir tərz və üslublarla zənginləşməsinə xidmət edir.

Müstəqillik dövründə bu struktur saxlanılmaqla yanaşı, yeni rubrikalar açılmışdır. Rubrikaların ildən-ilə zənginləşməsi nəşrin ədəbi siyasətinin bir hissəsi olmaqla, cəmiyyətin ictimai-siyasi həyatında baş verən mühüm hadisələrin ədəbi yaddaşda proyeksiyası kimi qavranılır.

Jurnalın yaradıcı strukturuna son illərdə daha geniş şəkildə daxil olmuş "Ədəbi söhbətlər" rubrikası təcrübənin bölüşdürülməsi, təhlili, milli mədəniyyətin ədəbi təcrübəsinin müasir ədəbi dövriyyəyə daxil edilməsi baxımından əhəmiyyətlidir. Bu söhbətlər bir yaradıcılıq nümunəsi timsalında məhdudlaşmayaraq, müxtəlif ədəbi

nəsillərin bu prosesdə iştirakının mənəvi dəyər prizmasından təhlilini gündəmə gətirir. Jurnalın 2021-ci ildə dərc olunmuş bütün nömrələrində Nizami Gəncəvinin 880 illiyi çərçivəsində şairin yaradıcılığının ən müxtəlif rakurslardan təhlilinə həsr olunmuş "Nizami söhbətləri" rubrikası yeni yaradıcı forma axtarışlarındandır. İlin sonunda "Nizami söhbətləri"nin ayrıca kitab halında nəşri "Azərbaycan"ın nizamişünaslığa və "Nizami ili" tədbirləri silsiləsində humanitar mədəniyyətə xidmətlərindən biridir.

"Azərbaycan ruhunu onda daha yaxşı anladım" – türkiyəli alim, Azərbaycan ədəbiyyatının bilicilərindən biri Yavuz Akpınarla jurnalın baş redaktoru İntiqam Qasımzadənin, akademik Nizami Cəfərovla ədəbiyyatşünas Nərgiz Cabbarlının söhbətləri ("O qapılar bizim təfəkkürümüz üçün bağlanıb...") Azərbaycan ədəbiyyatı tarixinin ən dərin qatlarına enməyə, həmin dövrlərin qaranlıq qalmış məqamlarına aydınlıq gətirilməsi ilə ədəbi ictimaiyyətdə rezonans doğurmuş uğurlu layihələrdəndir.

Ümumiyyətlə, jurnalın milli və ədəbi düşüncənin tarixi, zamanın bədii-estetik dərkinə yönəlmiş janr və struktur siyasəti belə deməyə əsas verir ki, "Azərbaycan" yeni ideoloji istiqamətdə də qabaqcıl ənənələri, milli düşüncəni unutdurmamağa çalışaraq, ənənə və müasirliyin üzvi sintezində, humanitar mədəniyyətin zənginləşməsində, milli ədəbi-bədii düşüncənin sərhədlərini genişləndirməklə, ədəbi prosesdə fəal iştirak edir. Son yüz ilin yazıçısının, belə demək mümkünsə, belə deməyə haqqı var: "Biz hamımız "Azərbaycan" jurnalının şinelindən çıxmışıq" (N.Xəzri). Bu isə o deməkdir ki, Azərbaycan ədəbi prosesinin təşkilində və inkişafında "Azərbaycan" jurnalının böyük rolu vardır. Ümumiyyətlə, müstəqillik dövründə jurnalda Azərbaycan ədəbi prosesinin hadisəsi sayıla biləcək əsərlər çap edilmişdir.

Jurnalın "Dəyirmi masa" ənənəsi həm də cəmiyyətdə dialoq mədəniyyətinin formalaşmasına, fərdi deyil, toplum məsuliyyətin dərk olunmasına və işləkliyinə nail olmaq, dəyərləri sağlam münasibətə yönləndirmək baxımından da diqqətəlayiqdir.

Müəyyən aktual problemə həsr olunan "Dəyirmi masa"da konkret mövzular müzakirə edilir, təklif və tezislər ümumiləşdirilir. "Qəzəl de ki..." Dəyirmi masası

janrın təkamülü və müasir ədəbi prosesdə yeri məsələlərindən bəhs edir. Elmi-nəzəri yanaşmaların yüksək təhlili və çağdaş qəzəl şairlərinin klassik ədəbi irsə münasibəti baxımından həmin Dəyirmi masa jurnalın növbəti ədəbiyyat kollokviumu kimi yadda qalır. Eləcə də "Sufizm: dünən və bu gün" mövzusunda keçirilmiş Dəyirmi masa oxucuya mənəvi mədəniyyətin yeni çağırışlar və qloballaşma kontekstində dəyərləndirilməsi və transformasiya imkanlarını izləmək imkanı verir. Dramaturgiyanın və teatrın, nəsrin problemləri, ayrı-ayrı əsərlərə həsr olunmuş masaətrafı söhbətlər müasir ədəbi prosesin təhlili, milli ədəbi dilin problemləri ilə bağlı ictimai müzakirələrin dinamikasının səciyyəsində xüsusi çəkiyə malikdir. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və "Azərbaycan" jurnalının birgə təşkilatçılığı ilə keçirilmiş və jurnalın xüsusi buraxılışına – Xalq yazıçısı Elçinin "Baş" romanına həsr olunmuş Dəyirmi masa ədəbi ictimaiyyətdə böyük maraq doğurmaqla, bu qurumlar arasında səmərəli ədəbi əlaqələrin ənənəvi xarakter almasına xidmət edir.

Ədəbi prosesi yalnız milli ədəbiyyat faktı hesabına zənginləşdirməklə məhdudlaşdırmayaraq, jurnal, həmçinin dünya ədəbiyyatının ciddi və nadir nümunələrini Azərbaycan oxucusuna çatdırmaq üçün tərcümə siyasətini müstəqillik dövründə xüsusilə diqqətdə saxlayaraq, bir vaxt SSRİ məkanında qadağan olunmuş əsərlərin orijinaldan tərcüməsini dərc etmişdir. Kifayət qədər olan belə nümunələr sırasında C.Oruellin "Heyvanıstan" və "1984" əsərlərini qeyd etmək olar. Hər iki əsəri orijinaldan Vilayət Quliyev tərcümə etmişdir. P.Züskindin "Ətriyyatçı" (tərc.: C.Yusifli), "Göyərçin" (tərc.: Ə.Rzazadə), P.Koelyonun "Kimyagər" (tərc.: İ.İsmayıl), Hötenin "Şərq-Qərb divanı" (tərc.: S.Rüstəmxanlı), Baninin "Qafqaz günləri" (tərc.: Hamlet Qocayev), Borxesin "Dante haqqında doqquz esse" (tərc.: S.Ağabalayeva), Q.Q.Markesin "Nağıllar üçün yaşa" (tərc.: A.Quliyeva), C.Miltonun "Areopagitika" siyasi essesi (tərc.: N.Əhmədli), eləcə də "Nobel mükafatı laureatları" silsiləsi ilk dəfə "Azərbaycan" jurnalında dərc olunmuşdur. *"Bütün dövrlərdə dünya ədəbiyyatından tərcümələrə də geniş yer ayırmış "Azərbaycan" jurnalı möhtəşəm bir tərcümə almanaxı seriyası yaratmaq vəzifəsini də uğurla həyata keçirmişdir"* [89, s.11].

Ədəbiyyat tarixində yaradıcılıqları mühüm əhəmiyyət kəsb edən yazıçıların yubileylərinin qeyd olunması jurnalın ədəbi irsə və ənənəyə münasibətinin göstəricilərindən biridir. Yubiley – anım günlərinin xatırlanması mədəni yaddaşın “ayaqda qalmasına” imkan verir. Bu, həm də etnosun tarix səviyyəsində dərk olunmasıdır; özünü bu səviyyədə dərk edəndə böyük mədəniyyətin daşıyıcıları və yaradıcıları olmaq mümkündür. Bu da bir həqiqətdir ki, hər yaradıcılıq yolu rəmzləşə, hər yaradıcı tale obrazlaşa bilmir. Düşüncəni səmtləndirə biləcək enerjini görmək, duymaq, onun ötürücülüyünü təmin etmək yubileylərin qeyd olunmasının bir məqsədidir. *“Bu, bütöv bir dövrün, bir və bir neçə ədəbi nəslin keçdiyi yolun, mühitin sərf – nəzər olunması, yenidən dəyərləndirilməsinə, stimul və istinad nöqtələrinin təyin olunmasına bir imkandır. Bu, humanitar siyasətin tərkib hissəsi olmaqla yanaşı, eyni zamanda, müxtəlif sistemlərin daxilində mədəniyyətlərin müqayisə olunması, qarşılaşdırılması deməkdir”* [1, s.14].

Yubileylər, adətən, bir neçə rubrikada aparılır: “Dünya, səndən kimlər keçdi...”, “Nizami Gəncəvi – 880”, “S.Rəhimov – 100”, Anarın 85 yaşı” və s. Burada dilin semantikası baxımından bir məqam diqqətəlayiqdir: həyatda olan yazıçıların yubileyləri qeyd olunarkən, məsələn, “Sabir Rüstəmxanlı – 75” yazılması məqbul hesab oluna bilməz; yubilyar həyatdadır, cari ədəbi prosesdə iştirak edir.

Onu da xatırlatmalıyıq ki, 1926-cı ildən jurnalın əlavəsi kimi “Ədəbi parçalar” adlı ayrıca məcmuə buraxılırdı. “Əlavələr” ənənəsini müstəqillik dövründə “Xüsusi buraxılış” formatında bərpa edən jurnal Xalq yazıçısı Elçinin “Baş” romanını (2015-ci il) ilk dəfə olaraq ayrıca nəşr etmiş, 2017-ci ildən etibarən “Dramaturgiya”, “Uşaq ədəbiyyatı” xüsusi buraxılışlarını illik dövriyyəyə daxil etmişdir.

“Azərbaycan” jurnalı siyasi-ideoloji baxımdan iki fərqli cəmiyyətdə fəaliyyət göstərdiyindən, bədii-estetik axtarışlarında, fəaliyyət strategiyasında dəyişikliklərin olması təbiidir. On ildən çox olmayan ilk illər jurnalın, belə demək mümkünsə, inteqrativ funksiyası ilə diqqəti cəlb edir. Birlik, həmrəylik mənasında bu funksiya siyasi-ideoloji platformanın möhkəmləndirilməsi naminə dini, sosial-psixoloji müxtəlifliyin bir məqsəd yoluna gətirilməsi, yeni quruluşun mahiyyəti ilə bağlı fərqli düşüncəyə malik ədəbi qüvvələrlə əməkdaşlıq yeni vahid mədəni-mənəvi məkanın

formalaşdırılması üçün məqsədəuyğun idi.

Bir əsrlik ədəbi-bədii təcrübəyə malik jurnalın 1923-cü ildən 1970-ci illərə qədərki mərhələsində siyasi senzura daha çox müdaxilə etmişdir; bəzən əsərlər qayçılanmaya məruz qalmış, bəzən isə, ümumiyyətlə, dərcinə icazə verilməmişdir. Bəzi hallarda redaktorların bu və ya digər dirənişi sayəsində bədii əsərlər çətinliklə işıq üzü görmüşdür. Yusif Səmədoğlu ədəbi mühitin tanınmış şəxsiyyətlərindən idi, bununla belə, yazıçının "Qətl günü" romanının "Azərbaycan" jurnalında dərci də çox çətinliklə baş vermişdi. M.Süleymanlının "Dəyirman" povesti çap olunsa da, povest ətrafında Yazıçılar İttifaqında və mətbuatda gedən müzakirələr onu göstərirdi ki, yalnız siyasi sistemin senzurası deyil, elə ədəbi senzura da mövcuddur. Bununla belə, B.Vahabzadənin "Gülüstan" poemasının respublikanın mərkəzi mətbuat orqanlarında çapına icazə verilmədiyindən, müəllif əsəri "Şəki fəhləsi" qəzetində (1962-ci il) çap etdirə bilmişdi. Əsərdə senzuranı narahat edən məqam bu əsərdə milli dil və milli kimliklə bağlı cəsarətli şair mövqeyi idi, elə ona görə də müəllifi həbs təhlükəsi gözləyirdi. Amma B.Vahabzadə həbs olunmadı; Moskvanın əksinə olaraq, Bakıda "dissident ovu"na həvəs göstərilmirdi. Əksər hallarda isə belə əsərlər heç yerdə çap olunmurdu. *"Xatırlayıram ki, yalnız Moskvanın deyil, hətta Pribaltika kimi sərbəst, müstəqil fikirə alışmış regionların belə, ziyalıları bizim bəzi kitabları oxuyanda, tamaşa və filmlərimizi görəndə onların yasaqlanmamasına təəccüb edirdilər"* [31, s.2], 70-80-ci illərdən başlayaraq, siyasi sistem zəiflədikcə, "Azərbaycan"ın səhifələrində cəsarətli, vətəndaşlıq mövqeyindən yazılmış əsərlərin sayı artıq görünməyə başlayır. Əslində, həmin dövrlər üçün "dissident ədəbiyyatı" kimi dəyərləndirilə bilən bəzi bədii əsərlərin dərc olunmasının səbəbləri sırasında respublikanın siyasi rəhbərliyində Heydər Əliyevin olması faktı danılmazdır. *"Heydər Əliyevin qoruduğu, arxasında dayandığı işlərin, əsərlərin yaddaş və tarixlə bağlı hər qatında milli tariximizin, milli varlığımızın nəfəsi duyulurdu. Bu qatlar tarix, dil, azadlıq idealları, istiqlal vuruşu idi"* [24, s.3].

"Azərbaycan" jurnalı 80-ci illərin ortalarında SSRİ-də M.Qorbaçovun "yenidənqurma" və "aşkarlıq" adı ilə başladığı prosesdən mümkün qədər yararlanmağa, cəmiyyəti maraqlandıran mövzulara, problemlərə diqqət yönəltməyə,

müstəqil düşüncəyə yol açmağa çalışırdı. Əslində, 60-70-ci illərdə həyata, gerçəkliyə yeni təfəkkür tərzi ilə baxan, hakim ideologiyaya heç də rəğbət bəsləməyən düşüncə sahiblərinə, ədəbi qüvvələrə, xüsusilə 60-cı illərin gənc ədəbi qüvvələrinə tribuna olan jurnal daha çox söz, ifadə azadlığı, müstəqil düşüncə meyillərinə meydan verdi. Milli-mədəni, mənəvi təkamüldə mühüm rolu olmaqla yanaşı, XX əsrin əvvəllərində olduğu kimi, 80-ci illərin sonunda da qabaqcıl ictimai-mədəni fikrin, milli oyanışın, milli dirçəlişin və milli düşüncənin formalaşmasında və inkişaf etdirilməsində Azərbaycan ədəbiyyatının mühüm qolu olan yazıçı publisistikasının xidmətləri danılmazdır.

80-ci illərin sonlarından başlayaraq, cəmiyyətdə baş verən ictimai-siyasi proseslərdə milli düşüncəni əks etdirən bu ədəbi orqanın da mühüm rolu var idi. "Azərbaycan" jurnalının müstəqillik ərəfəsi və müstəqillik dövrü fəaliyyətində çoxşaxəlilik, çoxistiqamətlilik, milli-mənəvi dəyərlərin əks etdirilməsi əsas yer tutur. Çünki milli-mənəvi dəyərlərin bədii düşüncədə təcəssümü cəmiyyətdə vətəndaşlıq mövqeyini gücləndirirdi. Hər şeydən əvvəl, jurnalda tarixi-publisistik mövzulu materiallara geniş yer verilir. Qarabağ müharibəsi, qaçqın və köçkünlərin vəziyyəti kontekstində yazıçılar, publisistlər Azərbaycanın tarixi-mədəni keçmişinə üz tuturlar. Akademik Z.Bünyadovun (Ə.Rəhimovla birgə) "Tarixi həqiqətlər, yoxsa təhriflər?" məqaləsi məhz bu məsuliyyəti xatırladır: *"Elə əsərlər yazmaq lazımdır ki, oxucu buradakı hadisənin fakt olduğuna inansın. Necə ki, böyük M.F.Axundov yarım səhifəlik tarixi məlumat əsasında "Aldanmış kəvakib" kimi gözəl bir povest yaratdı. Yaxud Ə.Haqverdiyev "Ağa Məhəmməd şah Qacar" faciəsini tarixi mənbələr əsasında qələmə aldığı üçün oxucunu çaşdırmır"* [44, s.172] .

Tarixi yaddaşa qayıdışın Çingiz Hüseynov nümunəsi olan "Fətəli fəthi" romanında mənəvi aspektlər qabardılmaqla, milli mənəviyyatımızın ən ağrılı XIX əsr səhifəsi bədii düşüncəyə gətirlir. Həmin dövrdə xalqın həyatında baş verən ictimai-siyasi hadisələr fonunda M.F.Axundzadəni düşündürən problemləri yazıçı romanın süjet xəttinə gətirir, roman boyu onun insan və insan azadlığı ilə bağlı düşüncələrini təqdim edir. *"Son illərdə yaranan bir çox tarixi nəsr əsərlərinin əsas qayəsi sanki tarixi, ayrı-ayrı şəxsiyyətlərin həyatına aid bilik nümayiş etdirməkdir... Oxucu*

*bununla qane ola bilməz. Seyid Əzim Şirvani, Şah İsmayıl, Xaqani haqqında tarixi romanlarda bu üsul xüsusilə qabarıq nəzərə çarpır. Çingiz Hüseynov isə tarixi hadisələrə müasir elmi-bədii təfəkkür işığından nəzər salmışdır"* [57, s.184].

Müstəqillik illərində də tarixə yeni və obyektiv ictimai baxış üçün imkan yaranır. Prof. T.Əhmədovun "Erməni xəyanəti" (Andranik Ozanyanın vəhşiliyi), B.Vahabzadənin "Şənbə gecəsinə gedən yol" yazıları Qarabağ hadisələrinin mahiyyəti və sovet dövlətinin bu yöndə siyasəti haqqında tarixi faktlara əsaslanan müəllif mövqeyi ilə maraq doğurur. *"...başımıza açılan oyunlar təkcə balaca xalqın deyil, erməni lobbisinin işi deyil. Bu işlərin başında erməni mafiyasına istiqamət verən, onu güclü silahlarla təchiz edən, hətta açıq-açığına müdafiəsinə keçib hər məsələdə Azərbaycan xalqını təkləyən M.S.Qorbaçov özü durur"* [170, s.24]. Jurnal həmin mövzuya kənardan baxışı izləməyə imkan verən yazılara yer verməklə, tarixin saxtalaşdırılması, tarixi həqiqətlərin təhrif olunması cəhdlərini ictimaiyyətə ayrıntılı şəkildə çatdırmağa üstünlük verirdi. Prof. S.Əliyarlının "Buz qırıldımı?" məqaləsi Almaniyada çıxan "Frankfurter Algemeine Zeitunq" qəzetinin redaktoru Volfqanq Günter Lerchin məktubu ilə bağlı geniş şərhi xaricdə Qarabağ hadisələrinə münasibəti ifadə edir. "Dağlıq Qarabağ: uydurmalar və həqiqətlər" başlıqlı yazısı Doktor Tessa Homanın, Əhməd Şmidenin azərbaycanlı ziyalılarla yazışmalarına həsr olunub və Qarabağ ətrafında başlamış siyasi oyunların mahiyyətini dərk etməkdə oxucuya kömək edir.

N.Axundovun "Qarabağ və Qarabağnamələr" məqaləsinin mövzusu, xüsusən 90-cı illərin reallıqları fonunda, tədqiqatını gözləyən Qarabağın tarixi ilə bağlıdır. "Qarabağnamələr" XIX əsr həqiqətlərini kifayət qədər əks etdirsə də, bu mövzu ictimai diqqətdən kənarda qalmışdı. Qarabağın tarixi ilə bağlı qələmə alınmış nümunələr milli tarixi həqiqətlərin öyrənilməsi üçün qiymətli mənbələrdi və yazının müəllifi bu və digər mənbələrə əsaslanmaqla, erməni iddialarını rədd edir: *"Kürəkçay (1805), Gülüstan (1813), Türkmənçay (1828) müqavilələrində Rusiya tərkibinə daxil edilmiş Qarabağ sonrakı dövrlərdə də Yelizavetpol quberniyasının mühüm hissəsi idi. "Azərbaycan Demokratik Cümhuriyyəti" dövründə də mərkəzi Şuşa şəhəri olan Qarabağ vilayəti – hazırkı Dağlıq Qarabağı, aran Qarabağını və 1920-ci ildən sonra*

*ədalətsiz olaraq Ermənistana "töhfə" edilmiş Zəngəzur mahalını əhatə edirdi"* [21, s.159].

Məqalə ermənilərin Qarabağ iddialarının mahiyyətini açması ilə maraq doğururdu. Milli tarixə münasibəti qınamaqla yanaşı, diqqəti Qarabağdakı maddi mədəniyyət abidələrinin vəziyyətinə yönəldən müəllif yazır: "*Əskəran qalasına, Ağaoğlan qalasına, Xudafərin körpüsünə və bir sıra başqa abidələrə etinasız münasibət indi də davam etməkdədir. Şuşanın hələ xanlıqlar dövründə mövcud olan 16 məhlə hamamından yalnız biri qalmışdır... Bərdə abidələri tamamilə sıradan çıxmaqdadır. Qədim Beyləqanın arxeoloji abidələri itib-batır... Halbuki, həmin abidələr Azərbaycan tarixini, o cümlədən Qarabağ tarixini öyrənmək üçün misilsiz əhəmiyyətə malikdir"* [21, s.163].

Publisistik çağırışların kökündə duran tarixin araşdırılması həm də milli dəyərlərə, maddi və mədəni irs nümunələrinə sahib çıxmaq, tarixi reallığın müqayisəli araşdırılması çağırışları bu gün – yaşadığımız tarixi reallıqlar fonunda da aktuallığını qoruyur və bədii publisistikanın mündəricəsini təşkil edir.

İctimai-siyasi rejimlərin və ideyaların müxtəlifliyinə baxmayaraq, hər bir tarixi mərhələdə jurnalın publisistika siyasətinin ümumi mənzərəsini təxminən belə səciyyələndirmək olar: milli mənlik şüurunun qorunması, vətəndaşlıq, elmilik və şəraitin imkan verdiyi qədər obyektivlik keyfiyyətlərini saxlamağa çalışmaq, həm də bunu yaradıcı peşəkarlığın meyarı hesab etmək. *"...ən müxtəlif baxışları, zövqləri, prinsipləri əks etdirən publisistika təkcə demokratiyanın göstəricisi deyil, o həm də fərdin yaradıcı təfəkkürünü cəmiyyətin inkişafına, ictimai şüura təkan verən amillər sırasına çıxarır. Bu yöndən yanaşıldıqda, yaradıcı insanın, sənətkarın publisistikası daha çox onun ziyalı-vətəndaş mövqeyini qabardır* [7, s.167]. Bu xüsusda S.Rüstəmxanlının "Ömür kitabı" publisistik essesinin "Azərbaycan" jurnalında dərcinin cəmiyyətdə doğurduğu rezonansı xatırlatmaq kifayətdir.

Yazıçı publisistikasının aktuallığını xüsusən 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində, müstəqilliyin ilk illərində səciyyələndirən cəhəti həm də ziyalıların bu çağırışlar qarşısında məsuliyyətini səfərbər etmək səyləri idi ki: "*millət tarixin ibrətindən, ilahi, bəşəri, milli yaddaşdan xəbərsiz olanda dövran da bədbin və ağır*

*ləngər vurur, xüsusən ictimai əxlaq, etnik mentalitet böhran keçirir, gələcəyə utopik və apokalipsis baxış güclənir*” [102, s.19] .

Azərbaycan publisistikasına xüsusi prinsipiallıq tonu verən yazıçı publisistikasında M.İbrahimbəyovun “Azərbaycanın ən müasir tarixinin gerçək fraqmentləri” kimi dəyərləndirilən publisistikası müstəqillik illərində tez-tez səsləndirilən: “Ədəbi-bədii mübarizə ictimai-siyasi mübarizənin tərkib hissəsi ola bilirdimi, yaxud bu mübarizəyə nə dərəcədə kömək edirdi?” – sualına cavabda nikbin notları təmin edir. Ədəbi təcrübənin nəticələrinin mənzərəsində aydın emosional rəngi, mədəniyyət intellektinin ötürülməsində xüsusi çəkisi olan bədii publisistika yalnız ayrı-ayrı yazıçıların yaradıcılıq səhifəsi yox, eyni zamanda, ictimai fikir tariximizin, mübarizəmizin “uzaqvuran topu” ola bilmişdir.

Əlbəttə, sovet dövrü jurnalda ideologiyaya və sosializm ideallarına xidmət edərkən publisistikanın klassik ənənələrdən tamamilə uzaq düşdüyünə hökm vermək düzgün olmazdı. “Azərbaycan” jurnalı 80-ci illərin ortalarında ölkədə “yenidənqurma”nın, aşkarlığın verdiyi imkanlardan yararlanmağa, cəmiyyətin mühüm problemlərinə diqqət yönəltməyə, müstəqil düşüncəyə daha geniş imkanlar açmağa çalışırdı. Yuxarıda qeyd etdiyimiz fikri xatırlatmaq yerinə düşər ki, 60-70-ci illərdə həyata, gerçəkliyə yeni təfəkkür tərzi ilə baxan, hakim ideologiyaya heç də rəğbət bəsləməyən düşüncə sahiblərinə, ədəbi qüvvələrə, xüsusilə 60-cılar nəslinin gənc nümayəndələrinə tribuna olmuş jurnal daha çox söz, fikir azadlığı, müstəqil bədii axtarış meyillərinə meydan verirdi.

Böyük Vətən müharbəsində Azərbaycan yazıçısı “Vətən sevgisi bəşəriyyət sevgisindən doğmalıdır” (V.Belinski) prinsipini əldə rəhbər tutaraq çıxış edirdi. Həmin illərdə jurnalın redaktoru olmuş M.Arif “Heyne və faşizm” məqaləsində yazır: “*Faşistlər Qermaniyada hökümət başına keçmələrini dünya mədəniyyətinə qarşı böyük və vəhşi hücumlarla qeyd etdilər*” [36, s.46].

Ədəbiyyatşünas, tənqidçi M.C.Cəfərov da faşizmin milli-mənəvi dəyərlərə vurduğu zərəri qəbul etməyərək, alman xalqının dünya mədəniyyətinə verdiyi töhfələri xatırlayır, faşistlərin alman dühalarını ləkələyən, gözdən salan siyasətini qətiyyətlə pisləyirdi: *“Lessinq kimi böyük bir şəxsiyyətin xatirəsini əbədiləşdirən*

*"Lessinq Cəmiyyəti"ni bağladılar, Bethoven kimi musiqi dühasının əsərlərini qadağan etdilər. 1938-ci ilin sentyabr ayında Bethovenin "Fidelio" adlı əsərini xor böyük həvəslə oxuyurdu. Bu əsərdə azadlıq, insan səadəti və sevinci tərənnüm edilirdi"* [47, s.45].

Burada bir məqamı xüsusi qeyd etmək lazımdır: həmin dövrdə jurnalın yaradıcılıq prinsipləri milli-mənəvi dəyərlərə və ümumbəşəri dəyərlərə əsaslanırdı. Məsələn, müharibənin ən ağır illərində belə, alman faşizminə qarşı intiqama çağıran şeirlərdə, döyüşən ordu sıralarında vuruşan şair və yazıçıların məktublarında, publisistik yazılarda alman xalqını heç bir halda alman faşizmi ilə eyniləşdirmək cəhdinə rast gəlinmir.

Birinci və İkinci Qarabağ müharibəsi illərində də jurnal həmin mövqeyini, istiqamətini davam etdirdi, jurnal səhifələrində yer alan əsərlərdə erməni xalqı ilə "ermənilik", "daşnak" anlayışları eyniləşdirilmədi. Xalq şairi F.Qocanın yaradıcılığı bu mənada səciyyəvidir; şairi ermənilərin vəhşiliyini sübut edən faktlardan çox, daha ciddi bəla olan "ermənilik" qorxudur və onun xəbərdarlığı həm də bu bəlanın, hər kəsdən əvvəl, erməni xalqına fəlakət gətirəcəyi ilə bağlıdır. *Ermənilər də hamı kimi bir millətdi// ermənilik əlindən onların da günü illətdi* – misraları şairin zamana, insanlığa xəbərdarlığıdır, kimi dərk olunur. "Havada qalan" bu mesajın səbəbi onun qənaətini bir az da dərinləşdirir: *Ermənilik kiminin qanındadır, //kiminin canında,// kiminin də vicdanında.* Son illərin "Qarabağ hadisələri", haqq savaşında çaldığımız böyük qələbə Azərbaycan yazıçısının, ziyalısının nə qədər haqlı olduğunu sübut etdi. Bu, Azərbaycan xalqının, Azərbaycan yazıçısının yüksək humanist, insansevər təbiətinin göstəricisidir. Jurnalın biblioqrafı Əmin Əfəndiyev bu həssas və zənnimizcə, sağlam mövqeyi belə şərh edir: *"Əvvəlcə erməni yazıçıların əsərlərindən imtina etmək istədiksə də, sonra bir sıra mütəxəssislərlə məsləhətləşərək, bədxah və qəsbkar qonşuların ədəbiyyatının göstəriciyə daxil edilməsinə qərar verdik və bununla da göstərmək istədik ki, Azərbaycan xalqı, həmişə olduğu kimi, bu məsələdə də geniş ürəkli və xeyirxah niyyətlidir"* [58].

Xalq yazıçısı M.İbrahimbəyov da bu ziyalı mövqeyini bütövlükdə xalq mənəviyyatının göstəricisi kimi qiymətləndirməklə, ümumbəşəri dəyərlərin

qaynağının milli-mənəvi dəyərlər olduğunu bir daha təsdiq edir: *"Mən fəxr edirəm ki, ölkəmin vətəndaşları hətta müharibə dövründə də amansızlaşmadılar və insana layiq işlər görməyi unutmadılar"* [96, s.73].

"Azərbaycan" jurnalı yeni əsərləri dərc etməklə təkcə bədii zövq formalaşdırmır, həm də ədəbiyyata yeni mövzuların, qəhrəman tiplərinin və bədii obrazların, təhkiyə formalarının gəlməsini şərtləndirir. Y.Səmədoğlu irsini "Böyük ədəbiyyat", yazıçının "Qətl günü" romanını "ədəbiyyatımızın həqiqət günü", "yeni nəsrimizin zirvə əsəri" adlandıran Xalq yazıçısı Anar onun hekayələrinin nümunəsində bu yeniliyin polifonizmini şərh edərək yazır: *"Soyuq daş"ın şairanə təhkiyəsi, "Foto – fantaziya"nın sərt realizmi, "Bayatı–Şiraz"ın, "İncə dərəsində yaz çağı"nın həzin, kədərli ovqatı, "Astana"nın psixoloji və ictimai siqləti 60-70-ci illərdə nəsrimizin keyfiyyətcə yenilənməsindən, daha dərin məzmun, daha kamil üslub, daha maraqlı forma axtarışlarından soraq verirdi:* [33, s.7-8].

1987-ci ildə jurnalda dərc olunmuş S.Əhmədlinin "Yasaq edilmiş oyun", İ.Məlikzadənin "Qırmızı yağış", F.Qocanın "Kələfin ucu" romanlarının bədii tədqiq obyekti müasir tariximizin etnomədəni gerçəklikləridir və bu fonda yeni insan münasibətləri təsvir olunur. Qeyd edək ki, "Kələfin ucu" əsəri tam şəkildə "Taleyin ağır taleyi" adı ilə 1993-cü ildə jurnalda dərc olunmaqla, 2009-cu ildə ayrıca kitab şəklində çıxmışdır. "Kitabın tarixçəsi" adlı ön sözdə müəllif etiraf edir ki, əsərdə 1962-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasında baş vermiş hadisələri təhrif etmişdir.

Məzmunu etibarilə tarixi romanın maraqlı nümunələrindən olan "Yasaq olunmuş oyun" əsəri ilə S.Əhmədli repressiya illərinin, həmin dövrün hadisələrinin insan talelərində açdığı ağır yaraları təsvir etməklə, stalinizm repressiyasının mahiyyətini açmağa çalışır. Əsər həm də cəmiyyətin məruz qaldığı mənəvi terrorun miqyasını təsəvvürə gətirir.

1989-cu ildə jurnalda dərc olunan daha bir əsər – Elçinin "Ölüm hökmü" romanı həmin mövzunun daha miqyaslı əhatəsi, fəlsəfi tutumu, yeni qəhrəman konsepsiyası və başlıcası, ənənəvi "tarixilik" anlayışına yeni çalar qazandıran keyfiyyəti ilə ədəbi prosesdə ciddi hadisə kimi qəbul olundu. İnsan və zaman kontekstində Xeyir və Şər

savaşının yeni rakursdan təqdimi olan "Ölüm hökmü" tarix baxımından, zaman etibarilə XX əsr insanına çox yaxın idi. *"... bu tarix, şahidi olduğu hər insan faciəsi ilə öz faciəsini yaşayıb. Xosrov müəllimin faciəsini fərdilikdən çıxarıb, Arzunun faciəsini "məntiqi "edib"; atasını "yüksək ideala" satan əlaçı şagirdin aqibətini bazar piştaxtası arxasına gətirən ideologiyanın puçluğunu göstərən yazıçını tarixi dəyişikliklər dövründən illər ayırırdı"* [2, s.66].

Ədəbi tənqid tarixlə müasirliyin vəhdətini 80-ci illər nəsrinin yeni mərhələsinin əsas xüsusiyyəti kimi izah edir; insan, onun taleyi ilə bağlı nəsrin mövqeyi, eyni zamanda cəmiyyətin həyatına, xalqın tarixinə yeni bədii münasibətin ifadəsidir.

Repressiya siyasətinin acı nəticələrini fərdi və milli səviyyədə dərk etməyə xidmət edən avtobioqrafik səciyyəli əsərlərə jurnalda müstəqilliyin ilk illərindən etibarən yer verilir. Q.Sadıqzadənin "Son mənzili Xəzər oldu", İ.Əfəndiyevin "Sevgililərin cəhənnəmdə vüsalı" pyesi, B.Azəroğlunun "Ömürdən ötən illər", Ə.Cəfərzadənin "Xəzərin göz yaşları", romanları, eləcə də, Anarın "Cavid ömrü", "Parisdə höcət", M.Niyarlının "Vətəndən Vətənə" və s. nəsr əsərlərində, publisistika nümunələrində repressiyanın insan talelərində, cəmiyyətin həyatında qoyduğu izlər – bircə anda "yoldaş"dan "vətəndaşa" dönənlərin, ağlını itirib xoşbəxt olanların, repressiya xofunu nəsil-nəsil soyuna bilməyənlərin faciəsinin bədii yaddaşda tarixləşdirilməsi nümunələri kimi dərk olunur. *"Repressiyaya məruz qalmış ...hərbçilərimizin oğlu, qızı, həyat yoldaşı və yaxın-uzaq qohumları mənə onların çəkdiyi dəhşətli əzablardan danışanda, istər-istəməz, Fyodor Dostoyevskinin: "heyvan heç vaxt insan qədər qəddar ola bilməz, insan qədər mahir və yaradıcı qəddarlıq edə bilməz" – sözlərini xatırlayırdım"* [128, s.157].

M.Orucun "Əzrayılla görüş", F.Qocanın "Otellonun oğlu, yaxud üçüncülər" pyesi, G.Lətifxanın "Azər və Aida adası", S.Aranın "Başdaşı", M.Çəmənlinin "Üç yaşlı əsir", E.Hüseynbəylinin "Vida" povestləri, V.Nurunun "Qaraqaşlı" romanı və onlarla digər bədii mətnlər müstəqillik illərində, xüsusən Qarabağ müharibəsində milli ruhdan, milli-mənəvi dəyərlərdən qaynaqlanan təfəkkürün göstəricisi kimi çıxış edir. Bu göstəricini ümumi şəkildə belə ifadə etmək mümkündür: yuxarıda qeyd olunmuş bu əsərlərdə *"...yalançı vətənpərvərlik tonu, – bu məqamda məhz heysiyyəti*

*tapdanmış çoxluğun xoşuna gəlmək lazımdır, sonrası düzələr – düşüncəsi yoxdur, düzgün başa düşülməmək nigaranlığı deyil, hər necə ağır və acı olsa da, həqiqət həmişə və hər yerdə öndə olmalıdır – prinsipi var"* [13, s.19].

"Azərbaycan" jurnalı "Türk dünyamız", "Cənubdan səslər", "Naməlum abidələrimizdən soraqlar", "Adımız, tariximiz, taleyimiz", "Qarabağ: ağrılarımız, acılarımız", "Tarix; həqiqətlər, fərziyyələr", "Tarixin ağ səhifələri" və s. rubrikalarında milli tariximiz və keçmişimizlə bağlı arxiv materialları təqdim edir, həm tarixi maarifçiliyi artırır, həm də həqiqətləri açır. *"...aprelin 27-də səhər saat 10-da parlamanın fövqəladə iclası çağırılır... Parlamanın sədri ultimatumu oxuyur: "Azərbaycan İnqilab Komitəsi parlamanı buraxıb Müsavat hökumətinin dərhal inqilabi komitəyə təslim olmağını tələb edir". Səmədağa Ağamalıoğlu yerindən qalxıb bərkdən deyir: "Vəssalam! Bazar bağlandı!"* [156, s.139] .

Jurnalın ardıcıl dörd sayında "Tariximiz, yaddaşımız" rubrikasında dərc olunmuş bu əsərin bir əhəmiyyəti də arxiv sənədləri əsasında və iclasların stenoqramına istinadla qələmə alınmasıdır. *"...Əliheydər Qarayev: "Qırmızı ordu bütün dünya proletariatının xilaskar ordusudur". Məhəmməd Əmin: "Yalan deyirsən! Nə rəngə boyansa da, ağı da, qırmızısı da – rus ordusu istila ordusudur. Əsarət ordusudur. İlanın ağına da lənət, qarasına da. Siz çağırmısız! Siz gətirmisiz". "Gülləbaran edərəm", "gözlərini çıxardaram"*, - *Əliheydər təhdid etdi. "Siz millətin gözünü çıxarmısız, Qarayev Əliheydər, tovarişlər səni gülləbaran edəndə məni və bu günü yada salarsan!"* [156, s.140].

A.İbrahimovun "Dastanlarımızda tarixin izləri", N.Tağısoyun "Milli yaddaş və yaddaşsızlığın morfologiyası" , Ə.Qasımovun "Genosid. Ermənilərin xalqımıza qarşı törətdiyi soyqırım bəşəriyyətə cinayətdir", P.Kərimovun "Naməlum abidələrimizdən soraqlar", R.Qeybullayevanın "Konvergensiya mədəniyyətindən... konvergensiya mədəniyyətinə", N.Göyüşovun "Muğam sənəti: mahiyyəti, qaynaqları və dəyərləri", İ.Sadığın "Şumer qəhrəmanlıq dastanları", N.Mustafanın "Türk-islam mədəniyyətinin cüt gücü: şeir və musiqi" yazıları həm də milli-mənəvi dəyərlər kontekstində xüsusilə maraq doğurur.

Jurnalda dərc edilən publisistik yazıların bir çoxunda ermənilərin XX yüzildə

azərbaycanlılara qarşı törətdiyi cinayətlər araşdırılır. Ə.Qasımovun "Genosid" məqaləsində ermənilərin "Dənizdən-dənizə Ermənistan" ideyasına görə Cənubi Qafqazda, Türkiyədə törətdiyi cinayətlər xatırlanır. Müəllifin qədim erməni dilini araşdıran rus şərqşünası İ.Dyakonovun *"...qədim erməni dili Dağlıq Ermənistanın yerli sakinlərinin-hurrilərin, urartuluların dilləri ilə qohum olmadığından, aydındır ki, buraya kənardan gətirilib"* qənaəti, erməni tədqiqatçısı M.Abeqyanın *"ermənilərin əcdadları eramızdan xeyli əvvəl Avropada yunan və frakiyalıların əcdadları ilə yanaşı yaşamış, oradan kiçik Asiyaya köçmüşlər"* [103, s.162] istinadı ermənilərin buraya son zamanlarda köçürüldüklərini təsdiq edir. Müəllif bu ərazilərdə dövlət qurmaq niyyəti üçün yerli əhaliyə qarşı törədilən terror aktlarını ermənilərin bütövlükdə insanlığa qarşı cinayətləri hesab edir: *"XIX əsrin 80-90-cı illərində erməni millətçiləri tərəfindən yaradılan Armenakan, Hnçak və Daşnaksütyun partiyalarının hər üçünün qarşısında qoyduğu vəzifələr arasında türklərə qarşı terror təşkil edilməsi xüsusi yer tutur. Məqsəd isə, onları ermənilərə qarşı zorakılığa təhrik etməklə, Avropa ölkələrinin diqqətini "erməni məsələsi" deyilən süni problemə yönəltmək və onların Türkiyəyə hərbi müdaxiləsilə erməni dövlətinin yaradılmasına nail olmaq idi"* [103, s.164].

Jurnal publisistikasında ictimai münasibətlər sisteminin dəyişməsinin cəmiyyətə təsirlərinin təhlili göstərir ki, ənənəvi dəyərlərdən tez-tələsik imtina olunması, xüsusən, yeni dəyərlər yaradılmadan "köhnə" dəyərlərin arxivə göndərilməsi, onlardan üz döndərilməsi, yaxud ənənəvi dəyərlərin inkar olunması heç də yaxşı deyil. Yalnız ona görə yox ki, sınaqdan çıxmış "ən yaxşı yeni – unudulmuş köhnədir" nəticəsi ehkam kimi qiymətləndirilməyə layiqdir, həm də ona görə ki, cəmiyyətin də, fərdin də inkişafının keyfiyyəti dəyərlərin sintezinə nail olmaq və onlara yaradıcı yanaşmaqdan asılıdır. Müstəqillik dövrü "Azərbaycan" jurnalında dərc olunmuş materialların təhlili göstərir ki, bu dövrdə publisistika, xüsusilə yazıçı publisistikası (Anar, Elçin, M.İbrahimbəyov, S.Rüstəmxanlı, M.Oruc, H.Qoca, İ.Qasımzadə, Hidayət və b.) ön plana çıxır. Cəmiyyətin sosial-mədəni problemlərini, itirilmiş yurd yerləri ilə bağlı ağrıları, qaçqın-didərgin talelərini daha obyektiv və obrazlı ifadə etməyə çalışır. Yazıçı publisistikası mənəvi dəyərlərin ruporuna çevrilir.

Araşdırdığımız dövrdə "Azərbaycan" jurnalının geniş yer verdiyi esse janrı Azərbaycan ədəbi-tənqidi fikrində yeni olmaqdan başqa, yaradıcı "mən"in uğurlu və birbaşa realizəsi baxımından mobil imkanları ilə şəxsiyyətin ifadə forması kimi maraq doğurur. Daha çox müəllifin şəxsiyyətini və yaradıcı temperamentini ifadə etməkdə söz sənətinin bütün imkanları essedə asanlıqla səfərbər olunur. Esseyə subyektivizm, obrazlılıq, traktovkada fərdi improvizə və ifadə manerası xasdır. Sərbəst kompozisiyalı mətnin ayrı-ayrı hissələri arasında əlaqə müəllif düşüncələrinin daxili məntiqinə tabe olur və bununla da assosiativ xarakter alan essenin xüsusi sintaksisi yaranır; natamam cümlələrin çoxluğu, sərbəst düşünməyə sövq edən punktuasiya konstruksiyaları müəlliflə oxucu arasında dialoq effekti formalaşdırır. Bu konstruksiya oxucunu da insanlığın təbiətini özündə axtarmağa, bu dərin və sonsuz düşüncə dənizində üzməyə həvəsləndirir. *"...həyatın hər sahəsində olduğu kimi, essedə də azadlığın anarxiya kimi başa düşülməsi təhlükəsi mövcuddur. Bu sərhədlərin gözlənilməməsi insanın iddialarını da ölçüsüz edir. Asif Atanın esseistikası onun "yeni din yaratmaq" ideyalarını gerçəkləşdirmək səyləri fonunda yeni çalar – inkarçılıq və imtina – əxz etdi* [19, s.178-182].

"Azərbaycan" jurnalında essenin bəzi uğurlu nümunələrini – "Gecə düşüncələri", "Ədəbi düşüncələr", "Mənim Füzulim" – ədəbi ictimaiyyət maraqla qarşıladı. Ə.Nicatın, M.Muradın, İ.Qasımzadənin esseləri janrın Azərbaycan bədii-estetik fikir müstəvisində əsaslı şəkildə oturduğuna şübhə qoymadı. M.Əlizadənin, A.Talıbzadənin, R.Kamalın, A.Turanın, Z.Sadatlının, Z.Əsədullayevanın esseləri mədəniyyətimizin müxtəlif sahələrinə yeni nəsillərin (və yeni təfəkkürün!) münasibəti kimi maraqlıdır. Onların hər biri esseist üslubunu estetik meyarlara cavab verə biləcək tərzdə, son dərəcə fərqli üslubda və orijinallıqla təqdim edə bilir.

Anarın "Gecə düşüncələri" həyat, insan, mədəniyyət, sənət, şəxsiyyətlər və dinlər, sələflər və xələflər... haqqında soyuq ağlın, güclü məntiqin və sərrast ümumiləşdirmənin gəldiyi qənaətlər kimi dərk olunur. Qənaətləri maraqlı edən Anarın yazıçı üslubuna məxsus zərif yumor və hərdən sərt sarkazm, amiranə ton onun esselərini, necə deyərlər, "uzaqdan tanıdır": "*... Bir dövrdə ki, fahişələr əxlaq dərsi deyəcək, ismətdən danışacaqmış, biqeyrətlər qeyrətdən dəm vuracaqmış, rüşvətxorlar*

*rüşvətlə "mübarizə aparacaqmış", şərəfsizlər özlərini şərəflilər sırasına sırıyacaqmış, "bilməm belə dövranları neylərdin, İlahi?!"* [27, s.18].

"Ədəbi nəsillərin qarşıdurması" deyilən bir məsələ gündəmdə aktuallaşdırılır, sual olunur: doğrudanmı, kənardan aydın görünən həqiqət – inkarçılığın bacarıqsızlıqdan qaynaqlandığı dərkolunmazdır? Bu dərketmənin zamanını özünəinam gətirəcəkmi, yoxsa özündən müştəbehlik yaxına buraxmayacaq? Bu zamanın gəlişini gözləməli, ya bu həqiqəti qəbul etməli? Bu və bu qəbildən olan suallara Anarın esseləri sərrast cavab verir: *"Bizimlə bizdən sonra gələn nəslin arasındakı fərq ondan ibarətdir ki, deməyə sözümüz olsa da, bu sözü ifadə etməyə yer və imkan tapmırdıq. Bu nəslin isə, ağlına gələni istədiyi şəkildə ifadə etmək üçün yer də, imkan da mövcuddur. Ancaq görünür, sözü yoxdur"* [27, s.22].

Anarın "Düşüncələr"i klassik Azərbaycan ziyalısının mənəvi axtarışlarını ifadə edir və bu janrın "Təcrübələr" (Monten); "Didaktema" (P.Koelyo), "Tarixsiz gündəlik" (E.Mejelaytis), "Ulu çöl" (Oljas Süleymenov) və s. kimi nümunələri sırasındadır.

Ənənəvi tənqid məktəbi, Qərb esseistikasından gələn ədəbi-tənqidi görüşlər hətta bir imzada da yaşaya bilər. Bu, yazıçı Elçinin "Ədəbi düşüncələr" esseləri timsalında aydın görünür. Elçinin tənqidimizin səviyyəsində seçilən görüşləri, ədəbi prosesin bu və ya digər məsələlərilə bağlı çıxışları ədəbi tənqidin məhz nədən korluq çəkdiyini hər dəfə xatırladır: intellekt, mütaliə zənginliyi, filoloji nəzəriyyənin elmi əsaslarını dərindən mənimsəmək və bunu tətbiq etmək məharəti. Onun cilalı dildə ifadə olunmuş müşahidələri bəzən bir məqalənin verə biləcəyi təsirdən güclü olur və bu düşüncələrin son dərəcə hissiyyatlı üslubunda həzin bir xiffət, şairanə ruh və qətiyyətli nida ovqatı var. Yəni əminliyin sonudur və başqa yanaşmaya yer qalmır: *"Sabirdən sonra Azərbaycan satirik poeziyası yalnız surroqat istehsal edir. Bəzən bu surroqat yüksək keyfiyyətli olur (Qəmküsar, Nəzmi, Möcüz...) Və keyfiyyətli surroqata yuxarıdan aşağı baxmaq lazım deyil, onun da öz yeri, güman ki, öz əhəmiyyəti var"* [55, s.16].

Rüstəm Kamalın esselərində filoloji düşüncəmizin mistik, mifoloji, "gizlinləri" əks etdirilir. "Molla Pənah Vaqif: gözün tarixi", "Molla Pənah Vaqif və Səməd

Vurğun: feilin karması”, “Mirzə Fətəli Axundzadə: ümidin adı”, “Mirzə Cəlilin hesab dəftəri”, “Frans Kafka və Mirzə Cəlil: “həbsiyyə” oyunu”, “Mirzə Cəlilin lüğəti”, “Repressiya yuxuları”, “Uca dağ başında: Şuşanın landşaftı bədii mətn kimi”, “Səmavi, ilahi Şuşa”, “Vurğun gülüşü”, “Əli Kərim təbəssümü haqqında ballada”, “Gəncə – ayrılıq şəhəri” və s. onlarla filoloji esselərində mövzuya yeni yanaşma və baxış bucağı seçilir. “Molla Pənah Vaqif: gözün tarixi” essesində Vaqif poeziyasında dilin funksionallığı təhlil edilir. Vaqif poeziyasında qadın dünyasına məxsus etnoqrafik detalların dilin vizual məntiqinə tabe olduğunu şairin şeirləri vasitəsilə üzə çıxaran esseistin gəldiyi qənaət belədir: *“Vaqif şeirlərində qadın geyimlərinin və zinət-bəzək əşyalarının estetikası XVIII əsrin “göz mədəniyyətindən” gəlir. Burada hər bir predmetin, nəsnənin təsviri və adı “magik nöqtə” olur və hər şeir sanki həmin “magik nöqtələrin” kombinasiyasından, sadalanmasından və ya təkrarlanmasından başlayır”* [99, s.9].

R.Kamalın esselərinə struktur və ideya baxımından müxtəliflik xasdır, üslub zənginliyi və müxtəlifliyi ilə seçilir. Görmədiyi Şuşanı yalnız bədii mətnlərdəki təsvirlərdən bədii-tarixi mətn kimi oxuyan esseist onun landşaftında mistik aura axtarır: *“Ancaq Yusif Vəzirin və Əbdürrəhim bəyin əsərlərində Şuşa landşaftının bədii, tarixi və mifoloji mətnini oxudum – Cıdır düzünü, Topxananı, Xəzinə qayasını, Daşaltını, üzü meşələrə baxan imarətləri, şeir kimi bir-birilə qafiyələnən yolları və məhəllələri xəyalən gəzib dolaşdım – bunlar Şuşanın zamanın poza bilməyəcəyi ən etibarlı yaddaş mətnləridir”* [99, s.80].

Müəllifin Şuşa ilə bağlı esseləri Şuşanın mifopoetik landşaftını və ruhunu dərk etməkdə oxucuya kömək edir, şəhərin səma kodunun olması əminliyini ifadə edir: *“Şuşanın da səmada mütləq “oxşar”ı var – Səmavi, ilahi Şuşa var. Çənlibel kimi, yüksəklikdə yerləşən bu şəhər Səma mahiyyətlidir. Yer üzündəki Şuşa tarixin içindəydi, elə tarixin də, xəyanətlərin və cinayətlərin qurbanı oldu. Amma səmavi Şuşa bəşər tarixinin, zamanın hüdudlarının dışındadır. Onu ruhlar və Tanrı qoruyur”* [99, s.86].

Aydın Talıbzadənin esseləri dil-üslub orijinallığı, mövzunun şərhində əxlaqın intellektual qaynağı və onun əsaslandırılması, klassik ədəbi-mədəni irsin yeni

metodoloji təfsiri ilə həm də Azərbaycan esseistikasının yeni keyfiyyət mərhələsini təmsil edir.

Özünəməxsus üslubu və mövzuları ilə qələmini daha çox milli-mənəvi dəyərlərin deqradasiya təhlükəsinə yönəldən Azər Turanın Xocalı faciəsi ilə bağlı essesi publisist kəsəri ilə sələflərin "ax, biçarə vətən" ağrılarını yada salır: *"Necə deyərlər, gəmi 1992-ci ildə batmışdı, sərnişinlər məhv olmuşdular. Kapitanlar isə, neçə il ötdükdən sonra millətin qabağına çıxıb, qəzəbnak–qəzəbnak söz uyüdürdülər. Sözün bundan da artıq urvatsız, yiyəsiz və qərib bir günə düşəcəyini təsəvvür etmək olmur. ...Batalyon komandiri salamat, icra başçısı sağ-salamat, polis rəisi yerində, prokuror dil-dil ötür. Amma xalq yoxdur, Xalq, şəhər əhalisi ruha çevrilib və hələ ruh olmazdan qabaq körpəsinin dərisi soyulub, qocası güllələnib, qızı girov götürülüb"* [165, s.97].

"Azərbaycan" jurnalının bədii strukturunda diqqətçəkən məsələlərdən biri də klassik ədəbi irsin mənəvi dəyərlər səviyyəsində öyrənilməsidir. Klassik ədəbi irsə diqqət və qayğı, klassiklərin, klassik mətnlərin öyrənilməsi, yeni mənəvi dəyərlər sisteminə qaytarılması jurnalın müstəqillik dövründə qarşısına qoyduğu məsələlərdən biridir.

"Maarif və mədəniyyət"in ilk nömrəsindən başlayaraq, klassik ədəbi irs mövzusu (məsələn, Salman Mümtazın Nəsimi haqqında irihəcmli oçerki, Şah İsmayıl Xətainin yaradıcılığından nümunələr və s.) jurnalın ədəbi siyasətində yer tutur və bu ənənə bu gün də davam etdirilir. Klassik irsə münasibətdə ədəbiyyatşünaslığın mövqeyini ifadə edən araşdırmalar arasında ədəbiyyatşünas T.Salamoğlunun mövqeyini xatırlamağa dəyər: *"Zamanın həqiqətlərinin estetik ifadəsinə tarixilik prizmasından yanaşanda tənqidi realistlərin yaradıcılığına verilən elmi yozumlarda kifayət qədər və həm də əsaslı suallar doğuran məsələlər ortaya çıxır"* [145, s.9]. Onun tənqidi realizmin estetik prinsiplərinə müstəqillik dövrünün elmi düşüncəsi ilə yanaşmasında yeni baxışı səciyyələndirən "Türk qanlı" sənətkarın "Avropa qiyafəli, müsəlman etiqadlı" əsərləri", "M.Ə.Sabir: uzaqdan və yaxından (Mühacirət ədəbiyyatşünaslığı Sabirə metodoloji münasibət kontekstində, yaxud Sabirin Azərbaycan ədəbiyyatındakı yeri haqqında düşünərkən"), "Neft və milyonlar

səltənətində”: sinfilik yoxsa millilik?” və s. məqalələri *“tədqiqatçının ədəbi materiala bələdliyi ilə onun nəzəri dünyagörüşünun bir-birini tamamlaması”* [90] nümunəsi kimi də uğurludur və obyektiv elmi təhlil manerası ilə maraq doğurur.

90-cı illərin əvvəllərində, xüsusən 20 Yanvar hadisələrindən dərhal sonra klassik ədəbi yaddaşın dövriyyəyə daxil olması: mövzu və ədəbi növ, tarixi şəxsiyyət və tarixi hadisələrin bədii düşüncənin predmetinə çevrilməsi ilə, mühacirət irsi araşdırmalarına diqqətlə müşayiət olundu. Klassik ədəbi irsin milli dəyər kimi təbliğində və araşdırılmasında “Azərbaycan” jurnalının mövqeyi, Yaşar Qarayevin təbirincə desək, insanı “sabit sosial-mənəvi dəyərlər təcrübəsində” dərk etməyə kömək edir. Jurnal bununla həm də klassik ədəbi irsin məktəb kimi öyrənilməsini aktuallaşdırır. Tədqiqatçı A.Turan bu yanaşmanı belə səciyyələndirir: *“Klassik mənəviyyatın bütün istiqamətlərinə yönəlmək ehtirası da tarixi yaşatmaq şövqünün bəlirtisidir”* [166, s.174]. Bu sırada A.Tahirlinin C.Hacıbəyli irsi ilə bağlı araşdırmaları, R.Abutalıbov, Ş.Hüseynov, V.Quliyev, P.Kərimov, O.Bayramova, N.Cabbarlı, F.Qurbansoy, A.Rüstəmli və b.-nın sistemli araşdırmaları mənəvi bütövlüyün təmin olunması, unudulmuş, qadağan olunmuş ədəbi-mədəni irsin milli düşüncə məkanına qaytarılmasına xidmət kimi dəyərlidir.

Türk dünyasının möhtəşəm mənəvi-mədəni sərvəti olan “Kitabi-Dədə Qorqud”un 1300 illiyinə (1999-cu il), dahi Nizami Gəncəvinin 880 illiyinə (2021-ci il), eləcə də, Məhəmməd Füzulinin, İmadəddin Nəsiminin, Molla Pənah Vaqifin yubileylərinə jurnalın xüsusi nömrələr həsr etməsi Azərbaycan dövlətinin milli mədəniyyətə verdiyi diqqətə adekvatdır.

“Azərbaycan” jurnalında elə təkcə tənqid və ədəbiyyatşünaslıq məsələlərindən bir neçə elmlər doktorluğu və fəlsəfə doktorluğu dissertasiyaları yazıb müdafiə etmək, cild-cild monoqrafiyalar nəşr etməyin mümkünlüyünü qeyd edən akademik İsa Həbibbəyli yazır*: “Azərbaycanda tənqid və ədəbiyyatşünaslıq elminin inkişaf etdirilməsində də “Azərbaycan” jurnalı müstəsna rol oynamışdır. Jurnal sözün həqiqi mənasında böyük ədəbiyyatşünaslıq məktəbidir... Jurnalın təşkil etdiyi ədəbi müzakirələrdə, dəyirmi stol söhbətlərində də tənqidçi və ədəbiyyatşünaslar fəal iştirak etməklə, həm də yaradıcılıq proseslərinə yaxından müdaxilə etmək missiyasını*

*yerinə yetirmişlər..."* [14, s.14].

Azərbaycan ədəbi tənqidinin – ədəbiyyatın arbitrinin yaşadığı islahatlar mərhələsi bu kontekstdə daha ağır və daha ağrılı keçidlə xarakterizə olunur. Həyatın başqa sahələrində olduğu kimi, burada da vəziyyəti ağır və ağrılı edən keçid mədəniyyətinin yoxluğudur. Klassik ədəbi-nəzəri bölgü mühafizəkarlığının tənqidin yaradıcılıq növü olması ilə bağlı təbii baxış və yanaşma ilə dil tapa bilməməsindən yaranan anlaşılmazlığın gətirdiyi gərginliyə "Yaradıcılıq ehkamı qəbul etmir və tənqid də bu sırada istisna deyil" məntiqi nöqtə qoyur. Hər bir yenilik ənənənin inkarı üzərində formalaşmamalıdır. Ənənəyə münasibətdə ifrat mühafizəkarlıq və ya total inkarçılığın dərəcəsini və hüdudlarını dəqiq müəyyənləşdirmək, ənənə ilə novatorluğun "dinc yanaşı yaşamanın" qarşılıqlı hörmət prinsiplərini əsaslandırmaq bir çox hallarda çətin olur. Tənqidçi etikası ədəbi-mədəni və mental dəyərlər əsasında formalaşır. *"Ədəbi vicdan, ədəbi əxlaq anlayışı şəxsiyyətə bağlıdır və burada yarımçıqlıq keçmir; o ya var, ya da yoxdur. Onun mövcudluğu "tənqidi tənqid" və "ədəbi tənqid" arasındakı böyük fərqi hiss etdirə bilər. Deməli, tənqidçi əxlaqı ədəbi prosesə birbaşa təsir edir, çünki əxlaq, ilk növbədə, peşəkarlığı – ədəbi tənqidi həvəskar iddialardan sığortalayan ən başlıca keyfiyyəti təmin edir"* [14, s.158-163].

Uzun illər boyunca ədəbi tənqidin istiqaməti geniş elmi təhlillərdən daha çox, ideoloji yarlıqların bəraətinə yönəldilməsi nəticəsində əsərlərin mənəvi strukturu deyil, "xalqlar dostluğu, zəhmətkeşlərin həmrəyliyi", mövhumata və cahilliyə qarşı mübarizə və s. basmaqəlib mövzular araşdırılmış, ədəbiyyatşünaslıq elmi ilə, filoloji təfəkkürlə əlaqəsi olmayan konsepsiyalar irəli sürülmüşdür. Bununla belə, sovet dövründə M.A.Dadaşzadə, M.C.Cəfərov, K.Talıbzadə, Y.Qarayev, A.Zamanov, A.Əfəndiyev, A.Hüseynov, A.Məmmədov, N.Cabbarlı və başqa tənqidçi və ədəbiyyatşünaslar ayrı-ayrı əsərlərin təhlilində bu problemə ciddi toxunmuş, əsasən, ədəbiyyatın xəlqiliyi və milliliyi məsələlərini mənəvi dəyərlər kontekstində öyrənmişlər. Milli ədəbiyyat estetik mahiyyəti etibarilə mənsub olduğu xalqın mənəviyyatı ilə sıx bağlıdır. Hər bir xalqın milli-mənəvi dəyərlərini qorumaq ədəbi-bədii düşüncənin də əsas vəzifələrindən biri hesab olunur. XX əsrin 20-ci illərinin sonuna doğru ideoloji-siyasi sistem xalqın milli kimliyini, tarixi keçmişini, dini

dünyagörüşünü təftiş etməyə başladı, xalqın mentalitetini formalaşdırmış adət və ənənələrini, inanclarını kəskin şəkildə keçmişin qalıqları kimi yasaqladı. Ənənəvi bədii düşüncə, bütün səylərinə rəğmən, bəzən bunun qarşısını tam ala bilməmiş, hətta bəzi hallarda mövcud ideologiyanın ruporuna çevrilmişdi.

"Azərbaycan" jurnalının səhifələrində ideoloji, ədəbi-estetik strategiyanın formalaşdırılmasında və inkişafında ədəbi tənqidin rolu danılmazdır. Bu istiqamətdə jurnalda davamlı bir ənənə meydana gəlmişdir. Ötən əsrin 20-30-cu illərində B.Çobanzadə, Ə.Abid, Ə.Nazim, H.Zeynallı, M.Ələkbərlinin tənqidi məqalələrində milli-mənəvi dəyərlər diqqət mərkəzində olmuşdur. Bu dövrdə bəzi ideoloji təmayülllər olsa da, obyektiv ədəbi tənqidin, ümumiyyətlə, ədəbi prosesin tənzimlənməsində rolu mühümdür. Sonrakı dövrdə isə M.Arif, F.Qasımzadə, H.Araslı, Ə.Mirəhmədov, K.Talıbzadə, Ə.Ağayev, Q.Xəlilov, B.Nəbiyev kimi tənqidçilərin məqalələrində mənəvi dəyərlər problemi gözlənilmişdir. Bu müddətdə böyük bir ədəbiyyatşünas nəsli Azərbaycan ədəbiyyatının klassiklərinin yaradıcılığını araşdırmış və həqiqi qiymətini vermişlər. Həmin ənənə müstəqillik dövründə də davam etmişdir. Y.Qarayev, İ.Həbibbəyli, A.Hüseynov, Ş.Salmanov, A.Məmmədov, V.Yusifli, A.Əmrahoğlu, Ş.Alışanlı, N.Qəhrəmanlı, Z.Əsgərli, R.Əliyev, N.Şəmsizadə, T.Əlişanoğlu, B.Əhmədli, R.Kamal, T.Salamoğlu, E.Akimova, N.Cabbarlı və başqalarının ədəbi tənqidində sənət meyarı başlıca yer tutur. Onların məqalələrində həm klassik irs problemi nəzərdən keçirilir, həm də ədəbi prosesin problemləri təhlil edilir. Təkcə 2010-cu ildə jurnalda gedən ədəbi tənqidi məqalələrin janr və mövzu müxtəlifliyi ədəbi tənqidə diqqətin nümunəsidir. Y.Rzayevin "Metodun zühuru və süqutu", L.Əfəndiyevanın "Qarabağ mövzusu rus ədəbiyyatşünaslığında", R.Kamalın "Uşaqlıq mif kimi: M.H.Şəhriyar və O.Sarıvəlli", T.Məmmədin "Osmanlı şairlərinin yaradıcılığında Azərbaycan ədəbiyyatı ənənələri" , P.Kərimovun "Sadıq bəy Əfşarın türkdilli lirikası", X.Quliyevanın "Üzeyir bəy Hacıbəyovun yaradıcılığında maarifçilik ideyaları", A.Rüstəmlinin "Cəfər Cabbarlı və cabbarlışünaslıq (1917-1934), T.Salamoğlunun "Mehdi Hüseyn tənqidi: sosiolojidən estetikliyə doğru", T.Hacıyevin "Əziz dostum və ustadım Səhhət", E.Akimovanın "2009-cu ilin poeziyası", V.Yusiflinin "Poeziyamız haqqında

düşüncələr”, A.Sabitovanın “Xəyal içində bəşər daim səadət arar...” və s. məqalələrində həm klassik, həm də çağdaş ədəbiyyatın problemləri araşdırılır. Müxtəlif nəsillərə mənsub bu müəlliflərin araşdırmalarında təkcə ayrı-ayrı məsələlərə münasibət bildirilmir, ədəbi prosesin mənzərəsi təqdim edilir.

80-ci illərin sonuna doğru gənc ədəbi qüvvələrin ədəbi prosesə ənənə və müasirliyin keyfiyyətcə yeni mərhələsini səciyyələndirən orijinal üslub və təfəkkürlə daxil olmasını ədəbiyyatşünas – dilçi Nizami Cəfərovun yaradıcılıq axtarışlarında ümumiləşdirmək mümkündür. Onun “Azərbaycan” jurnalında dərc olunmuş ilk yazısının səciyyəsi təkcə polemika ehtirası və şövqü, üslubu ilə maraq doğurmur, gənc müəllif Azərbaycan mədəniyyətinin və deməli, həm də Azərbaycan xalqının psixoloji portretini təqdim edirdi. Bu dövr, yəni 80-ci illərin sonu təkcə yarım əsrlik bir elmi konsepsiyanın – “qan” və “kök” anlayışlarının “dil” və “mədəniyyət” anlayışları ilə əvəz olunması ilə bağlı nəzəri müddəaların oturuşması dövrü deyildi; dil və mədəniyyətin coğrafiyası, etnosun mədəni ənənələri milli kimliyin ölçülərinin müəyyən edilməsində önə keçməyə başlayırdı. Milli kimlik dərkinin qabardığı, eləcə də ümumtürk kontekstində azərbaycançılıq ideologiyasının “tumurcuqlanma” dövründə gənc müəllif fərqli etnik səciyyələr, qlobal təsirlərin gücü qarşısına ədəbiyyatın gücünü çıxarırdı, sonralar bütün yaradıcı fəaliyyətinin özəyində sezilən bir fikri çatdırmaq istəyirdi: ədəbiyyat o zaman böyükdür ki, o, güclü etnik mədəni əsaslar üzərində dayanır. Başqa sözlə, N.Cəfərov milli kimliyin oyanması mərhələsinə milli yaddaşı səfərbər etməklə qədəm qoyurdu. Əlbəttə, polemik ruhu, müəyyən məqamlarda subyektiv yanaşmanın təzahürü kimi qəbul oluna bilməklə mübahisələrə zəmin verməsi öz yerində, məqalənin adı neçə əsrlik bir ədəbi-mədəni tarixə ekskurs kimi qavranılmırdı, N.Cəfərovun bir yaradıcı natura, bir ziyalı və bir vətəndaş kimi kredosunun kodları da rahat oxunurdu. Bu kodlar klassik sosioloji məktəbin ideyaları ilə səsləşirdi və sonrakı bütün mərhələlərdə onun düşüncə modelinin əsas ştrixlərindən biri oldu: təkamülçülük! *“Nizami Cəfərovun düşüncə modelini bir mədəniyyət faktı kimi götürmək mümkün olarsa, o zaman onun təkamülçü missiyasının formulunun son dərəcə sadə və aydın ifadəsi var: cəmiyyəti birləşdirmək və insanları yaxınlaşdırmaq. Onun emosional sintaksisində də,*

*təfəkkürünün panoramında da, düşüncə və yazı tərzindəki dərinlikdə də hiss olunan bu sadəlik və aydınlıq eyni cür iştirak edir”* [8, s.64- 68].

Müstəqillik dövrü Azərbaycan ədəbi tənqidində və filoloji fikrində ciddi dönüş yaranır. B.Nəbiyev, Y.Qarayev, Ş.Salmanov, İ.Həbibbəyli, N.Cəfərov, A.Əmrahoğlu, Ş.Alışanlı, R.Əliyev, N.Qəhrəmanlı, V.Yusifli, R.Əliyev, N.Şəmsizadə, V.Quliyev, B.Əhmədli, R.Qeybullayeva, T.Əlişanoğlu, C.Yusifli, A.Talıbzadə, T.Məmməd, T.Salamoğlu, P.İsayeva, İ.Musayeva, N.Cabbarlı, E.Akimova, L.Həsənova və b. məqalələrində və resenziyalarında sənət meyarı, sənətkarlıq məsələləri başlıca yer tutur. Həm klassik irs problemi, həm də çağdaş ədəbi prosesin təhlilində millilik mövqeyindən çıxış edilir. “Azərbaycan” jurnalında dərc olunmuş ədəbi tənqid materiallarının ümumi mənəzərəsi onu deməyə imkan verir ki, jurnal mədəniyyətlərin və janrların arasında kəskin sərhədləri yox edən texnologiya inqilabları və bütövlükdə qloballaşma prosesində ənənəvi mövzu dairəsini genişləndirməklə yanaşı, ədəbi oçerk, ədəbi portret, esse, resenziya, ədəbi söhbət kimi daha çevik və işgüzar ovqata kökləyən formalara geniş yer verir, yaradıcılıq təmayüllərinin durumunu və inkişafını özündə əks etdirir. Poeziya, nəsr bölmələri ilə yanaşı, publisistika, ədəbi tənqid, esseistika, klassik irs bölmələri də Azərbaycan ədəbiyyatının ictimai mənzərəsini əks etdirir.

Beləliklə, “Azərbaycan” jurnalının səhifələrindəki bədii mətnlər, janrından (şeir, hekayə, roman, dram, tənqidi məqalə, esse, publisistika və s.) asılı olmayaraq, xalqın bədii düşüncəsini təmsil edir və onun bədii zövqünü formalaşdırır. Bu yazılarda xalqın keçmişi ilə yanaşı, bu günü də əks olunur. Artıq yüz ilə yaxındır ki, ədəbi nəsillər burada çıxış etdiyi kimi, böyük oxucu kütləsi də bu bədii zövqlə tərbiyə alır və formalaşır. Bədii materiallarda milli-mənəvi dəyərlərin qorunması yeni ədəbi nəsil formalaşdırır ki, bu nəsil də, yaşadığı ölkənin, mənsub olduğu xalqın fiziki və mənəvi sərhədlərini qorumağı hər şeydən üstün tutur. Ədəbi tənqidi də yazıçıların ədəbi və mənəvi dəyərlərə sadiqliyi məsələləri maraqlandırır. Bunu xüsusilə 44 günlük II Vətən müharibəsinin bədii düşüncədə əksi olan mətnlərin “Azərbaycan” jurnalında dərc olunmuş nümunələrinin məndəricəsi əyani sübut edir.

Jurnalda dərc olunmuş ədəbi-bədii, publisistik və tənqidi mətnlərin təhlili göstərir ki, "Azərbaycan" jurnalının dəyərlər sisteminin ifadə imkanlarının miqyası, estetik hüdudları və konturları kifayət qədər tam müəyyənləşdirilməmişdir.

Ona görə də onun ideoloji mahiyyəti haqqında bütöv təsəvvürlərin formalaşdırılmasında müəyyən çətinliklər yaranır. Amma bir məsələ aydındır ki, "Azərbaycan" jurnalında mədəni və ədəbi dəyərlər vahid sosial, ictimai-siyasi məzmuna, maraqlı ritorik sistemə malik olmuşdur.

Jurnalın tarixi-mədəni və yaradıcılıq fəaliyyəti ilə bağlı aşağıdakı istiqamətləri də ümumiləşdirmək mümkündür: birincisi, poliqrafik – dizayn ənənəsinin qorunub saxlanılması; ikincisi, yeni təzahürlərə açıq olmaqla yanaşı, başlıca yaradıcılıq meyillərinə sadiq qalması. Nəşrin müxtəlif dövrlərdəki tədqiqatının nəticələri onu deməyə əsas verir ki, bədii ədəbiyyat nəşrinin spesifik sahəsinə – profil media nümunəsinə çevrilməsi, eləcə də, bədii publisistikanın formalaşdırılması, ədəbi-bədii düşüncənin cəmiyyət həyatına təsirində jurnal prinsipial mövqeyə malik olmuşdur.

Göründüyü kimi, jurnalın strukturu ədəbi janrların və bədii yaradıcılıq təmayüllərinin durumunu və inkişafını özündə əks etdirir. Poeziya, nəsr bölmələri ilə yanaşı, publisistika, ədəbi tənqid, esseistika, klassik irs bölmələri də Azərbaycan ədəbiyyatının ictimai mənzərəsini əks etdirir. Jurnal müstəqillik dövrü Azərbaycan ədəbiyyatının geniş mənzərəsini verməklə, bir növ, təqdimat mədəniyyəti nümunəsi səciyyəsini ifadə edir.

# II FƏSİL
# "AZƏRBAYCAN" JURNALI MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN BƏDİİ SALNAMƏSİ KİMİ

## 2.1. Müstəqillik dövrü "Azərbaycan" jurnalında milli ideyaların və ictimai ideallarын əksi

XX əsr "Azərbaycan" jurnalı yalnız bədii söz sənətinin deyil, həm də ictimai-siyasi və ədəbi ideyaların salnaməsi və tribunası olub. XIX əsr maarifçilərindən başlayaraq, ictimai fikrin nüvəsində Azərbaycan ədəbi-bədii düşüncəsi vasitəsilə yeni millət formalaşdırmaq, milli kimliyini tanımaq kimi böyük məqsədlər dayanır. Bu mənada milli ideallarын formalaşmasının əsasında da ideyalar dayanır.

İdeyaların rəmzə çevrilməsi, aparıcı amilə çevrilməsi bədii düşüncədən qaynaqlanır. Onların bədii düşüncə müstəvisindən əməli fəaliyyətə, yönəldilməsi fürsəti tarixin müəyyən məqamlarında ələ düşür. İnsan, cəmiyyət bir toplum olaraq tarixin bu fürsətini düzgün tuta biləndə - Mən kiməm? – sualını özünə verəndə, yeni səhifə – yeni tarix yaranır. Bu səhifənin aparıcı sözünü və yeni tarixin ritmini, zamanın ahəngini yenə də bədii fikir diqtə edir.

"*Müasir Azərbaycan ədəbiyyatı, ilk növbədə, azərbaycançılıq məfkurəsi və istiqlal dəyərlərinə, azad Vətən, azad cəmiyyət, azad İnsan ideyalarına söykənir. İdeoloji zəminini Azərbaycan Cümhuriyyəti idealı və həmin dəyərlər naminə sovet dönəminin müqavimət hərəkatından götürür"* [126, s.1081].

XX əsrin 60-cı illərindən başlayaraq, ədəbi prosesdə türkçülük meyilləri az da olsa, görünməyə başladı. Nazim Hikmətin tez-tez Bakıda ədəbi prosesə təsir göstərən çıxışları, yerli ədəbi mətbuatda, müxtəlif auditoriyalarda keçirilən görüşləri, azərbaycanlı həmkarları ilə yaradıcılıq və dostluq əlaqələri, 50-ci illərin sonuna doğru özünü göstərən "mülayimləşmə" ab-havası "Azərbaycan" jurnalının səhifələrində də Türkiyə mövzusunu gündəmə gətirdi. Əlbəttə, N.Hikmətin adı, fəaliyyəti "pantürkist"

siyasətinin davamı kimi milli yox, ideoloji mənsubluq müstəvisində, "icazəli" şəkildə dövriyyədə olsa belə, mənəvi yaddaşı diri saxlaması ilə Azərbaycan oxucusu və ədəbi mühiti üçün xüsusi məzmun ifadə edirdi. Bununla belə, türkçülüyün ilk baxışdan Türkiyə ilə münasibətlər çevrəsində anlaşılması düzgün deyildir. Türkiyə ilə münasibətlərin ideoloji müstəvidə soyuqluğu SSRİ ərazisində yaşayan türkdilli xalqların ədəbi-mədəni, tarixi-siyasi sahədə əməkdaşlığı ilə "kompensasiya olunur", bu əlaqələrin inkişafı mənəvi yaddaşı öləziməyə qoymurdu. "Azərbaycan" jurnalının türkdilli xalqların nümayəndələrinin yaradıcılığı, mifoloji, elmi-mədəni dünyagörüşünü əks etdirən materiallara yer verməsinin etnomədəni yaddaşın qorunub saxlanılmasında mühüm rolu olmuşdur. Bu illər ərəzində 18 minlik bir arxivdə mindən çox yazının türkdilli xalqların ədəbi-fəlsəfi-mədəni irsini əhatə etməsi jurnalın türk dünyası qarşısında xidmətinin yalnız riyazi göstəricisidir. Azərbaycanlı türkoloqların türk xalqları mədəniyyətinin ayrı-ayrı sahələri ilə bağlı elmi məqalələri də bu əlaqələrin tarixi-mədəni səviyyəsini yüksəltməyə xidmət etmişdir. Elə bir türkdilli xalq yoxdur ki, bu illər ərzində onun ədəbi-bədii irsi jurnalda əksini tapmasın. Siyasi-ideoloji aspektlərin daha çox qabardıldığı sovet dönəmində də bir sıra yazıçıların əsərlərində arxaik mədəniyyətin qorunması nümunəsinin səviyyəsi kimi dərk olunan xalq adət və ənənələrində, mərasimlərdə ritualların təsviri türk təfəkkürü və islam inancının izlərini bədii düşüncədə yaşadırdı. Y.V.Çəmənzəminlinin "Qızlar bulağı", İ.Şıxlının "Dəli Kür" əsərlərinə oxucu marağının bir səbəbini də bununla əlaqələndirmək mümkündür. Bu və bu kimi əsərlərdə etnik inanclar və dini etiqadın qaynayıb-qarışması bədii ədəbiyyatda milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. 50-ci illərin ortalarından etibarən, Türkiyə ədəbiyyatının türk xalqlarının ədəbi-bədii irsindən təcrid olunması mövqeyindən tədricən uzaqlaşma müşahidə olunsa da, Azərbaycan ədəbi mühitində, hətta Türkiyəyə səfərlərlə bağlı qeydlərdə də, siyasi-ideoloji yanaşma qalmaqda idi. 1947-ci ildə "İnqilab və mədəniyyət" jurnalının 11-ci nömrəsində Səbahəddin Alinin bir neçə hekayəsinin dərci nəzərə alınmasa, "Azərbaycan" jurnalının 1958-ci il buraxılışlarından başlayaraq, türk poeziyasından və nəsrindən nümunələrə yer ayırması davamlı şəkil almağa başladı. 1923-1928-ci illər arasında, demək olar, bütün

nömrələrində türk ədəbiyyatından nümunələr, türk ədəbiyyatı və türk dili ilə bağlı tendensiyadan sonra bu (məs., 9-cu nömrə), jurnalın ədəbi siyasətində "dönüşün yeni səhifəsi" adlandırıla bilər. Bu nömrədə yer almış Qaracaoğlan, Aşıq Əmrah, Aşıq Həsən, Aşıq Ömər, Dərdli, Gövhəri, Hikmət Arif, Nihal Başar Şükufə, Nihal Atsız, Rifat İnkaya, Mehmet Kamal, Cahid Küləbi, Qaradənizin poetik nümunələrinin tərcüməsi M.M.Seyidzadə, R. Rza, Ə.Kərimə məxsusdur.

Jurnalda həmin ilin ayrı-ayrı nömrələrində Erdinc Fəxrinin "Afət", Ömər Seyfəddinin "Zeytun" (tərc.: Ə.Mehdiyeva), Suat Dərvişin "Aişə" (tərc.: X.Hasilova) hekayələri vasitəsilə Türkiyə ədəbiyyatından nəsr nümunələri ilə tanışlıq imkanı yarandı.

Yuxarıda qeyd edildiyi kimi, jurnalın 100 illik tarixində türk, Türkiyə adlarını unutdurmağa qoymayan, "etnik–mədəni yaddaş rəmzi kimi" dövriyyədə olmuş müstəsna fakt "Nazim Hikmət" imzasıdır. Onun ilk şeiri "Əhməd" imzası ilə dərc olunmuşdur. Nazim Hikmətin ideoloji mənsubluğu etnik–mədəni mənsubluq faktına kölgə sala bilməmiş, "*Türkiyədə adı yasaq olan illərdə Azərbaycan ona sahib çıxmışdı.., Nazım Hikmət o illərdə Türkiyə üçün kommunizmin rəmzi idisə, Azərbaycan üçün Türkiyənin, türklüyün, türk dilinin rəmzi, timsalı idi... Sovet İttifaqının başqa türk cümhuriyyətlərində də Nazim Hikmət adı Türkiyə və türklük həsrətinin təsəlli yeri olaraq qalırdı"* [34, s.80]. Nazim Hikmət müstəsnalığının "sirri" böyük sənət həqiqətindədir: *"Siyasi rejimlər, iqtidarlar dəyişir, sonda isə həqiqi sənət qələbə çalır"* [34, s.77]. Anarın "Kərəm kimi" romanı (müəllif əsərini "Nazım Hikmətın həyatı və yaradıcılığı haqqında düşüncələr romanı" kimi təqdim edir) Azərbaycan poeziyasının inkişafına da çox böyük təsiri olmuş Nazim Hikmətin siyasi qütblər arasında keçən ömür yolundan bəhs etməklə yanaşı, milli ədəbi-bədii düşüncənin keçdiyi yola baxış kimi də əhəmiyyətlidir.

XX əsrin 20-ci illərindən sonra Türkiyə cəmiyyəti və ədəbi mühiti ilə bağlı Azərbaycan cəmiyyətinin təsəvvürü ilk dəfə Mehdi Hüseynin "Bir ay və bir gün" adlı məqaləsi vasitəsilə mümkün olmuşdur. Məmməd Arifin "Antikommunistin hiddəti" məqaləsi ilə müqayisə olunmasa belə, hər halda, siyasi-ideoloji prizmadan yanaşmalarına baxmayaraq, yazıçının yol qeydləri – səfər təəssüratı türkçülüyə doğru

addım kimi yozula bilər. Beş il sonra bir qrup yazıçının (S.Rüstəm, R.Rza, N.Rəfibəyli, İ.Şıxlı, Q.Qasımzadə, H.Abbaszadə, M.Vəliyev, X.Rza) Türkiyəyə səfərini əlaqələrin yeni mərhələsi kimi səciyyələndirmək olar. "Yaxın, uzaq Türkiyə" səfər təəssüratının "Azərbaycan" jurnalında dərc olunması *"... türkçülüyə və Türkiyəyə qarşı düşmən olan sovet sistemi dövründə son dərəcə cəsarətli və vətəndaş mövqeyindən yazılmış bir əsər*" kimi qiymətləndirilir. Müəllif həmin yazını az sonra müəyyən ixtisarla mərkəzi ədəbi mətbuatda "Türkiyədən nərgiz çiçəkləri" adı altında dərc etdirdi [183, s.15]. Məqalənin dərci "*...Ermənistanda ciddi etirazlarla qarşılandı. Hətta S.Xanzadyan, S.Kaputikyan, R.Ovanesyan kimi qatı erməni millətçi yazıçılarının təşəbbüsü ilə erməni yazıçılarının qurultayında müzakirə obyekti* oldu *və qurultay adından Sov.İKP MK-ya etiraz məktubu da göndərildi"* [63, s.178].

"İzvestiya" qəzetinin müxbiri Zaur Qədimbəyovun "Asiya ilə Avropa burada görüşür", həmin qəzetin Türkiyədə çalışmış ilk azərbaycanlı müxbiri Azad Şərifovun "Bosfor üzərində qağayılar" kitabları və M.Aslanın "Ərzurumun gədiyinə varanda" adlı yol qeydlərinin 60-cı illərdən sonra Türkiyəni azərbaycanlı oxucuya tanıtmaqda böyük rolu olmuşdur. Əlbəttə, bu "bələdçilər"in yanaşma və baxışlarında özünəməxsusluqların olması başadüşüləndir, lakin bu yazıların "birləşdirici məqamı" onların hər birinin etnomədəni yaddaşı təzələməkdə, Türkiyəyə və türklüyə yeni düşüncənin formalaşmasında, ortaq dəyərlərin gündəmə gəlməsində mühüm qaynaq ola bilməsidir. Türkiyəli yazıçı Ə.Nesinin Bakıda səfərdə olması, A.Zamanovun Türkiyə və bir sıra avropalı türkoloqlarla yazışmaları da qarşılıqlı münasibətlərin dinamikasına təsir edir.

Türkçülük, müstəqil Azərbaycan ideyaları 80-ci illərdə yenidən "canlanır". Türkiyədə və Avropada yaşayıb-yaradan mühacirlərin yaradıcılığı ilə bu mövzu yenidən doğma ədəbi mühitə qayıdır. Bu kontekstdə Azərbaycan şairlərinin XX əsrin əvvəllərində yaradıcılıqlarında ifadə olunan türkçülük, islamçılıq və turançılıq meyilləri aktuallaşır. Azərbaycan Xalq Cümhuriyyətinə, milli istiqlala, tarixi keçmişə, kökə qayıdışa, milli-mənəvi dəyərlərə münasibət yeni əsərlərin yazılmasını şərtləndirir. Dərc edilən materiallarda milli kimlik və mənəvi dəyərlərin inikasına geniş yer verilir. Cənubi Azərbaycan, Azərbaycanın bütövlüyü ilə bağlı məsələlər 60-

cı illər poeziyasında sətiraltı və ya simvolik dildə verilirdisə, 90-cı illərdə “açıq” ifadə formalarına keçilir.

Etnik-tarixi yaddaşın tərkib hissəsi olan türkçülük ideyalarının 90-cı illərdən sonra Azərbaycan ədəbi, fəlsəfi-kulturoloji düşüncəsinə “gəlişməsinin” istiqamətlərini belə təsnif etmək olar:

Azərbaycan mühacirlərinin, eləcə də türkçülüyün görkəmli nümayəndələrinin yaradıcılığı Ə.B.Hüseynzadə, Z.Göyalp, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, C.Hacıbəyli, Ə.Topçubaşov, Ə.Cəfəroğlu və b.-nın irsi yenidən ədəbi-mədəni dövriyyəyə qaytarılır. Bu da, öz növbəsində, ədəbi-bədii gündəmdə, o cümlədən, mətbuatda türkçülük, islamçılıq və turançılıq ideologiyasını aktuallaşdırır. Uzun illər yasaq edilmiş mühacirət ədəbi irsi və bu irsi yaradanların ictimai-siyasi fəaliyyətlərinin cəmiyyətə təqdim edilməsi milli düşüncənin milli ideya səhnəsinə çıxmasına, nəticə etibarilə, bədii düşüncənin estetik-mənəvi, ideoloji simasının aydınlaşmasına təkan verir.

90-cı illərin əvvəllərində jurnal M.Ə.Rəsulzadənin “Əsrimizin Siyavuşu” [143], “Qafqaziya türkləri” [142], “Pantürkizm haqqında. Qafqaz problemi ilə əlaqədar” [142] əsərlərini dərc etdi.

Türkçülük və turançılıq meyilləri gənc və orta nəsil Azərbaycan şairlərinin yaradıcılığında bu və ya digər şəkildə təzahür edir. B.Vahabzadə, S.Rüstəmxanlı, M.Aslan, M.İsmayıl, Z.Yaqub, R.Behrudi, E.Z.Qaraxanlı və başqalarının şeirlərində türk ideallarının vəsfi mühüm yer tutur, xüsusən R.Behrudi poeziyasına türk mifoloji obrazlarının daxil edilməsi geniş maraq doğurur.

Xəlil Rza Ulutürk “Azərbaycan”, “Yaşasın od yurdu, qardaş Türkiyə”, “Bozqurda öygü”, “Nə yaxşı ki...” və s. şeirlərində üzünü türk dünyasına tutur. “*Xəlil Rza yaradıcılığında mental təfəkkür milli-məfkurəvi şüur, milli ideologiya ilə möhkəm bağlıdır... X.Rza ana dilinin işləkliyi, təbliği, qorunması və təmizliyi uğrunda ardıcıl mübarizə aparıb. O, dilə münasibəti həm də türkçülük siyasəti, ideoloji-mədəni münasibətin üzvi hissəsi kimi ifadə edib*” [76, s.133].

Jurnalda ardıcıl olaraq türkçülük, islamçılıq, turançılıq mövzusunda A.Əliyevanın, O.Bayramlının, B.Əhmədlinin, A.Turanın elmi və publisistik

məqalələri dərc olunur. Publisist Möhsün Əliyevin M.Ə.Rəsulzadənin ömür yolundan [71, s.176-183] və M.B.Məmmədzadə haqqında [72, s.118-124] yazıları, Aybəniz Əliyevann İ.Qaspıralı haqqında [69, s.153-156] məqaləsi bu qəbildəndir.

Bədirxan Əhmədlinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Cümhuriyyətin üçlü formulu" məqaləsində Azərbaycan Xalq Cümhuriyyətinin bayrağında əksini tapan türkləşmək, müasirləşmək, islamlaşmaq formulunun tarixi, elmi-nəzəri inkişaf yolu araşdırılır. Məlumdur ki, bu formul heç də birdən-birə yaranmamış, onun təməl prinsiplərinin hər biri ayrı-ayrılıqda uzunmüddətli bir yol gəlmiş və müəyyən inkişaf yolu keçmişdir. Azərbaycanda türkçülük ideyasının yayılmasının bütün aspektlərinə toxunan müəllif belə bir doğru qənaətə gəlir: *"Türkçülük ideyasının yayılmasında türk arenasında Ə.Hüseynzadədən sonra M.Ə.Yurdaqul və Z.Göyalp ortaya çıxır. M.Ə.Yurdaqulun şeirlərində bədii, Z.Göyalpın şeirlərində və publisistikasında türkçülük ideyası elmi şəkildə geniş yayılır. Hər ikisinin XX yüzilin əvvəllərində Azərbaycan ədəbi və elmi mühitinə böyük təsiri olur. Z.Göyalp eyni zamanda şeirlərində Turançılıq ideyasını da ən çox yayanlardandır"* [60, s.24].

Tədqiqatçı üçlü formulun qoyuluşu, formalaşması və inkişafı yoluna nəzər salaraq, Türkiyə və Azərbaycan ədəbi mühitində kimlərin bu formulda rolunun nə dərəcədə olduğunu üzə çıxarır və belə nəticəyə gəlir ki: *"... M.F.Axundzadə, Ə.Süavi, C.Əfqani, Şinasi, Ziya Paşa, Əhməd Vefiq Paşa, H.Zərdabi, Y.Akçura, Ə.Hüseynzadə, Ə.Ağaoğlu və başqalarının yaradıcılığında əlli ilə qədər müxtəlif mərhələlərdən (elmi, maarifçi, nəzəri, ictimai-siyasi) keçərək yol gələn üçlü düstur Ziya Göyalp, M.Ə.Rəsulzadə ilə formalaşma mərhələsinə keçmişdir. Z.Göyalp Türkiyədə, M.Ə.Rəsulzadə Azərbaycanda üçlü düsturu formalaşdırmağa, ona ictimai-siyasi məzmun verməyə müvəffəq olmuşlar"* [60, s.84].

XX yüzilin əvvəllərində olduğu kimi, əsrin sonlarında da bədii düşüncə ictimai fikri qabaqlayır. 80-ci illərdə poeziya ən aktual forma kimi türkçülüyü, turançılığı yenidən gündəmə gətirir. B.Vahabzadə Z.Göyalp, Ə.Hüseynzadənin irəli sürdüyü, M.Ə.Rəsulzadənin dövlət simvoluna çevirdiyi "Türkləşmək, müasirləşmək, islamlaşmaq" üçlü formulunu yenidən poetik fikrə gətirərək yazırdı:

*Öndər dedi: istiqbal üçün dağ aşalım biz,*
*İstiqlala, istiqbala daim qoşalım biz.*
*Bir türk kimi islamlaşa, çağdaşlaşalım biz,*
*Amalına bir xalqı inandırdı Müsavat.* [168]

“Azərbaycan” jurnalında dərc olunmuş bədii mətnlərdə istiqlal, cümhuriyyət ideyaları yalnız siyasi diskursun anlayışları deyil, həm də milli poeziyanın, vətəndaş poeziyasının aparıcı xəttidir, ritorik-emosional ifadə formalarından biridir. Bu dəyərlər həm də ədəbiyyata özünün simvolik obrazları (üçrəngli Azərbaycan bayrağı, xarıbülbülü, və s.) və qəhrəmanlarını gətirir.

Rəmzlərin müqəddəsliyini poeziyamızda şair Ramiz Qusarçaylının “Azərbaycan bayrağı” şeiri yenidən təsdiqlədi. Onun “Şuşada sən qonduğun daşa pir deyəcəyəm” misrası ümummilli arzunun hələlik zədəli və küskün ovqatını öncəduyum fəhmindən təlqin funksiyasına yönləndirdi. Şairin bu şeiri də vətəndaş pafoslu digər şeirlər kimi, Cümhuriyyət dövrünün marşlarını xatırladır, siyasi, ictimai, milli istiqlal düşüncəsini yeni mərhələdə, elə eyni qərarlılıqla davam etdirir. Lakin bu İstiqlalı qorumaq əsas şərtlərdən biridir. Özü də Azərbaycanın İstiqlalı yalnız onun sərhədləri ilə məhdudlaşmır, bu gün sərhədlərdən kənarda qalan, qəlbi Vətənlə döyünən, düşmənə sinə gərən və Azərbaycan bayrağını hər şeydən uca tutan insanların da qəlbində özünə yer edir:

*Sən Arazın, Samurun umuduna boyandın,*
*Çəni ağlar Göyçənin buluduna bələndin,*
*Dərbəndin dərd hıçqıran sükutuna bələndin,*
*O tayımda Savalan, bu tayında Şah dağı,*
*Azərbaycan bayrağı*! [116, s.82]

2016-cı il Aprel döyüşlərinin cəmiyyətə qaytardığı böyük inamın və ümidin poetik ifadəsi F.Qocanın “Bayraq tutan oğullar” poeması ilə səsləşir:

*Bu günə də çox şükür,*
*Çox şükür ki,*
*Bayraq da var,*

*Bayraq tutan oğullar da.* [80]

Həmin dördgünlük müharibə Azərbaycan cəmiyyətinə ruh yüksəkliyi gətirdi. Yuxarıdakı sətirlər həmin günlərdə yazılmasa da, bu poetik – emosional ovqatda həmin günün həqiqəti var. Bu misralardakı həqiqət şüuraltıda həmişə inama doğru, lap yaxında görəcəyimiz zəfəri mütləqləşdirməyə doğru yol gəlib. Düzdür, bu bayraq hələlik Şuşada, Zəngilanda, Laçında dalğalanmırdı, amma Lələtəpə yüksəkliyi də Vətən torpağıdır, O bayrağı o yüksəkliyə sancan oğul da Şuşanın yolunu bir az da qısaldan Azərbaycan əsgəridir. Bu bayrağı dünya da gördü; kimi narahat oldu, kimi qəzəbləndi. Bu narahatlığın səbəbini poetik düşüncə üçrəngli Azərbaycan bayrağının qüdrətinə yozdu:

*O zəfərdən Şuşaya, Laçına da dilərsən,*
*Kəlbəcərin, Ağdamın acısını silərsən.*
*Kefin harda istəsə dalğalana bilərsən,*
*Qazanmısan bu haqqı, sən ey, sən, uca bayraq.*

*Qoruyub yaşatmışıq səni qan bahasına,*
*Min-min oğul, min-min ər, min-min can bahasına.*
*Daha nə yazım axı, nə yazım dahasına,*
*Bayraq deyirəm sənə, bayraq, ən uca bayraq.* [35, s.6-7]

S.Tahir, A.Abdullazadə, İ.İsmayılzadə, Ə.Salahzadə, V.Bəhmənli, A.Həsənli, M.Ələkbərli və başqa şairlərin poetik nümunələrində istiqlal, azadlıq motivləri poetik səmimiyyətlə təqdim olunur. Bu əsərlər milli istiqlal düşüncəsini əks etdirməklə yanaşı, yeni nəslin formalaşmasında, milli-mənəvi dəyərlər kontekstində tərbiyəsində də önəmli rol oynayır.

Türkçülük və turançılıq meyilləri gənc Azərbaycan şairlərinin yaradıcılığında bu və ya digər şəkildə təzahür edir. Z.Yaqubun yaradıcılığına təsəvvüf və Yunis Əmrənin, V.Cəbrayılzadə yaradıcılığına türk poetik düşüncə tərzinin, R.Behrudi yaradıcılığına isə türk dünyası platforması öz təsirini göstərir. M.Aslanın, M.İsmayılın poeziyası da mövzu və problematika baxımından türk dünyasına tutunmuşdu.

Beləliklə, XX əsr Azərbaycan ədəbi prosesində və ictimai fikrində baş verən proseslərin bir-birinə nə qədər yaxın olduğunu görürük. Bu yaxınlıq, əslində, milli ideallardan irəli gəlirdi. Xalqın milli idealları 70 illik fasilədən sonra yenidən özünün müstəqilliyini qazanmaq imkanı əldə etdi. Bu imkanı yalnız tarixi şərait, beynəlxalq vəziyyətlə (Sovetlərin dağılması, Qarabağ ətrafında baş verən proseslər və s.) əlaqələndirmək düzgün olmazdı, bu imkanın yetişməsində bədii düşüncənin rolunu da nəzərə almaq lazımdır. Bədii düşüncədə türkçülük, istiqlalçılıq, müstəqillik ideyasının güclü olması Azərbaycanın, zorla cəlb olunduğu müharibənin çətinliklərinə rəğmən, azadlıq yolundan dönməməyinə mənəvi stimul oldu.

AMEA-nın müxbir üzvü, prof. T.Əlişanoğlu çağdaş ədəbiyyatda tənqidi təfəkkürün konseptual istiqamətləri sırasında *"ədəbiyyatın ümumtürk müstəvisinə qayıtması, doğma konteksti bərpa etmək cəhdi"*ni, ümumən ədəbi prosesdə ümumtürk məxrəcini zamanı geri çəkmək yox, müasirlik kontekstinə, modernləşmə müstəvisinə sədaqəti qeyd edir. Son illər ədəbi tənqidin ümumtürk müstəvisində ən böyük hadisə kimi dəyərləndirdiyi "Yaşamaq haqqı" və "Söz dünyası" roman-traktatlarının (Anar) adını çəkir. Diqqəti həm də belə bir məsələyə yönəldir ki, ədəbi tənqid fəlsəfi baxış səviyyəsinə yüksələ bilməsə, ədəbi-bədii və tənqidi prosesdə qalib ruhun, qalib düşüncənin, qalib yanaşma və təfəkkürün axtarışı davam edəcək [67, s.139].

Azərbaycanlıların kimlik şüuru XX əsrin 90-cı illərində də, əsrin əvvəlində olduğu kimi, müxtəlif konsepsiyalarının qarşılıqlı rəqabəti şəraitində formalaşırdı. Millətin varlığının əsas forması olan dilin de-yure və de-fakto dominantlığına nail olmaq səyləri bu yöndə ifrat siyasiləşmənin təsirini loyallaşdırırdı.

1978-ci ildə Azərbaycanın həmin dövrdə siyasi rəhbəri olmuş Heydər Əliyevin müstəsna cəsarəti sayəsində Azərbaycan dili milli dövlət dili statusunu Konstitusiya Aktında təsbit edə bildi. Şübhəsiz ki, dilin qorunması, inkişafı, zənginləşməsi və coğrafiyası bədii təfəkkürün səviyyəsi və yayılma arealı ilə birbaşa əlaqəlidir. Cəmiyyətin müəyyən təbəqəsinin sovet dəyərlərini, keçmışdə qazanılmış nə qədər müsbət mənəvi dəyərlər varsa, qoruyub saxlamağın tərəfdarı kimi çıxış etməsi ümumilikdə mədəniyyətə, mənəvi dəyərlərə nihilist münasibət formalaşdırdı.

90-cı illərin keçid dövrü (M.Qorbaçovun absurd demokratiya, yenidənqurma

siyasəti, 20 Yanvar və Xocalı faciələri, Qarabağ müharibəsi) Azərbaycan cəmiyyətində sovet sosialist dəyərlər sistemini kəskin surətdə zədələdi. SSRİ-nin dağılması 70 il beyinlərə yeridilmiş psevdodəyərlərin də aşınması ilə şərtləndi. "Sosializmin yenilənməsi", demokratik islahatlar adı altında aparılan siyasət, bazar iqtisadiyyatına keçilməsinin bəyanı ilə müşayiət olunan proseslər nəticəsində ümumi dəyərlər sürətlə dəyişdi. Mənəvi dəyərlərin təftişi postsovet dövrü Azərbaycanında milli-mənəvi dəyərlərə münasibəti dəyişdi. Milli tarixi irsə mənəvi dəyər kimi maraq gücləndi. Bu, ilk növbədə, "həqiqi tarixə", tarixdə "ağ ləkələrə", yaxud "tarixi ədalətin bərpasına" maraqda özünü göstərir. Milli dilə və mədəniyyətə, milli-konfessional kimliyə müraciətlər nəticəsində mənəvi dəyərlər öz səciyyəsi ilə fərqləndi və vahid sovet ideologiyasından ayrılma baş verdi. Azərbaycanın ikinci dəfə öz müstəqilliyini elan etməsi ilə milli-mənəvi dəyərlərin qorunub saxlanılması dövlətin prioritet istiqamətlərindən biri oldu. Milli dövlətçilik şüuru milli-mənəvi dəyərlər sisteminin mahiyyətini də dəyişdi; milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin maddi sərvətlərinin deyil, həm də xalqın milli-mənəvi dəyərlərinin qorunmasına xidmət edir. Milli ruhun həyat tərzinə çevrilməsini də məhz belə şərait səciyyələndirir. Dövlətçilik ideologiyası da, milli ideologiya da eyni bir təməl üzərində, milli-fəlsəfi fikir zəminində formalaşır.

Məhz bu dövrdə azərbaycançılıq ideologiyası mənəvi-mədəni dəyər sistemi kimi ortaya çıxır. Onun ünsürləri dövlət rəmzləri, ana dili, milli-mənəvi keyfiyyətlər, onların ümumbəşəri dəyərlərlə inteqrasiyası və nəhayət, vətənin ərazi bütövlüyünün tanınması kimi qruplaşdırılır. Ədəbi düşüncədə azərbaycançılıq amalı *"azadlıq, müstəqillik, bərabərlik, qardaşlıq, dostluq"* [26, s.18] kimi dəyərləndirilir.

Düşüncəsi, qərar və təşəbbüsləri cariliyin yox, perspektivin, panoramın üfüqlərinə səmtlənən Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi fərqli ictimai-siyasi münasibətlər sisteminin hər iki dövründə milli-mənəvi dəyərlər və vətənpərvərlik hissinin qarşılıqlı əlaqəsinə böyük əhəmiyyət verir, bütün dünya azərbaycanlılarını birləşdirən əsas ideyanı – azərbaycançılığı milli-mənəvi dəyər kimi təqdim edir. 2001-ci il noyabr ayının 10-da Bakıda keçirilən Dünya

Azərbaycanlılarının I Qurultayındakı çıxışında Heydər Əliyev qeyd edir: *"Bizim hamımızı – azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir.., xalqımıza mənsub olan adət-ənənələrdir. Bizim hamımızı birləşdirən məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır".*

Azərbaycan insanının milli-mənəvi dəyərlər dünyasında şəxsiyyət ideyası da mühüm yer tutur. Tarixi şəxsiyyətlər bir toplumun mənəvi sərvəti və mənəvi dəyəri kimi qiymətləndirilir. Böyük azərbaycanlılar – Heydər Əliyev, Üzeyir Hacıbəyli, Səməd Vurğun, Hüseyn Cavid, Ziya Bünyadov, İsmayıl Şıxlı və başqalarını milli dəyər kimi şərəfləndirir. Milli cümhuriyyət ideyasının, istiqlal düşüncəsinin formalaşmasında M.F.Axundzadə, Ə.B.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, N.Nərimanov kimi mütəfəkkirlərin, ideoloqların zəngin irsi milli-mənəvi dəyərlərin, mənəvi potensialın öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Əsrin əvvəllərində yaşamış mütərəqqi ziyalıların ictimai və quruculuq fəaliyyətini, zəngin ədəbi-siyasi irsini öyrənmədən, onların elmi-nəzəri görüşlərinə bələd olmadan həmin dövrün ictimai-mədəni mənzərəsini vermək mümkün deyil. Mənəviyyat tariximizin bərpası həmin "mənəvi potensialı" öyrənməklə bütövləşir.

İctimai-siyasi həyatın xaosu və mürəkkəbliyi fonunda cəmiyyətdə tüğyan edən paradokslar humanitar mədəniyyəti dəb, yoxsa dəyər dilemması ilə sınağa çəkir. Bu tarixi sınaqlarda və böhranlarda müvazinəti itirməməkdə, tarazlığı qorumaqda, milli əxlaqın və zövqün deqradasiyadan xilas olunması həm də ona görə zəruridir ki, deqradasiyaya uğramış zövqlə əxlaq sapıntılarından, milli yaddaşsızlıqdan sığortaya kimsə zəmanət verə bilməz. Bu baxımdan, ədəbiyyatın rolu və yeri danılmazdır. Hər bir yazıçı həm də ədəbiyyatın subyektidir. Çünki, ədəbiyyat təkcə əxlaq işi deyil, ədəbiyyat həm də milli simadır. Ədəbiyyat adına yaranan hər hansı nümunə həm fərdi, həm də milli əxlaqı ifadə edir. Bu gün "ədəbiyyat milli olmamalıdır" fikrini bəyan edən düşüncə qloballaşmanın cəmiyyətin təyinatına yazdığı "postmodern" ifadəsinin mahiyyətindən qaynaqlanır. Kommunikasiya texnologiyalarının sürətli inkişafı sosial şəbəkə anlayışını dövriyyəyə gətirməklə yanaşı, mənəvi dəyərlərə ironik-nihilist münasibət və inamsızlıq formalaşdırmağa çalışsa da, yazılı mətnlər,

bütün tarix boyu olduğu kimi, daha çox etibarlılığa, inama zəmanət verməklə yanaşı, və yarandığı dövrün enerji ötürücülüyü keyfiyyətini qoruyur.

Məlumdur ki, hər cür qadağalara, tabulara müxalif olan insan təbiəti "senzura" sözünü şüuraltıda "azadlıqdan məhrumetmə" anlayışı kimi qəbul edir. İstedadlı yazıçılar əsər rüşeym halında olanda həyatın ağrılarını, quruluşun, sistemin eybəcərliklərini; kəskin fikirləri, cəsarətli sözləri elə bədii donda təqdim edirdilər ki, senzorun iradına yer qalmasın. Daha bir vasitə "Ezop dili" idi; bu yolla da senzuradan yayına bilirdilər.

Müstəqillik dövründə "Azərbaycan" jurnalı milli-mənəvi dəyərlərimizdəki bu boşluğu doldurmağa, "ağ səhifələri" yenidən üzə çıxarmağa başladı.

S.Səfərlinin "Qarşıdan 37-ci il gəlirdi" məqaləsi senzura həqiqətlərindən bəhs edir: "*Cəmi bir neçə ay sonra – 1932-ci il yanvarın 4-də Mirzə Cəlil vəfat etdi. Bu repressiya 37-ci ilin növbəti qələbəsi idi. Bu, xalqın repressiya qasırğası qarşısında bir addım geri çəkilməsi – əvəzini qaytarmaq heç vaxt mümkün olmayan qurban verməsi demək idi... "Molla Nəsrəddin" N.Nərimanovdan və əlifbamızdan sonra üçüncü böyük itkimiz idi"* [62, s.176].

1990-cı ilin məlum Yanvar hadisələrindən sonra (xüsusən 20 Yanvar) Bakıda çıxan qəzetlərin səhifələri ağ ləkələrlə dolu olurdu. Bu ağ ləkələr senzuranın dərcinə icazə vermədiyi materialların yeri idi.

Senzuranın ləğvi (1998-ci il) ilə yaranan mənəvi məsuliyyətin az qala unudulması, əxlaqın insan münasibətləri çərçivəsində yox, daha çox texnika – insan münasibətləri "çərçivəsində tənzimlənməsi" senzuranın mahiyyətini dəyişir, onun bu böhrandan az qala yeganə xilas yolu olması haqqında fikirlər daha tez-tez və ucadan səslənir. Bu gün ictimai inkişafın yeni mərhələsini yaşayan cəmiyyətdə "üçüncü dalğa"nın (A.Toffler) gətirdiyi əxlaqi-mənəvi problemlər, əslində, yeni texnologiyaların tətbiqi məqsədlərindən qaynaqlanır. Senzuranın ləğvi potensial imkanlara əsaslanan yeni ifadə tərzi tələb edirdi. Artıq "Ezop dilinə", sətiraltı mənaların çatdırılması yolları üzərində düşünməyə ehtiyac qalmadı. Əvəzində, ölçü hissinin itirilməsi, ifadə məsuliyyəti əvəzinə əndazəsiz intonasiya baş alıb getdi, mənəvi dəyərlərin deqradasiyası qorxusu gəldi. Senzuradan azad olmuş mətbuat və

ədəbiyyat azadlığın sərhədlərini düzgün müəyyənləşdirmək çətinliyi ilə üz-üzə qaldı. Təəssüf, bu gün də bu problem aktualdır. Hər şeydən əvvəl, dövlətin, hərbi, siyasi, milli təhlükəsizliyin nəzərə alınmasının vacibliyi yazıçının, naşirin üzərinə daha böyük məsuliyyət qoyur və peşəkarlıq amilini bir daha aktuallaşdırır.

Bu bir həqiqətdir ki, mətbuatda senzuranın yoxluğu şəraitində reytinq "xəstəliyi" mənəvi dəyərlərə güclü zərbə vurur. Sosial şəbəkə üzərində senzura – nəzarətin yalnız ictimailəşdirilmiş "məhsula", fəaliyyətə müdaxilə edə bilən növü, eləcə də, ona münasibətlə bağlı görüşlər, qənaətlər yeni müstəviyə keçir.

Klassik anlamda senzura isə, əslində, qalmalıdır və qalır da; redaktə, peşəkar redaktor və vicdanın simasında qalır. Bu "senzor" çox mühüm bir iş də görür: mənsub olduğu ədəbiyyatın, medianın "dil" problemindən tutmuş, dəyərlərə münasibəti tənzimləyir, yeni və köhnə düşüncəni, yeni və köhnə üslubları, ahəngi, intonasiyanı balanslaşdırır.

90-cı illərin tənqid-təftiş intonasiyası dəyərlərə yanaşma tərzinə təsirsiz ötüşmədi. Yalnız tənqid etmək, hər şeyə ağız büzmək, yalnız özünü haqlı bilmək, mənim olmadığım yerdə heç bir şey qaydasında deyil düşüncəsi, və s. polemika və dialoq mədəniyyətində dinləmək və düşünmək qabiliyyətinin uğursuz göstəricilərini sıralayır. Bütün bu və bu qəbildən olan oxşar vəziyyət və şərait ümumilikdə mədəni-mənəvi meyarlar sistemini zədələyir, cəmiyyətin mənəvi atmosferini "ekoloji təhlükəyə" məruz qoyur. Sosial-mədəni mühitin arzuolunmaz təsirləri fonunda bərpaçı rolunda çıxış edən incəsənət, ədəbiyyat bədii-estetik və intellektual inkişafa töhfələrini verməlidir.

Sovet ideologiyasının hakim olduğu postsovet məkanında elitar dil kimi çıxış edən rus dilinə qarşı çıxan Azərbaycan cəmiyyəti müəyyən dövrlərdə ana dilinin rəsmi statusuna nail olmaq yolunda cəsarətli addımlar atmışdır. Hakim rejim kiril əlifbasına keçilməsi, rus dilinin öyrənilməsi və geniş tətbiq olunmasını təşviq edirdi, ruslaşdırmanı gücləndirmək və Azərbaycanın sovet ideoloji-siyasi sisteminə inteqrasiya edilməsini sürətləndirmək məqsədi güdürdü.

Siyasi repressiyaların sonu, mənəvi repressiyaların davam etdiyi bir dövrdə "Azərbaycan" jurnalının sələfi olan "Revolyusiya və kultura" jurnalına rəhbərlik

etmiş ictimai və dövlət xadimi, yazıçı-dramaturq Mirzə İbrahimovun milli dilin haqqının və statusunun bərpası ilə bağlı prinsipial fəaliyyəti cəzalandırıldı: Azərbaycan dilinin tarixi dövlət statusundan danışdığına görə Ali Sovetin sədri vəzifəsindən azad edildi (20 avqust 1956-cı ildə Azərbaycan SSR Ali Sovetinin "Azərbaycan SSR-in dövlət dili haqqında Azərbaycan SSR-in Konstitusiyasına maddə əlavə edilməsi haqqında Qanun"u qəbul etməsi bu yüksək dövlət təşkilatının rəhbəri M.İbrahimovun böyük səyləri nəticəsində mümkün olmuşdu. Həmçinin onun "Azərbaycan dili dövlət idarələrində" adlı məqaləsində (1956) milli məsələ ilə bağlı taleyüklü problemlər qabardılırdı). Ana dilinin dövlət dili kimi fəaliyyətinin sıxışdırıldığı dövrlərdə ictimai fikrin formalaşmasında yazıçılarımızın (R.Rza, B.Vahabzadə, İ.Şıxlı və b.) bədii-publisistik yaradıcılığı mühüm rol oynamışdır.

Əski əlifba və latın qrafikalı əlifbanın qəbul olunmasının rus dili ilə əlaqələrin zəifləməsində ciddi maneə kimi görən siyasət addımları ikidillilik (bilinqvizm) məsələsini ortaya atmaqla, ictimai düşüncəni milli dil ilə rus dilinin birgə hüquqi status alması fikrinə öyrəşdirmək məqsədi güdürdü. Bu, sovet Azərbaycanında assimilyasiya siyasətinin bir forması kimi nəzərdə tutulsa da, 1978-ci il Konstitusiyasının 13-cü maddəsi –*"Azərbaycan dili Azərbaycan SSR-nin dövlət dilidir"* [39, s.5] – bu niyyətə son qoydu.

Güney Azərbaycanda isə milyonlarla soydaşlarımızın faciəsini, millətin faciəsini *"Mən azadlıq cəbhəsində bir fədai əsgərəm,//Bir azadlıq istəyirəm, bir də azad bir vətən"* söyləyən Bulud Qaraçorlu Səhənd qələmə alır:

*Taleyimə sən bax,*
*Düşüncələrim yasaq,*
*duyğularım yasaq.*
*Keçmişdən söz açmağım yasaq,*
*...Özüm bilməyə- bilməyə*
*Dil açıb danışdığım dildə,*
*Danışmağım da yasaq imiş, yasaq*! [148, s.28]

Arazın bu tayında başqa bir şair üzünü Allaha tutub, dilin halını yox, taleyini ağlayırdı:

*İlahi, hansı dildə*
*yalvarım sənə?*
*Bir dua yetər*
*yoxsa sənə də*
*ağız açmaq gərəkdir*
*dönə- dönə?*
*Sənə yox, dünyaya yox,*
*özümə gülürəm*
*çünki yaratdığın*
*neçə min dildən*
*cəmi ikisini bilirəm.*
*Bunların birindən Yer də*
*göy də xəbərsiz*
*odur o birində*
*yalvarıram sənə indi*
*Qospodi, pomoqi, Qospodi...* [151, s.224]

XX əsr Azərbaycan poeziyasında və publisistikasında Vətən canlı fiziki varlıqdır, yəni təkcə dağ-torpaq, çay, fauna, flora... deyil, bu – Anadır, əcdaddır, övladdır, qəlbin qanı, ürəyin döyüntüsüdür və dildir, şəhid ruhudur.

Ədəbiyyatşünas, prof. Q.Quliyev C.Məmmədquluzadəyə qədər Azərbaycan humanitar düşüncəsində milli özünüdərk probleminin konseptual şəkildə öz təcəssümünü tapmadığını qeyd edərək yazır: "*...artıq XX əsrin əvvəllərində eyni mentallığın cazibə çevrəsində yaşayan, eyni arxetiplərin idarə etdiyi, eyni dildə danışan insanların vətəninin – Azərbaycanın kəşf olunmasına ehtiyac hiss olunurdu. Bizim bədii fikir tariximizdə bu, iki dəfə həyata keçirildi: C.Məmmədquluzadə real, S.Vurğun ideal Azərbaycanı kəşf etdilər"* [109, s 164-165].

XXI əsr Azərbaycan ədəbiyyatında bu məsuliyyəti şair Ramiz Qusarçaylının yaradıcılığının mühüm səhifəsi və "müasir Azərbaycan poeziyasında yeni hadisə" (V.Yusifli) olan "Vətən" poeması ilə bölüşdüyünü söyləmək mümkündür. Azərbaycan tarixinin mənzum epopeyası kimi qiymətləndirilən poemanın

*"qəhrəmanı Azərbaycandır, onun tarixidir, zəfərlər, uğurlarıdır, həm də ağrı-acılarıdır. Və əsərin əsas qəhrəmanlarından biri Ali Baş Komandan İlham Əliyevdir ...ilk fəsillərində "uduzdum" peşimançılığı tez-tez təkrar edilirdi, amma 44 günlük zəfərdən sonra "qaytardım!" nidası eşidilir"* [178, s.3].

*Səni qazi-qazi qaytardım, vətən,*
*Qəhrəman- qəhrəman qaytardım səni.*
*Səni şəhid- şəhid qaytardım, vətən,*
*Cana-can, qana-qan qaytardım səni".* [117, s.24]

Bu, Azərbaycan tarixinin ən möhtəşəm və əbədi zəfəridir və belə bir yekunu, bu zəfəri torpaqlarının işğal altında olduğu, haqqı eşidilmədiyi dövrdə onun ədəbiyyatının səngərindən millətin ruhuna aşılanan inam yeridirdi.

*Vaxt keçəcək, dövr ötəcək//Qan – qadalı hərb bitəcək.// Yağıları qovacağıq// bu torpaqdan//mütləq geri alınacaq//Şuşa, Ağdam,//Mütləq geri alacağıq// Kəlbəcəri, Laçını da.//Qarabağa bütün yollar // açılacaq,//Çəkiləcək ulu İsa bulağından//bulud, duman,//Hərb bitəcək, ağrıları// göynədəcək// zaman-zaman* [131, s.3].

90-cı illərdən başlayaraq, "Azərbaycan" jurnalında Azərbaycan Xalq Cümhuriyyəti, milli istiqlal, tarixi keçmişə, milli-mənəvi dəyərlərdə mövzulara daha fəal və geniş yer verilməyə başlayır və bu mövqe ikimininci illərdə də davam etdirilir. M.Yaqubun, R.Yusifoğlunun, R.Qusarçaylının, Ə.Mədətoğlunun, M.Ələkbərlinin, V.Bəhmənlinin, F.Məmmədlinin şeirləri bu qəbildəndir.

Müstəqillik dövründə yaradıcılığı xüsusi maraq doğuran şairlərdən biri də Vaqif Səmədoğludur. İlk şeir kitabı "Yoldan teleqram" (1969) ideoloji ştamplardan və basqılardan uzaq olması ilə diqqəti cəlb etmiş və dərhal satışdan qaldırılmışdı. Yaradıcılığın, əslində, keyfiyyətcə yeni mənəvi sərvət yaratmaqdan ibarət olduğunu nəzərə alsaq, 60-cılar ədəbi nəslinin bu istedadlı nümayəndəsi dövrün ədəbi tənqidinin diqqətini dərhal çəkmişdi: *"Vaqif seçməkdən daha çox mənalandırmağa səy edir. Aləmə özünəməxsus görüş bucağı altından baxmağa, yeni xüsusiyyətlər, yeni cəhətlər kəşf etməyə çalışır. Bax, elə bu bucaq altında da onun öz fərdi üslubu yaranır"* [107, s.3].

Vaqif Səmədoğlu hələ 1963-cü ildə: *"Hansı rənglə çəkəcəklər// xəritələrdə*

*ölkəmi?"* [152, s.24] – sualı ilə təntənəsini yaşayan rejimin süqutunun qaçılmazlığına əminlik yaradırdı. Sual təkcə inamsızlıqdan, şübhədən doğmur, təxəyyül üfüqlərinin ölçüsü də deyil, sual, həm də dəyişmək zərurətinin bəlirtisidir. Vərdiş etdiyin, adətkarda olduğun düşüncənin alt-üst edilməsilə *"gördüyümüzdən artıq görmək istəyi"nə* (R.Rza) yoluxdurmaqdır. Bədii suallar bəzən patetika, pafos, şablon, stereotip yozum tələskənliyinə tuş gəlsə də, əslində, köməksiz zamanın, məğlub kədərin qorxuqarışıq ümidsizliyini ovutmaq cəhdidir.

"*Qalib gələcəkmi cahanda kamal?* (S.Vurğun) ritorik sualından yola çıxan Yusif Səmədoğlu yaddaşı "*Görəsən, bu dünyada çörəyi halal adamların diyarı hardadır?*" [154] labirintinə salır. Vaqif Səmədoğlu isə cavabı çox gözləməli (və gözlətməli!) oldu... Uzun bir ayrılıqdan sonra bu cavabsızlığın sükutunu silkələdi: "*Eşidirsənmi?... Mən burdayam...*". Şairin sualları passiv romantik şair düşüncəsində ilişib qalmırdı, 60-cı illərin sonunda ittiham ladında Birləşmiş Millətlər Təşkilatına tuşlanırdı, Vyetnam dərdinə diqqət çəkməklə, "bölünmüş vətən" dərdini tanış ağrısına resept yazırdı.

*Vətən şirin şeydir,*
*şirindir, talan olsa da...*
*şirindir tək- tük şeiri,*
*mahnısı yalan olsa da.*
*Amma ikiqat şirindir*
*İkiyə bölünmüş Vətən!*
*...Onda ikiqat cəsarətdən,*
*vaxtında silaha dönə biləcək qeyrətdən*
*asılıdır onun taleyi* [150, s.16-19].

Vaqif Səmədoğlu heç vaxt Vətənə tribunalardan, rəyasətdən sevgi söyləmədi, ikiyə bölünmüş vətənin taleyinə əlacın "poetik reseptini" yazdı: "*ikiqat cəsarət, vaxtında silaha dönə biləcək qeyrət".* O, həyata, ölümə, cəmiyyətə, hakimiyyətə... müxalifət mədəniyyəti – birlik nümunəsini yaşamağı və yaşatmağı öyrədir...

*Məndən uzaq gəzməyin,*
*bir-birinizdən də.*

*Tək qoymayın məni*
*bir - birinizi də.* [150, s. 21]

Vaqif Mustafazadə muğamla cazın təfsirində yeni bir səhifə açdığı kimi, Vaqif Səmədoğlu şeirin “caz və saz” təfsirini yaratmaqla milliliyin mahiyyətinə endi, milli-mənəvi varlığın ümumbəşəri ifadəsini verməklə yanaşı, milliliyin həm də ciddi sosioloji problemlərin daşıyıcısı olduğunu bir daha təsdiq etdi.

*Sən ki neçə dildə eşitmişdin*
*Azadlıq sözünü.*
*Sən ki seçə bilirdin*
*Dünyanın əyrisini, düzünü.*
*Sən ki oxumuşdun,*
*ümidin göz yaşını,*
*Dəsmal kimi silməkçün*
*yazılmış şeirləri.*
*Sən ki*
*Dünyanın neçə pəncərəsindən*
*görmüşdün səhəri...* [149, s.77]

Vaqif Səmədoğlu həmişə ürəyini Səməd Vurğunun – azadlığı boğulan zəncinin qəzəbdən dümağ olmasını görüb-yaşamış atasının xatirəsinə söykəyib, üşüyən azadlığı sığalladı: “*Yad ellərin qarı yağır, /Nə vaxtdır elimizə”* [150, s.11].

V.Səmədoğlunun yaradıcılığı sintezdir. Hansısa bir zamandan, hansısa bir düşüncə mədəniyyətindən gəlmiş, dövr, tərz, mədəniyyətlərin müqayisəsinə səsləyən əlahiddə təqdimat nümunəsidir; Poetik sintaksisi son dərəcə dramaturji, son dərəcə kübar, son dərəcə bəşəri olan bu şairin şeirlərinin ana xəttini azadlıq, vətən və istiqlal mövzuları təşkil edir. Qardaşı Y.Səmədoğlu ilə birlikdə milli-azadlıq hərəkatının yaxından iştirakçısı olmaqla yanaşı, onun poetik obrazını da yaratmağa nail olur, istiqlala, azadlığa müqəddəs canlı bir varlıq kimi baxır:

*Sən mənim doğma anamsan, Azadlıq,*
*mən sənin yad qapısında böyümüş balan...* [151]

V.Səmədoğlunun azadlıq, müstəqillik, istiqlal haqqında yeni poetik düşüncə üslubu S.Tahir, F.Qoca, A.Abdullazadə, S.Rüstəmxanlı, R.Rövşən, F.Məmmədli, V.Bayatlı Odər, V.Bəhmənli yaradıcılığında da davam etdirilir.

Xalq yazıçısı Nəriman Həsənzadənin yaradıcılığında Azərbaycanın milli-mənəvi dəyərlərinə və tarixinə sevgisi poetik səmimiliklə ifadə olunur. Bu ştrix şairin poetik obrazının ekvivalenti kimi çıxış edir. Nəriman Həsənzadə tarixlə dialoq mədəniyyətinin (Vaqif – Vidadi dialoqu, aşıq deyişmələri-bağlamaları) daşıyıcısıdır. Amma onun şairliyinin vaxt ərazisində dialoq yox, monoloq həvəsi hökm sürür və bu, əsrin mahiyyətindən doğur; informasiyalı cəmiyyət dinləməkdən çox diqtəyə köklənib. Burada fəsadları ilk baxışda görünməyən bir hava da var: dinləmək mədəniyyəti düşünmək bacarığı gətirir, informasiya istehsalına yoluxan cəmiyyətdə isə solo mikrofon hakimdir. Monoloq həvəsi bir az da "özünə vurğunluq" əlamətidir, başqa informasiyadan qorxur. Alt qatda isə bu, şair kredosunun oxucu düşüncəsinə və təxəyyülünə assimilyasiyasıdır; N.Həsənzadə fərd məhəbbətindən millət sevgisinəcən uzanan bir mənəvi Vətəni tanıdır: *Vətən, vətən deyən şair ürəyi//Vətənin ən böyük ərazisidir.*

Darda aman, sonda güman yeri olan Vətənin dərdi *"qədim bir məmləkətin, kirpiyilə od götürən bir millətin"* şairini *"mən bir vətən, iki torpaq şairiyəm"* qənaətinə gətirib. Siyasi bölgü onun milli bütövlüyünə uduzur; şair N.Həsənzadə mənsub olduğu millətin tarixinin, ruhunun və "mən"inin nəfəsi, səsidir. *"Tarix! Səni oxuyuram/ mən türkə / "Can" deyə-deyə",* – tarix səhifələrində həqiqət axtarır.

Həqiqət axtarışında N.Həsənzadə Mirzə Cəlil, Sabir yolu tutub; özgəsinə yox, öz eyiblərinə, nöqsan və səhvlərinə gülür. Gülüşün içindəki göz yaşı səhvlərimizin ucbatından taleyimizə yazılan yazıdır. Şairin şeirlərinə epiqraf seçimi (ən çox Sabirin misralarına müraciət edir) onun mövzuya, hadisəyə, detala münasibətdə mövqeyini, sosial-estetik yanaşma tərzini müəyyənləşdirməyə kömək edir: *"Almas İldırımın adına küçə! –/Keçirəm, ildırım içimdən keçir. /Bu necə millətdi, ilahi necə? /Ocağı söndürüb külə and içir"* [92].

Tarix – yazılanda məlumatdır, oxunanda – xəbərdarlıq! Tarix təkcə salnamələrdə, rəsmi sənədlərdə, dərsliklərdə yazılmır. Bir bənd şeirdə də tarix

yazmaq mümkündür. Nəriman Həsənzadə millətin xarakterini, taleyini, simasını, gücünü şeirin diliylə tarixləşdirir. Onun tarix səhifələrində axtarışlarının fəlsəfi yekunu və məntiqi sadə və dəqiqdir: öz böyük oğullarını tanımayan millət vətənində nabələd olur. Şairin "Zümrüd quşu", "Atabəylər", "Pompeyin Qafqaza yürüşü", "Bütün Şərq bilsin", "Nəriman", "Qaçaq Kərəm", "Hacının qızı", "Ankarada Məmməd Əmin Rəsulzadənin məzarı", "Şəhidlər Xiyabanı", "Getdi" (Ziya Bünyadovun xatirəsinə) və s. əsərləri millətin yaddaşını, diqqətini özünü və şəxsiyyətlərini tanımağa səfərbər edir.

Məlumdur ki, Qafqaz İslam ordusunun komandanı Nuru Paşa Azərbaycana gələrək, Bakını erməni-bolşevik işğalından azad etmiş və XX-XXI əsrlər Azərbaycan ədəbiyyatının əsas qəhrəmanlarından biri olmuşdur. C.Cabbarlının Cümhuriyyət dövründə yazdığı "Ulduz" və ya "Trablis müharibəsi" dramında türk sərkərdəsinin ilk bədii obrazı yaradılmışdır. N.Həsənzadənin "Nuru Paşa" poeması yalnız bədii-estetik baxımdan deyil, tarixi-siyasi məfkurəmiz üçün mühüm əhəmiyyət daşıyır. Əsərin pafosu bəlağət deyil, ehtirasdır, dastanlardan gələn stereotip qəhrəmanlıq, şücaət ehtirası yox, ədalətin və həqiqətin təbii ritmindən doğan ehtirasdır; Tarixin çətin sınağında, dar gündə türkün-türkə, qardaşın-qardaşa səs verməsindən bəhs edən tarixi səhnələri oxuduqca at tappıltısı, qazi hayqırtısı, qılınc səsləri ilə dolu vuruş meydanında hiss edirsən özünü; "türk sözüylə türk qılıncı həmrəy olsa", bizə zaval yoxdur – şairin qənaəti budur.

*Türk qılıncı parlayanda,*
*Tarixə*
*İstiqlal yazır.* [93, s.8]

"Nuru Paşa" poeması Azərbaycanın müstəqilliyində önəmli rol oynamış bu böyük sərkərdənin həyatını və qəhrəmanlığını vəsf edir.

Yaradıcılığının erkən dövrü ilə tanışlıq belə deməyə əsas verir ki, Fikrət Qocanın şair düşüncəsi məhəlli olmayıb, bəşəri dəyərləri tərənnüm edib, yaradıcı kredosunun vektoru daxili "mən"ə yox, rəngindən, dinindən, dilindən, irqindən asılı olmayaraq, insana tuşlanıb. Bu, heç də milli-mənəvi idealdan uzaqlıq kimi izah oluna bilməz.

60-cılar ədəbi nəslinin nümayəndələrindən olan Fikrət Qocanın həmin illərdə üzünü sərhədlərin o üzündə qalan dünyaya tutmuşdu, Çe Gevara (“Ünvansız məktub”), Amilkar Kabral, Xose Risal (eyniadlı poemalar), Nazim Hikmətin xatirəsinə həsr olunmuş “İstanbulda bir ceviz ağacı var”, repressiyanın insan talelərindəki izlərinin şəkli olan “Oddan keçənlər”, kosmosun fəthinə həsr olunmuş “Qaranquş yolu” poemaları F.Qocanın sovet dövrü yaradıcılığının nümunələrindəndir.

Məmməd Arazın məşhur “Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı” poetik formulu F.Qoca şeirində başqa şəkildə ifadə olunur: *“Vətəndaşların dübbədüz qəddi olur, /Qonaqlarının qonaq həddi olur. /Belə millətin hər vətəndaşı /Vətən daşı deyil, vətən sərhəddi olur”* [82].

Fikrət Qoca millətin ən böyük sərvəti olan azadlığın eyforiyasından daha çox onun məsuliyyətini düşünüb, onun uğrunda canından keçənlərin həyat hekayətini tarixin yaddaşına yazmağın vacibliyini qeyd edir, azadlığın yoluna çəkilən sədlərin – demokratiya dəyərlərindəki “əngəllərin” ədalətsizliyindən əziyyət çəkən Azərbaycanın, türkün “yazısını yazır”:

*Hər yandan uzanır əllər,*
*Görünən, görünməz əllər.*
*Bu gələnlər düzlük axtarmır,*
*Düzlük üstündə toz axtarır,*
*Sərf eləyən söz axtarır,*
*siyasi məhbus axtarır.*
*Qaçqınların, uçan damların,*
*Xəstə adamların*
*çılpaq balalarını görmür.*
*Qanunda səhv getmiş bir*
*Hərf axtarır.* [82, s.121]

Sovet dövrü ədəbiyyatında qaçaqların mənfi obrazına şair milli-etik dəyərlər prizmasından baxır: *“Keçmişdə çox bərkə düşəndə /Qaçaq olardı kişilər, /Qaçaq mərd olardı, qoçaq olardı, /Səsi düşmən kürəyinə bıçaq olardı”,* – sözlərində xalqın

milli dəyərlərinə yeni baxış ifadə edilir. Bu baxış şairə 90-cı illər ictimai həyatının sərt reallıqlarını müqayisə etməyə imkan verir.

*Həmin qoçaq qaçaqların nəvələri əsrin sonunda ...*
*Bakıda yeddinci mərtəbədə qaçaqdı…*
*BMT-nin verdiyi vədi*
*Saqqız kimi çeynəyir,*
*Humanitar yardım gələn*
*Saqqızı bazarda satır.* [81, s.210]

Bu, mənəvi dəyərlərin deqradasiyasının təzahürü idi. Şair "qaçaq kişilərin" bazara öyrəşmiş heysiyyətini gerçək həyat həqiqətləri ilə qarşılaşdırır:

*Radioda xəlvətcə Bakını tutmuşdu*
*Erməni əlində əsir olan qız.*
*"Biz qırx milyon xalqıq" – deyib*
*Kimsə radioda bağırırdı.*
*Qızın düşmən əli dəyən*
*Hər yeri birdən göynədi – ağrıdı.*
*Başını başına döyüb*
*Hönkürüb ağladı.*
*Sözü düşmən eşitməsin deyə*
*Radionu bağladı.* [81, s.210].

*Mən yadlardan qorxmuram,// içimizdəki yad səsidi məni qorxudan//Burdakı ruspərəstdi,// ordakı farspərəstdi//Bəzinin hər ehtimala qarşı//sandıqda gizlətdiyi fəsdi məni qorxudan* [81, s.211]. Bu qorxunu yenməyin bir yolu da ədəbi-mədəni irsə qayıdışdır, etnik-mənəvi yaddaşı səfərbər etməkdir.

Şairin "Azərbaycan" jurnalında dərc olunmuş əsərlərində tarixin sınağından çıxmış milli-etik dəyərlərə işıq salınır. Bu əsərlərin məzmun-ideyasını "azadlıq", "zaman", "insan", "kişilik", "yol" poetik obrazları və fəlsəfi kateqoriyalar təşkil edir, "Fikrət Qoca" adlı bir fəlsəfi düşüncə bütövlüyünü ifadə edir.

Müstəqillik dövrü ədəbiyyatının tanınmış simalarından olan Firuzə

Məmmədlinin yaradıcılığı yeni dəyərlər sisteminə mənəvi-intellektual təcrübənin sağlam əsaslı nəticələri kimi daxil olmuş nümunələrdəndir. Ənənə ilə müasirliyin, müdrikliklə gənclik şövqünün qaynayıb-qarışması onun yaradıcılığına marağı bu gün də “diri” saxlayır. Bu yaradıcılıq, hər şeydən əvvəl, Azərbaycan dilinin təmizliyi və zənginliyini, türk təfəkkürünün dərinliyini yaşadır.

*Evinin kişisi olmaq istəsən,*
*Öncə sözünün kişisi ol,*
*Sonra düzünün kişisi ol,*
*ən sonda dözümün kişisi ol* [17, s.15].

Onun dilinin yaddaşı qloballaşan şəhər rahatlığının, texnologiya sürətinin tozanağında əriyib uzaqlaşan kəndin yaddaşıdır, adət-ənənənin, törə əxlaqının, uşaqlığının yaddaşıdır:

*Qovladılar bu il kənddən Vəlini,*
*Gedənəcən yenə “tövbə” deyirmiş.*
*Ağsaqqallar kəsəcəkdi dilini, –*
*Deyirlər ki, haram tikə yeyirmiş”.* [17, s.17]

Ötən əsrin 60-cı illərinin ortalarında Vahid Azərbaycan uğrunda mübarizə aparanların cərgəsinə qoşularkən inandığı dəyərlər, ən müqəddəs dəyər bildiyi söz düşüncə və fəaliyyətini tənzimləyən mənəvi-əxlaqi dəyərləri həm də ona görə yeni zamana daşıya bilmişdir ki, bu dəyərlər insanlığı bir-birindən ayırmağa deyil, birləşdirməyə hesablanmış milli-mənəvi dəyərlər sırasındadır.

Beləliklə, müstəqillik dövründə poeziyada azadlığın, müstəqilliyin, istiqlalın poetik inkişafı ilə tanışlıq onu deməyə imkan verir ki, bu motivlər poeziyanın əsas istiqamətlərindən birini təşkil edir. Bir əsrdə ikinci dəfə istiqlalını qazanan Azərbaycanın poeziyası da eyni hissləri yaşayır. Cümhuriyyət dövrünün mənəvi irsi – istiqlal ənənəsi, müstəqilliyin tərənnümü ikinci müstəqillik dövründə də davam edir. B.Vahabzadə, X.R.Ulutürk, V.Səmədoğlu, N.Həsənzadə, M.Araz, S.Rüstəmxanlı, İ.İsmayılzadə, A.Abdullazadə, R.Behrudi, R.Qusarçaylı və başqalarının yaradıcılığında istiqlal motivləri yeni ictimai-siyasi kontekstdə tərənnüm edilir.

Bu paraqrafda yer almış poetik mətnlərin təhlili göstərir ki, istiqlal, cümhuriyyət ideyaları yalnız siyasi diskursun anlayışları deyil, həm də milli poeziyanın, vətəndaş poeziyasının aparıcı xəttidir, ritorik-emosional ifadə formalarından biridir. Bu dəyərlər həm də ədəbiyyata özünün simvolik obrazlarını (üçrəngli Azərbaycan bayrağı, xarıbülbül, və s.) və qəhrəmanlarını gətirir.

## 2.2. Dini – irfani dəyərlərin poetik ifadəsi

Cəmiyyət – ənənə və dəyərləri formalaşdıran, yaşadan və dağıdan insanlardır. İnsanın nümunə olmasının ən qısa yolu ənənəyə münasibətdən keçir. Bu mənada mədəniyyəti təkcə yaradılanlarda yox, həm də yaradılanlara münasibətdə görən yanaşma o halda özünü doğruldur ki, keçmişin ərazisində olan yaradılana, yəni keçmişə münasibət mədəniyyəti taleyini müəyyən edir.

Tarix boyu Azərbaycan insanının qazandığı və yaratdığı mənəvi mədəniyyət özündə milli dəyərlərlə yanaşı, ümumbəşəri dəyərləri də birləşdirir. Ona görə də ümumbəşəri mütərəqqi mədəniyyətin altçoxluğu qismində çıxış edir. Buraya ənənəvi davranış və məişət stereotiplərini, yaşam dəyərlərini də əlavə etmək olar. Mənəvi mədəniyyətin formalaşmasına təsir edən ünsürlərin sırasında mifik təsəvvürlərin, inancların və dini etiqadın da rolu var; etnik düşüncə tərzi islam düşüncə tərzi ilə zənginləşir: *"Milli kimliyi meydana gətirən amillər milli mədəniyyət olduğuna görə, milli mədəniyyətə aid olan xüsusların və dəyərlərin hamısı milli kimliyi müəyyən edən ünsürlərdir. Bunların ən önəmliləri dil, din, vətən, bayraq, tarix, sənət, ədəbiyyat, fəlsəfə, dövlət, ənənə və adətlərdir. Bu dəyərlər millətin fərdləri arasında birlik əmələ gətirir"* [118, s.242]. XIX əsrdən başlayaraq, islamçılıq Qərb (Avropa, Rusiya) maarifçilik dəyərləri ilə qovuşmağa cəhd edir. Rusiya – İran (1813, 1828-ci illər) müharibələrindən sonra rus mədəni, ictimai-siyasi mühiti və rus dili vasitəsilə Şimali Azərbaycanın ictimai-mədəni həyatına maarifçilik dəyərləri daha intensiv şəkildə daxil olmağa başlayır. Məhz bu dövrdə milli dramaturgiyanın və teatrın bünövrəsi qoyulur, milli mətbuatın ilk nümunəsi – "Əkinçi" qəzeti nəşrə başlayır. Klassik

poetik kanonların daşıyıcısı olan şairlər (A.A.Bakıxanov, S.Ə.Şirvani, Q.Zakir, M.Ş.Vazeh və b.) Azərbaycan cəmiyyətində yeni tipli məktəb, təhsil ideyalarının və Qərb dəyərlərinin geniş yayılmasını təbliğ edirlər. Maarifçilik ideyaları milli özünüdərkdə mühüm rol oynamağa başlayır, milli dil, milli kimlik, milli şüur və milli məfkurə məsələləri yazıçılarımızın yaradıcılığında əksini tapır. Milli ziyalı təbəqəsi formalaşır.

Azərbaycanın Qərbə inteqrasiya olunması, onun Avropa sivilizasiyasının dəyərlərini qəbul etməsi heç də Azərbaycan dövlətinin və vətəndaşının öz milli və dini varlığından imtina etməsi deyil. Ənənəvi dəyərlərdən imtina meyilləri və təhrikləri, birmənalı şəkildə, dəyər nihilizminə gətirib çıxarır.

İstənilən mədəni təzahürün əsasında tənzimləyici inancların, davranış normalarının və qaydalarının, stereotiplərin olması şərtdir. Əsrlərlə formalaşmış maddi, mənəvi, psixoloji meyillərin məcmusu kimi yaranan dəyərlər həm də milli kimliyin formalaşmasına güclü təsir edir. Qədim türk köçəri həyat tərzini, oturaq mədəniyyətlərdən üstün mədəniyyət yaratmış köçəbə mədəniyyəti izlərini araşdıran ədəbiyyatşünas C.Bəydili belə qənaətə gəlir ki, köçəbə ruhlu türkün "Tanrı" anlayışı bir çox xalqların "Tanrı, Allah" anlayışlarından fərqli olmuşdur; köçəbə türk bütün aləmi Xudanın yurdu hesab edirdi və buna "*..inandıqları üçün Göy Tanrı adına, böyük və kiçik olsun, heç vaxt tapınaq da ucaltmamışlar. Mifoloji şüurdan gələn bir qüvvətlə mənsub olduğu qəhrəman köçəbə topluluğunun bütün müqəddəs dəyərlərinu bilən və qoruyan hökmdar tipi kimi Çingiz xanın könlündə və düşüncəsində qərar tutan da məhz belə bir Tanrı obrazıydı"* [43, s.180].

Azərbaycanlıların sosial həyatını, məişətini tənzimləyən, dünyagörüşünü formalaşdıran digər amil, türk düşüncəsi ilə yanaşı, islam mənəviyyatı, islam dinidir. O, azərbaycanlıların mənəvi mədəniyyətinin əsas elementi, xalqın mənəvi dünyasının vacib ritual – fəaliyyət sferası kimi çıxış edir.*"İslam mədəniyyəti söz mədəniyyətidir, bu mədəniyyətdə söz namusdur, məsuliyyətdir, müsəlmanlar gücün sözünə deyil, sözün gücünə inanırlar. Qurani-Kərim "oxu" əmri ilə başlayır, "insan" sözü ilə bitir, hər ayəsi, ey insan, oxu, düşün, anla buyurur"* [86, s.11].

Klassik ədəbiyyatımızın əsasında islami dəyərlər, təsəvvüf–irfan düşüncəsi

dayanır: insanın qurtuluşu və kamilliyə çatması ali, yüksək mənəvi dəyər kimi vurğulanır. XX əsrin 20-30-cu illərindən başlayaraq, ateist düşüncə etiqad azadlığı analayışına "kiçik korrektə" ilə əsrlərlə mövcud olmuş inanc sisteminə qarşı savaş açdı; pantürkizm, panislamizm qadağasının strategiyası xalqın bədii düşüncə sisteminin əsrlərlə mövcud olmuş dəyərləri ilə rabitənin qırılmasına hesablanmışdı. Bu böyük mənəvi əsaslardan – din və əxlaqdan uzaq salınan bədii düşüncədə "xüsusi məqsədlə ixtira edilən dəyərlər" (E.Hobsbaum) milli kimliyin qorunmasına ciddi müqavimətlə yanaşı, fərqinə varmadan yaradıcılq axtarışlarını gücləndirməyi şərtləndirirdi. "Allahsızlaşdırma" siyasətinə qarşı beynəlmiləlçilik, sosial bərabərlik motivlərindən istifadəyə üstünlük vermiş, bununla da, bir növ, mədəni-mənəvi dəyərləri milli yaddaşın qorunmasına səfərbər etməyə cəhd göstərmişdir. Yeri gəlmişkən, beynəlmiləlçiliyin psevdodəyər kimi təqdim olunması zamanı bir məsələnin nəzərə alınması unudulmamalıdır ki, başqa millətlərə, xalqlara qarşı dözümlülük azərbaycanlıların təbiətində, etnik-mədəni düşüncəsində müstəsna dəyər kimi qorunmuşdur. Bu gün cəmiyyətdə ara-sıra müşahidə olunan dini-mədəni dözümsüzlük davranışları bütövlükdə dövlətin multikultural siyasətinin mahiyyətinə kölgə salır, xalqın təbiətindən gələn tolerantlığın milli müstəsnalıq keyfiyyətini şübhə altına almağa hesablanır. Oxşar yanaşmalar 70 illik ideoloji buxovdan azad olunmuş cəmiyyətin söz azadlığını anarxiya kimi qavraması ilə izah oluna bilər. Bu zəmində artan müxtəlif missioner təbliğatı milli-mənəvi dəyərlərə təsirsiz ötüşmürdü.

Həmin dövrdə ədəbi prosesin gedişində hiss olunan "dini təfəkkürün" fəallaşması, klassik kanonlarla əlaqənin bərpası cəhdləri də ictimai prosesdən qaynaqlanırdı. 90-cı illərin əvvəlində İslamın müqəddəs kitabı olan Qurani-Kərimin tərcüməsi və təfsiri dini dəyərlərin gündəmə gəlməsini sürətləndirən məqamlardan biri oldu. İslam müqəddəslərinin bioqrafik səciyyəli "həyat hekayələri", dini görüşləri, sakral məkanların əlçatanlığı, dini maarifləndirmə təşəbbüslərinin artması zəminində tədris ocaqlarının fəaliyyətə başlaması 70 il etiqad azadlığı əlindən alınmış cəmiyyətdə xüsusi coşqu və çaşqınlıq yaratdı; ictimai münasibətlərin dəyişməsi şəraitində dəyərləri sonacan dərk edib qiymətləndirmək çətinliyi – xüsusilə, razılaşılmayan mülahizələrin mövcudluğu halında – yaradıcı insanın məsuliyyətini

cəmiyyət və tarix miqyasında genişləndirməyi şərtləndirirdi. Çağdaş modern poeziyada dini-irfani dəyərlər, neosufizm motivləri onun – ritorik sistemini dəyişdirdi, klassik ədəbi kanonlarla əlaqənin bərpasına müəyyən qədər imkan yaratdı. Təsəvvüf şeiri, xüsusən Yunus İmrə, Seyid Mir Həmzə Nigari, Xəstə Qasım, Qurbani, Aşıq Ələsgər və b. yaradıcılığı nümunəsində sufi obrazlarının stilizasiya meyilləri müşahidə olunmağa başladı. Gənc şairlər Z.Sarıtorpaq, A.Səməd, Xanəmir, E.Z.Qaraxanlının poetik mətnlərində "sufiyanə gəzişmələr" müşahidə olunur.

*Dərin – dərin sözlərin,*
*Uca – uca yerlərin,*
*Ərənlərin, pirlərin*
*Tilsiminə baş vurdum* . [38, s.115]

Nisə Bəyimin jurnalın 1998-ci il 8-ci sayında dərc olunmuş "Kitabi-Dədə Qorquda sevgiylə" silsiləsində təqdim olunmuş şeirlərində də bu meyil izlənilir: *Ucalardan uca Tanrım,// Ucalığına salam olsun. ....Varlığının niyyətinə,//Məramına salam olsun!..//Sözü duyan könüllərə, //Ürəklərə salam olsun!* Bu şeir Yunus Əmrənin "*Biz dünyadan gedər olduq, Qalanlara salam olsun*" şeirinin davamı kimi oxunur. Həmin silsilədə*n başqa nümunələr: Ağban evi uçan yurdum,//Yurdum, dizinə döydünmü?// İgidləri qaçan yurdum,// Yurdum, özünü döydünmü?* , yaxud:

*Sıyrım-sıyrım qabığından*
*Soyulduqca ucalırsan.*
*Ucalığın tənhalıqdır.*
*Tənhalıqda qocalırsan.* [129, s.3-6]

Tənqidçi N.Cabbarlının "Yeni yaradıcılıq meyilləri, ədəbi qruplar və avanqard poeziya" məqaləsində məqsədini *"..insanlığın, mövcud və ruhi dünyanın zülmət ənginliyindəki ilahiliyi, tamlığı, məlum olmayan həqiqətləri aşkarlamağa xidmət edir"* [45, s.38] kimi səciyyələndirdiyi "2+ mistik" ədəbi cərəyanın təmsilçilərinin poetik mətnlərində də "tanış hava" oxunur: *Bir yürüş başlayın// ana əsrliyinə//yolları toza bürüyən Tanrı görsün//can əzabında əriyən Vətən//analarla bir düşərgədə//topa-topa tüstüyə döndü// o uzaq yurd yerində//xəbəriniz oldumu insanlarım// kim öldü kim*

*qaldı*” [137, s.15], yaxud *“Doğulanlar // Bir az Allahı çəkir dara//Analar yerə qoyanda yükünü//Müqəddəs həbsxanalar gözləyir Allahı...* [94, s.20]

Neosufizm, turançılıq axtarışları toplumu birləşdirən mənəvi dəyər kimi gündəmə qayıdır və jurnal bu imkanları dəyərləndirə bilir. Neosufizmi ədəbi cərəyan yox, ayrı-ayrı ədəbi cərəyanlarda üzə çıxa bilən poetika hadisəsi və bədii yolla təqdim olunan fəlsəfi yanaşma kimi dəyərləndirən ədəbiyyatşünas, prof. Tahirə Məmməd çox vacib bir məqama diqqət çəkir: “*Sufizmin hər cür köçürülməsini və çevrilməsini neosufizm kimi səciyyələndirmək sufizmin mütərəqqi, humanist ənənələrinin məhvinə və yanlış dəyərləndirilməsinə gətirib çıxara bilər”* [121, s.109]. Xalq yazıçısı Z.Yaqubun “Peyğəmbər” poemasını yazarkən böyük kəramət sahiblərinə “*qulağıma İlahi tərəfindən “ya hu”lar pıçıldamış qüdrətli könül sultanlarına, Tanrı, peyğəmbər aşiqlərinə, fəzilət ərkanımıza – Qorqud Ataya, Xoca Əhməd Yəsəviyə, Şeyx Nizamiyə, Seyid Nəsimiyə, Yunus İmrəyə, Həzrəti Mövlanaya, Pir Sultan Abdala, Füzuliyə, Şah Xətaiyə, Dədə Ələsgərə, Cavid Əfəndiyə...”* [174, s.87] şükran duyğularını ifadə etməsi müasir poeziyada humanist ənənələrin davam etməsini səciyyələndirir.

B.Azəroğlunun, M.Dilbazinin, B.Vahabzadənin, C.Novruzun, Z.Yaqubun, V.Bəhmənlinin, A.Səmədin və b. şairlərin şeirlərində Tanrı və peyğəmbər sevgisi və ehtiramı, müqəddəs dəyərlərin vəsfi aparıcı yer tutmağa başlayır. İnsan – Tanrı münasibətləri metafizik mənalar səciyyəsinə qalxır.

“Allah”, “Tanrı”, “Peyğəmbər” konseptinə müraciət, eləcə də, irfan-təsəvvüf düşüncəsinə artan maraq poetik düşüncədə dəyər sisteminin ideoloji-etik məzmununu zənginləşdirdi. Bir sözlə, islam diskursu təkcə poetik mətnlərin funksional üslubunu yox, həm də bədii dilin mistik ruhunu genişləndirdi.

*Aradabir Məhəmməddən uzaqlaşan*
*Qoca dünya Məhəmmədə sarı gəlir.*
*Alçaq dünya Məhəmmədi başa düşmür,*
*Uca dünya Məhəmmədə sarı gəlir...* [174, s.52]

“Azərbaycan” jurnalında dərc olunan poeziya və nəsr nümunələrində Allahın və Peyğəmbərin mübarək adları Yaradan – yaradılan münasibətlərində canlı əlaqə kimi dərk olunur: *Bu ulduzlu gecədə// Ay olmaq istəmirəm//Allah girib yuxuma,//Ayılmaq*

*istəmirəm,* yaxud: *İlahi, söz adlı, daş – qaşı göndər// Şəninə dəfinə bir şeir yazım. // İlahi, göyləri ağ varaq eylə, //Sənin şərəfinə bir şeir yazım* [134, s.100].

Yurdundan, evindən didərgin salınmış insanın nə getməyə bir qapısı var, nə dərdinə əlac ola biləcək bir səlahiyyətli ünvanına inamı qalıb. Bu insan ya yuxulara sığınaraq hər şeyi unutmaq istəyir, ya da Tanrıdan möcüzə gözləyir. Bu, passiv romantikin kədərli monoloqu deyil, bu, Yerdəkilərin ədalətindən ağlı kəsməyən insanın cəmiyyətə, insanlara ittihamıdır və 90-cı illər cəmiyyətinin acı reallığıdır:

*İndi ümidləri sınmış quşam mən,*
*Hanı, yoxa çıxıb bitdiyim torpaq?!*
*Sənin dərgahına sığınmışam mən,*
*Sən qaçqın deyilsən,*
*Min şükür, Allah!..* [122, s.120]

Bəzən onun möcüzə görmək yetikliyi hüdudsuz qüdrəti də diksindirəcək qədər amansızdır və insan gücsüzlüyünün bu son həddi "qan dondurur":

*Ay Allah,*
*Balamı beş dəqiqəlik*
*Kor eylə, görməsin,*
*əllərim əsir* [151]

90-cı illər şeirində Allaha "ərköyün asilik", narazılıq, giley, qınaq emosional xətti güclüdür. Ondan insaf, ədalət ummaq, dilə tutmaq, yalvarmaq, əslində, ədalətsizlikdə, haqsızlığın baş alıb getməsinə göz yumulmasına görə qınaq – ittihama çevrilir: ... *Sən gətirdin hamımızı bu cahana//Sən həm ata, sən həm ana//,Sən etmisən xilqət bizi,// Sən qadirsən bu bəd yoldan döndərməyə əlbət bizi.//Səndən ayrı güman yoxdur//Səndən ayrı heç qüvvəyə inam yoxdur* [130, s.49].

İnamın tərk etdiyi insanın xeyir-şər qarşıdurmasında, konkret halda isə, torpaqların işğalı, dünyanın gözü qarşısında azərbaycanlıların pozulmuş haqlarına qarşı demokratik dəyərlərdən dəm vuran ölkələrin, laqeydliyi bir yana, şəri dəstəkləməsini seyr edə-edə, gücsüzləşir, bir fərd kimi özünü də günahkar bilir. Çıxış yolunu isə baş götürüb getməkdə, yeganə Haqq olan Allahdan gələn ölümdə görür:

*İlahi, keç mənim günahlarımdan,// Yoxsa dərd içində öləcəyəm mən.//Bir nərdivan qurub öz ahlarımdan, // Birbaşa yanına gələcəyəm mən. //Haqq ölür, qatili mənəm bəlkə də,//Zalımlar qol açıb, göz yaşı göldür.//Haqqı öldürüncə sən bu ölkədə, //Öldür mən günahkar bəndəni, öldür* [64, s.50-51].

Xalq şairi Fikrət Qoca isə başqa cür düşünür, həmişəki kimi, hamının durduğu səmtdən hamının baxdığı səmtə baxır, empatiya hissi şairi həmkarlarından fərqləndirir. Hamının Onu qınadığı, Ondan umduğu məqamda şair, odun üstünə su çiləyir:

*Allah təkdi,*
*Bilir ki, təkin işi ağır olacaq.*
*Ancaq*
*Elə bilir yaratdıqları da*
*yaradacaq.*
*Allah təkdi, ey yaranmışlar,*
*Yaradana da kömək gərəkdi!*
*Ucaltmaq üçün onun adını,*
*Siz də yaxşılıqlar yaradın.* [84, s.40].

***

*Nə yaxşı ki, nəfəs verdin,*
*Otunun, çiçəyinin dadını çəkdim, Allah*
*Nə yaxşı, dil verdin mənə,-*
*Adını çəkdim, Allah!* [133, s.67-68]

Şeirdə dini motivlərin güclənməsi, ən əsas dəyər hesab edilən sakral dəyərlərin, müqəddəsliyin adiləşdirilməsi "icazəli yaxınlaşma" zəminində şəxsi motivlərin və eyni düşüncə tərzinin üstünlük təşkil etməsi ilə izah oluna bilər; ümidsizlik, ölüm xofu, taleyindən nigaran, günahlarına görə qorxan insanın Allaha "üz tutması" və s. Yaradan – yaradılan münasibətlərində şükranlıq, Tanrının dərkinə cəhd, yoxsa, yalnız Ondan bəhrələnmək, qarşılıq haqqında düşünməmək – bu, şairin yox, yaradılanın Yaradanla, fərdin "o gözəgörünməzlə" ünsiyyətinin məqsədidir.

Özünü, dünyanı dərk etməklə, Allahı dərk etmək cəhdi ilə üzünü (qəlbini) Ona tutmaq məqamında şeir yaranır:

*İtki ağırsa da, heç batma yasa,*
*Axı nə faydası, Tanrını çağır?*
*Əgər haray çatan bir quyu varsa,*
*O quyu içindi, içinə bağır*! [42, s.17]

Tənqidçi E.Akimova V.Bəhmənlinin şeirlərini türk – təsəvvüf düşüncəsinin ruhi – psixoloji məqamlarını sərgiləyən nümunələr kimi səciyyələndirir*: "Bu şeirlərdə müəllif özünün insan, dünya haqqında bədii-fəlsəfi qənaətlərini, mənəvi təkamül, ruhani və bəşəri dəyərlərlə bağlı ideyalarını yaradıcılığının gəlib çatdığı həqiqət mərhələsinin nümunələri kimi təqdim edir* [23, s.145].

Yaradan – yaradılan münasibətlərində, ona müraciət dua, iltimas çərçivələrini aşaraq, belə demək mümkünsə, Allahın göydən yerə endirilməsi *"cəhdləri"* əsasən 60-80-ci illər modernist şeirində görünür.

İctimai düşüncəni kitab sərlövhəsindən diksindirən *"Mən burdayam, İlahi!"* (V.Səmədoğlu) müraciəti poetik ovqatın səmtini dəyişəcək təsiri ilə sonrakı nəsillərin yaradıcılığında təkrarlanmağa başladı. Hər halda və bu fonda Allahın insanilәşdirilməsi "cəsarəti"nin yolu" uzandı.

Tanrı – insan münasibətlərinin, Allaha müraciət yolunun "*Ya rəb, bəlayi eşq ilə qıl aşina məni,//bir dəm bəlayi eşqdən etmə cüda məni*" (M.Füzuli) iltimasından və "*Qəlbin gözü yanmazsa, görünməz Allah*" *inamından* (B.Vahabzadə) "*Bu kartları, dəyiş, Allah,// Mən bu ömrü uduzdum. ...Düş, gözümün qabağında,// Burda, yerdə qarışdır*" [144] ədasınacan izlənilən yolu ən ali dəyər olan Tanrıya münasibət timsalında mənəvi dəyərlərin deqradasiya şəkli idi və 90-cı illər şeirinin rəva bildiyi "*Tanrım, geriyə çəkil, əl qaldırar bəndəniz!*" *(M.Köhnəqala)* [124] davranış, özünə "*Allahı əfv etmək*", onu "bacarıqsızlıqda suçlamaq" – "*tanrı belə, əvəzsiz sevməyi bacarmadı*" *(S.Pərvanə)* cəsarəti, Tanrısı yasaq edilmiş toplumun faciəsini ifadə edir [140].

Qarışıq-dolaşıq Zamanın işləklərində çaşıb-çabalayan ədəbiyyatın əlacı – xilası bir hicrətlə başlayacaq "durulma" ola bilərdi.

*Səndən sənə ərz eləyən dilimi kəs,*
*Sənə sarı uzatdığım əlimi kəs.*
*Sındır məni, pəsimi kəs, zilimi kəs,*
*Tək ruhumun bağlarını kəsmə, Tanrım.* [174, s.17]

Zəlimxan Yaqubun yaradıcılığı unudulmuş keçmişin izinə düşüb, yaddaşın gözünü açmaq məsuliyyətinə mənəvi haqqı olduğunu düşünməyə əsas verirdi, necə deyərlər, "səhradakı qum dənəsi sal qayadan nişanədir".

On min misraya yaxın "Peyğəmbər" poeması [174] lokal mədəniyyət hadisəsi deyil. Z.Yaqub "Peyğəmbər"də din, əxlaq, fəlsəfə, sənət estetikasının uğurlu vəhdətinə nail ola bilmiş və məhz bununla da əsəri böyük Şərq mədəniyyətinin insanlığa növbəti töhfəsi kimi yazmışdır.

Xalq şairi Nəbi Xəzrinin 1990-cı ildə yazdığı eyniadlı poeması nəzərə alınmasa, Cavidin qəhrəmanı *"...hər zaman özlərim bir öylə cahan// Ki bütün kainatı eşq" olsun"* söyləyən "Peyğəmbər" dramından sonra [46] Azərbaycan ədəbiyyatında bu mövzuya ilk dəfə müraciət olunurdu. "*Cavid mürgüləyən idrakın alatoranında azmış millətə əldən çıxmış bağların ipucunu verirdi "Peyğəmbər" dramı ilə. Amerikada Cübran Xəlil Cübran da eyni missiyanı təmsil edirdi. Qəribədir, qütblərin ikisində də bu Yol "Peyğəmbər"dən keçirdi. Qəribəlik həm də hər iki "Peyğəmbər"in eyni ildə dünyaya gəlməsi idi – 1923-cü ildə*" [11, s.247]. Bolşevik ideologiyası "Peyğəmbər"in müəllifini sürgünə göndərdi, ərəb dünyasının üz döndərdiyi Cübran da "universal din" xülyası ilə ömrünü doğulduğu torpağa həsrətlə başa vurdu.

*Qiyamət nə zaman qopacaq – demə,*
*Hər gün qiyaməti qopur dünyanın.*
*Həyatın sonunu dərk etməyənlər,*
*İblis niyyətini tərk etməyənlər,*
*Hər gün axırına çıxır dünyanın.* [174, s.68]

Z.Yaqubu ən çox görünməyən tərəflər düşündürür, suallar bir-birini təqib edir və Yaradan – Yaradılan bağlarına yaxınlaşır: *"Zahiri görmək asan, Batindən nə bilirsən?"; "Rəsmində rəsmimizi yaşadan sübhan nədir?"* Bu suallar, oxucunu gücsüzlüyün bədbinliyinə çəkmir, sanki ilahi sirri dərk etməyə sövq edir.

“Peyğəmbər” İslamın tarixini, bu tarixin ağır, şərəfli səhifələrini, sonuncu dinin tarixinin yaradılmasında mübarək xidmətləri olmuş şəxslərin portretlərini, şəhidlik məktəbinin müqəddəsliyini çoxsaylı elmi-ədəbi-tarixi qaynaqlarla tanışlıq, elmi məsləhətləşmələrin hesabına və işıqlı ilhamın gücünə yazılıb. “Peyğəmbər” artıq mükəmməl bir mənbədir:

*Dinimin ayağına günah yazırlar bu gün,*
*Ayağımın altını yaman qazırlar bu gün.*
*İslamın dediyini tərsə yozurlar bu gün*
*Cavabını verməsəm min dəfə lənət mənə,*
*Tanrım, şəhid olmağın sirrini öyrət mənə.* [174, s.19]

Katarsisə cəmiyyətin həmişə ehtiyacı var. Əxlaqi dəyərlər, mental düşüncənin qatlarından boy verən təmizlənmə havası “Peyğəmbər”in oxucusu bəlkə adını bilmədən, fərqinə varmadan, dərvişanə vəcdin ərazisində qəribə bir əhval yüksəkliyinə düşür, əsəri oxuyub bitirdikdən sonra da izah edə bilməyəcəyi nikbinlik onu tərk etmir. Z.Yaqub “Peyğəmbər” mənzum romanında din, əxlaq, fəlsəfə, sənət estetikasının uğurlu vəhdətinə nail ola bildi və məhz bununla da böyük Şərq mədəniyyətinin insanlığa növbəti irsini yaratdı. Klassik Şərq ədəbiyyatından gələn, Nizami yaradıcılığından başlanan epik düşüncə tərzi, struktur – Allaha müraciət, minacat, Peyğəmbərin vəsfi və digər ardıcıllıqlar – bir sözlə, forma və məzmun Z.Yaqubun qələmində ənənələrin yeni əsrə, müasir insanın yaradıcılığına transformasiyasını bəlirtir. *“Peyğəmbər”də ...sonacan səngiməyən poetik ovqatın ekspressiyası, dil və ifadə zənginliyi, şeirin müxtəlif ölçülü şəkilləri, əhatə olunduğu dövr və mənəvi iqlim ədəbiyyatın böyük mədəni əsaslardan – din və əxlaq prinsiplərindən bəhrələnməyə qayıdışından xəbər verir”* [10, s.87-90].

Özgələşmiş sosiallıq xüsusilə keçid dövrü yaşayan cəmiyyət insanının təcridini, tənhalığını həyat tərzinə çevirir və sonra da az qala təyinatına çevrilən, ruhunu saran yad “ekzistensializm”in depressiya saçan kürlüyünü oxşaya-əzizləyə çıxış yolu aramağa başlayr.

*Bir An gələr, o bir Anda*
*Allahın da, şeytanın da*

*gücü keçər bir insana.*
*Allahlığa, şeytanlığa*
*bir an dözər insan ancaq*
*çox dayana bilməz daha*
*o bir ana*
*insana keçib qayıdar*
*dupduru Allahlıq Allaha*
*dipdiri şeytanlıq şeytana.*

Belə davranışın nəsibi insana dəyər yükləyən bir xitabda – Quranın Tövbə surəsində şifrələnib: *"Allah dəyərləri yerindən etmiş toplumu doğruya yönəltməz"* [115]. Yolundan azmışa, Günaha batmışa qorxu-qadağa, xəbərdarlıq kar etməzsə, yanlışlardan dönməyə şair bir ipucu da verir:

*Tanrım, ən qəmli cana sanc*
*ən iti uclu xəncərini,*
*sanc, eşq yolu aç xəncərə,*
*bir eşq yolundan min, milyon*
*ağrımazcan aç giclərə.* [41, s.20]

V.Bayatlının şeiri dua anının səssizliyinə, Tanrı kimi tənhalığa, ilğım kimi sirrə sarı çəkilmək, insan qəlbinə enmək üçündür. Deməli, Tənhalığın ağrısını yox, Tənhalığın fəlsəfəsini yaşadan bu şeirlər, həm də susmaq üçündür. Yerlə, Göylə, Dərdlə, Tanrıyla, Sözlə, Ölümlə, Sevgiylə susmaq öyrədən poeziyanın sehri də oxucunu buna səsləyir:

*Ən ağrılı, ən ağır*
*Çıxılmazdan da çıxmağa*
*Hər an üzü Allaha*
*Tək bir yol olur ancaq,*
*Bircə an ayağın altında, həm də başın üstündə,*
*görünməz,*
*duyular ancaq.* [41, s.15]

V.Bayatlının bu fikri kölgə – instalyasiyaları xatırladır. Onun “instalyasiyaları”nın fərqi budur ki, burada təkcə işığın yox, kölgələrin də rəngi var. Kölgənin rəngləri gerçəkliyi təsvir etmir, təcrid olunmuş, uzaq düşmüş (ayrı salınmış), nəsnələrin, hərəkət və hadisələrin mahiyyətini və qohumluğunu təfsir edir.

*Bir kölgə ver mənə, tanrım,*
*sözün kölgəsini ver.*
*Söz dünyanın şəklidi,*
*hansısa sözün şəkliyəm mən də.* [41, s.29]

Bir az diqqətlə baxanda üçüncü, dördüncü, ...qatların da olduğunu fəhmlə duyursan, adını bilmədiyin bu triptix – rənglərdə xronotopun əridiyini, yoxa çıxdığını hiss edirsən. *“...Və inanırsan ki, Yaradanın zamandan xəbəri yoxdur, zaman şeytan işidir. Yalnız an varmış – keçdiyin hər min ilin əvvəlində gələn bu bircə anda... bir damla göz yaşının dibsiz dərinliyində tənhalığın qəm çiçəyitək üzdüyünü, kəpənəktək gəzişdiyini, dərdin darıldığını, yurdun uladığını... qəlbinlə görür, ruhunla dinləyirsən..* [6, s.18] *Hər gələn səsdən, sözdən,//hər an Allahı duy, dinlə, ancaq onda bilərsən //hər an səni duya-duya, Allah danışır səninlə,//bilərsən, sən heç deyilsən, həm də nə qəm, nə kədərsən//Allahı duyub gəldiyin//Vətənçün,// Allahçün ola bildiyin, ölə bildiyin qədərsən* [41, s.7].

Onun Allahla da, insanla da söhbətinin birləşdirici – barışdırıcı intonasiyasının səmimiyyəti eynidir:

*Bu dünyadakı bütün dərdlər sənin dərdindi,*
*Başqa dərdlər yoxdu,*
*Ancaq bir böyük Dərd var, sənin Dərdin,*
*Çünki ən azad, ən böyük Tənha sənsən.* [41, s.31]

Və o zaman – dərin...dərin... eşqlə dolu səssizlik anında tənhalığın lal səsindən damla-damla pıçıltılar süzülür: ən gözəl söz – susdura bilən sözdür. Susdura bilən söz – yazılan söz deyil, yazdıran sözdür. Və bu sözün “hüsn – əsması” sükutdur. Şair fərdiyyəti, poetik özünəməxsusluq hələ bu sükutu ifadə etmək gücündə deyil. Hamıya çox asanlıqla şamil edilə bilən bu “növbətçi” təyinlər deyil idealı gücün,

hakimiyyətin fövqündə saxlayan. Kimsə inkar da edə bilməz ki, janrın məntiqinə cavab verən nizamlı-ahəngli söz düzümü yaxşı poeziya nümunəsi ola bilər. Olar və nə qədər desən, sözə qüvvət yaradıcılıq nümunələri sadalamaq mümkündür. Amma poeziyanın qüdrəti deyilən nə isə bir özgə nəsnədir, janrın məntiqi yetmir onu açmağa, izah etməyə, nəinki yetmir, hərdən bu məntiqi, klişeni elə dağıdır ki, şeirin ruhu da incimir... əvəzində insan ruhunun ölçüyə – sığala gəlməyən müxtəlif və saysız-hesabsız vəcd halının şəklini – havasını alır: hər yer və hər şey əbədiyyət qədər uzaq, Tanrı qədər yaxın, ölüm qədər tanış... və bir uşaq təbəssümündən saçan işıq kimi dopdolu eşq havasında:

*Yadındamı, Tanrı,*
*Sən ucsuz – bucaqsız kədərdin,*
*Biz də kədərin balaları...* [41, s.46]

Poeziyadan fərqli olaraq, nəsrdə dini dəyərlərin və təsəvvüf – motiv obrazların təcəssümünə, əsasən, tarixi mövzuda yazılmış əsərlərin süjetində rast gəlinir. Bu mənada sufizmin genetik kod hüququ qazandığını A.Talıbzadənin "Kəpənək modeli 102" romanının nümunəsində söyləmək mümkündür. Əsər X.Kortasarın "62. Quraşdırma modeli" romanı ilə allüziya yaratmaqla yanaşı, müəllifin "Kəpənək və ya təfsiri-şərhi-hali Nəsimi" məqaləsi ilə səsləşir: "*...hürufilərin simvolik bildirmələr sistemi içində Kəpənək müqəddəs Geyim kimi qavranılır. Bu sistem çərçivəsində Kəpənək insanın sakral dünya ilə əlqələndiricisidir, özünəməxsus bir mediatordur, ötürücüdür, iki cahanın rəmz – modelidir, mikrokainatdır. Əlavə onu da deyim ki, Kəpənək hürufiliyin Nəsimi tərəfindən verilmiş şifrəsidir. Bu şifrə açılıb oxunanda hürufiliyin cövhəri bəyana gəlir*" [163, s.169]. İntellektual oxucuya ünvanlanmış roman uşağın dilindən və onun təəssüratları ilə nəql edilir. Müəllifin nəzərdə tutduğu "kəpənək modeli" həmin uşaqdır. O böyüyüb yazıçıya çevrilir və özünü yazır, daha doğrusu, öz dünya modelini yazır.

Əsərin adının, belə demək mümkünsə, ikinci "açarı" "Kəpənək" sözünün kiçik əbcəd hesabına işarə etməsidir. Kiçik əbcədlə hesablayanda "kəpənək" sözü "102" eləyir. Deməli, kəpənək 102-dir, 102 isə 1+2-dir, yəni 3-dür. 3 isə ruh aləmini eyhamlaşdırır. Böyük əbcəd hesabında da 3 qəribə bir şəkildə təkrarlanır. Sonda isə

belə bir nəticə hasil olur ki, kəpənək öz balaca qanadları ilə dünyanı və aləmləri quca bilir. Onu da deyək ki, romandakı hər bir personaj özündə roman potensiyası gizlədir.

Rəmzlərlə işləmək səriştəsi müəllfin "Ramana" , "Əbu hübb" romanlarında daha aydın hiss olunur.

"Ramana"da zər taleyin üzüdönüklüyü və oyunlarının simvoludur. *"Bir də görürsən ki, batmısan. Zər səni fır-fır fırladır, ƏlöööSət, ağlada-ağlada güldürür, Əlövsət! ...Zər, zəhrimar, çərxi-fələkdir, bir saniyə ərzində hər şeyi alt-üst eləyir. Xirtdəyindən yapışıb, səni ardıyca sürüyür. O, adamın içini rentgen kimi görür e... Görür ki, qorxursan, gülür, görür ki, əsəbiləşirsən, görür ki, əsirsən görür ki, kəf gəlirsən, görür ki, tamahsılanırsan, görür ki, dilənirsə, əl açıb yalvarırsan. Gör bir cıqqılı zərin neçə gözü var, Əlöööşət..."* [164, s.101]

"Əbuhübb" isə başdan-ayağa simvol və parollar üzərində qurulub. Əbuhübb (eşq atası) adı həm də paroldur (ya əbu hübb, ya əbu həyy), sufi eşqinə işarədir, məxfi zikrdir. Ona görə də Toltı bəy (buddaçılıqdan) gəlib, sufi xanəgahında Əbuhübb doğularkən torpağa ərəb "M" hərfi kimi düşür, səcdədə bulunur, sufi olur və səhrada itir. Tuncal isə "postmodern" Əbuhübbdür, başqa sözlə, yaşamaq gücü olmayan Əbuhübbdür. Əbuhübbün doğulması ilə romanın biri qurtarır, Tuncal öləndə romanın ikincisi qurtarır. Bütövlükdə isə, sanki müəllif bu əsəri "İnsanlara yazığım gəlir" ifadəsini deməkdən ötrü qələmə alıb. *"...özü də ən yaxşı cəhət də budur ki, qədim türk dövrünün, həyat tərzinin, ruhunun, dünyagörüşünün ən mürəkkəb dövrünə, ən mürəkkəb hadisəsinə – buddizm dövrünə müraciət edilib. O həyatı daha çox uyğur türkləri yaşayıblar. Təsvir edilən də məhz həmin həyat tərzidir və mən burada sxematizm görmürəm. Tam bir məlumatlılıq, peşəkarlıq və o ruhu duymaq xüsusiyyəti var.."* [49, s.139].

Xalq yazıçısı Y.Səmədoğlunun "Deyilənlər gəldi başa" (1999), Xalq yazıçısı İ.Muğannanın 2000-ci illər yaradıcılığı, o cümlədən S.Ağayevin "Yeddinci yetgin" əsərləri insanın özünü, dünyanı dərk etməsinin, qorumasının vacibliyini diqqətə çatdırır. *"...hətta illərlə həsrətini çəkdiyi, nəhayət ki, qovuşduğu bu ailə də hal-hazırda onu çulğamış tənhalıqdan xilas etməyəcək. Çünki amansız həyat təcrübələri İmrana elə bir dərs vermişdi ki, bu dərsi paylaşmaq olmazdı... İmran bir şeyi yaxşı*

*bilirdi: bilirdi ki, onu ölümdən məhəbbət xilas eləyib: doğmalara, torpağa, bu göyə məhəbbət. Onu böyük təhlükələrlə dolu daşlı-kəsəkli yollardan qadasız-bəlasız keçirən məhəbbət. O məhəbbət ki, bu həyatın mənasıdı və ona görə bu mənasız həyatda yaşamağa dəyər"* [7, s.63].

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycan ədəbi prosesində və ictimai fikrində baş verən proseslərin bir-birinə nə qədər yaxın olduğunu görürük. Bu yaxınlıq, əslində, xalqın milli ideallarından irəli gəlirdi. Xalqın milli idealları 70 illik fasilədən sonra yenidən özünün müstəqilliyini qazanmaq imkanı əldə etdi. Bu imkanı yaradan yalnız tarixi şərait, beynəlxalq vəziyyət (Sovetlərin dağılması, Qarabağ ətrafında baş verən proseslər və s.) deyildi, həm də bədii düşüncənin bu prosesi yetişdirməsi idi. Bu prosesdə türkçülük, istiqlal, müstəqillik ideyası başlıca yer tuturdu. Azərbaycanı zorla cəlb olunduğu müharibənin gətirdiyi çətinliklər, torpaqlarının 20 faizinin işğal olunması da müstəqillik yolundan döndərə bilmədi.

Müstəqillik dövrü ədəbiyyatında dini-irfani dəyərlər, neosufizm motivləri poetik mətnlərin emosional substratını təşkil edir. Neosufizm, tanrıçılıq axtarışları toplumu birləşdirən mənəvi dəyər kimi yenidən gündəmə gəlir və jurnal bu imkanları dəyərləndirə bilir.

# III FƏSİL
# ƏDƏBİYYAT MƏNƏVİ YADDAŞIN BÜTÖVLÜYÜ KİMİ

## 3.1. Tarixi və mənəvi yaddaş məsələləri çağdaş nəsrin və dramaturgiyanın obyekti kimi

İstənilən cəmiyyətdə yeni mənəvi-əxlaqi mühitin formalaşması dəyərlərin yeni təsnifatının müəyyənləşdirilməsi nəticəsində baş verir. Heç kimə sirr deyil ki, bu gün ölkəmizdə qloballaşma adı altında sosio-mədəni sferada, xüsusən mənəvi həyatımızda bir sıra neqativ proseslər gedir, bu da bir çox ənənəvi dəyərlərin itirilməsi ilə nəticələnir. Bir çox dini-mənəvi dəyərlər köhnəlik, gerilik adı ilə tarixin arxivinə verilir, yeni dəyər təmayülləri cəmiyyətdə sürətlə yer alır.

Mənəvi dəyərlərin təcəssümü və təbliği milli ədəbiyyatın funksiyalarından biridir. Vətən sevgisi, soy-kökə, ata yurduna, adət-ənənələrə bağlılıq, böyüyə hörmət və s. etik dəyərlər Azərbaycan ədəbiyyatı nümunələrinin ideyasını və məzmununu təşkil edir. Ona görə də, "dəyər" anlayışının araşdırmaya cəlb olunması, "Azərbaycan" jurnalının fəaliyyətinin bu kontekstdə nəzərdən keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

Xüsusilə çağdaş dövrün reallıqları fonunda tez-tez rast gəlinən, kifayət qədər mürəkkəb və heç də asan olmayan vəziyyətlərdə bu funksiya müəyyən bir norma yaradılması niyyətinə kömək edir.

Bir qədər bu araşdırmanın təhlil obyekti olan dəyər anlayışı haqqında.

Müxtəlif dövrlərdə filosoflar: – "Dəyər nədir?" – sualının cavabını əsaslandırmağa çalışmışlar. Dəyər problemləri müxtəlif humanitar elm sahələrindən olan tədqiqatçıların – filosoflar, pedaqoqlar, psixoloqlar, kulturoloqlar, filoloqların diqqətini həmişə cəlb etmişdir.

Dəyər problemi fəlsəfə elmi çərçivəsində yaranmış və yeni bir sahənin – aksiologiyanın başlanğıcını qoymuşdur. Dəyərləri öyrənən aksiologiya elmi də

meydana gəlmişdir. Aksiologiya hər bir xalqın, sosial toplumun münasibətlərini tənzimləyən dünyagörüşü sistemi kimi öyrənilir və etika, estetika, sosiologiya təlimlərini ümumiləşdirir. Eyni zamanda dəyərin təbiəti, onun dünya dəyər sistemində və reallıqda yeri ilə bağlı sualları tədqiq edir. Bir sözlə, aksiologiya sosial və mədəni amilli, şəxsiyyət strukturlu müxtəlif dəyərlərin bir-biri ilə bağlılığını öyrənir. İnsan və dünya arasında dəyər münasibətlərini öyrənən bu elm sahəsi dəyərlərin təbiətini, gerçəklikdə yerini, dəyər dünyasının strukturunu və s. öyrənir. Məlumdur ki, müxtəlif tarixi dövrlərdə və fəlsəfi sistemlərdə dəyərlərin dərki və mahiyyəti dəyişmişdir. Antik dövrdə və orta əsrlərdə "dəyər" anlayışı ilə ideal atributlar, yaxud sakral obyektlər mənalandırılmışdır.

Orta əsrlərdə "dəyər" anlayışı həm də mənəvi-ruhani məna daşıyırdı; insan həyatının ən ali dəyəri, ən son dəyər məqsədi Allah idi. Əşya (nəsnə) nə qədər insanı maddiyyatdan uzaqlaşdırıb sakrallığa, ilahiliyə yaxınlaşdırırsa, bir o qədər dəyərli hesab olunurdu.

Avropa İntibahı "dəyər"ə subyektiv, dəyərləndirici xarakter qazandırdı, insan obrazı humanist dəyərlər sisteminin təməlini təşkil etdi. Ona görə də İntibah dövründə humanizm dəyərləri ön plana çıxır. İnsanın daxili dünyasının zənginliyi ləyaqət, həqiqət, gözəllik, xeyirxahlıq kimi dəyərlərlə yanaşı durdu.

XVIII əsr Avropa maarifçiliyində alman filosofu İ.Kantın böyük nüfuzu nəticəsində "dəyər" anlayışı (Wert "mütləq dəyər") ilk dəfə olaraq elmi dövriyyəyə daxil edildi. Dəyərlə bağlı məsələyə ilk dəfə toxunmuş, onu öz fəlsəfəsinin əsas maddəsi edərək sual şəklində qoymuş Sokrata görə, dəyər və faydalılıq bir medalın iki üzüdür.

"Dəyər sferası mədəniyyət sferası ilə sıx bağlıdır. Dəyərlər mədəniyyətin özüdür, onsuz mədəniyyət dağılar" [182, s.106].

Milli ədəbiyyat etnik-mədəni dəyərlər sisteminin bədii yaddaşıdır. Buna görə də XX əsrin 30-cu illərindən etibarən aksiologiya, aksioloji yanaşma ədəbiyyatşünaslığın probleminə çevrilir. Rus mütəfəkkiri M.M.Baxtin ədəbi yaradıcılığın tədqiqində aksioloji metodun tətbiqinə xüsusi diqqət yetirir, "dəyər kateqoriyasını" (məsələn, xronotopik dəyərləri) ədəbiyyatşünaslığın mühüm

kateqoriyası kimi öyrənir. Onun fikrincə, məhz dəyərlər düşüncənin (etnik, fərdi, milli...) mahiyyətini göstərir: *"Mütləq dəyər boşluğunda... şüurun özü də mümkünsüzdür"* [179, s.503]. Yüksək janrların təhlilində dəyər fəlsəfi kateqoriyasından istifadə edən böyük rus ədəbiyyatşünasın qənaətinə görə, eposda əsas dəyər – zaman kateqoriyasıdır", keçmiş mütləqləşir, dəyər – zaman yüksəklik dərəcəsi qazanır" [179, s.403].

Müasir rus ədəbiyyatşünası İ.A.Yesaulov da ədəbi əsərlərin tədqiqində aksioloji yanaşmanın vacibliyini qeyd edir, aksiologiya hər bir xalqın, sosial toplumun münasibətlərini tənzimləyən dünyagörüşü sistemi kimi öyrənilir.

M.S.Kaqan mədəniyyəti dəyərlər dünyası kimi təqdim edir və qeyd edir ki, "bədii yaradıcılığa bilavasitə "dəyərlər dili" kimi baxmaq lazımdır [181, s.187-188]. Bədii mədəniyyəti "dəyərlərin mövcudluq forması" kimi nəzərdən keçirən D.A.Leontyev isə bu fikirdədir ki, mədəniyyət realizə olunmuş, həyata keçmiş, ifadə olunmuş, əksini tapmış dəyərlərdir.

Tarix boyu azərbaycanlıların qazandığı və yaratdığı mənəvi mədəniyyət özündə milli dəyərlərlə yanaşı, ümumbəşəri dəyərləri də birləşdirir. Ona görə də o, ümumbəşəri mütərəqqi mədəniyyətin vacib hissəsidir. Buraya ənənəvi davranış və məişət stereotiplərini, yaşam dəyərlərini də əlavə etmək olar. Xalqın mənəvi dünyasının formalaşmasında mifik təsəvvürlər, inanclar və dini etiqadlar mühüm rol oynayır, etnik düşüncə tərzi islam düşüncə tərzi ilə zənginləşir.

Mənəvi dəyərlər deyərkən əxlaqi dəyərlər nəzərdə tutulur. Bugünlə gələcək arasında bağlayıcı funksiya kimi çıxış edən inanc da, insana pisliklərdən qorunmaqda kömək edən düzgünlük, təmizlik də dəyərdir. Vicdanı, etiqadı, inancı düzgün əməl üçün meyar hesab etmişlər. Fəzilət və mərifəti xarakterin formalaşmasına kömək edən dəyər kimi qəbul edən düşüncə həm də inanır ki, şərəf, namus, qeyrət qoruyucu mənəviyyat ünsürü kimi insan münasibətlərində çox mühüm amildir. İstedad da dəyərdir; yaradıcılığa təkan verən dəyər. Sevgi və məhəbbət həyatı daha mənalı edir. Ailə insanın nizamlı və dəyərlərdən ibarət olan həyatıdır. Dəyərlər insanları həm də özlərindən asılı vəziyyətdə saxlayır. Bəzi yanaşmalarda belə bir qənaət də səsləndirilir ki, ənənəvi milli-mənəvi dəyərlərlə sıx bağlı olan xalqlar bu bağlılıqdan

müəyyən mənada əziyyət çəkir. Dəyər hər bir insanın, fərdin və toplumun mahiyyətini ifadə edir. Mənəviyyat və əxlaq fəlsəfəsinin tərkibi kimi dərk edilən dəyər kriteriya və ölçüdür. Siyasi sistemlər də hüquqi, mənəvi dəyərləri qoruduğu üçün dəyərdir.

Əlbəttə, "dəyər" anlayışının fəlsəfi, sosioloji, etik-kulturoloji və s. aspektlərdə dəqiqləşdirilməsi araşdırmamızın vəzifəsinə daxil deyil.

XX əsrin sonunda siyasi müstəqilliyini bərpa etməyə nail olmuş Azərbaycanda müxtəlif məzmunlu islahatların aparılması fonunda cəmiyyətdə və ədəbiyyatda bir çox mənəvi-mədəni, ədəbi-bədii dəyərlərin transformasiyası, yaxud deformasiyası baş verdi ki, bu da "Azərbaycan" jurnalında dəyərlərin öyrənilməsini şərtləndirir. Mədəni-mənəvi dəyərlərin öyrənilməsi humanitar elmlərin tədqiq obyektlərindən birinə çevrilir. Çünki mənəvi dəyərlər yalnız fərdlər üçün deyil, bütövlükdə toplumun dünyagörüşü baxımından maraq doğurur.

Vaxtilə böyük maarifpərvər, milli ədəbiyyatşünaslığın banisi F.Köçərli Azərbaycan yazıçılarını xalqın mənəvi dəyərlərini əks etdirən əsərlər yaratmağa çağırır və bu yolda rus klassiklərini örnək göstərirdi.

Azərbaycanın XX əsrdə II dəfə siyasi müstəqilliyinin əldə olunmasında milli-mənəvi dəyərlərin böyük rolu şübhəsizdir. XIX əsr maarifçilərindən başlayaraq, yazıçılar, publisistlər, tarixçilər xalqın gələcəyi naminə Azərbaycanın tarixi keçmişinin araşdırılması, onun problemlərinin həll etmək (dövlətçiliyini bərpa etmək, ikiyə bölünmüş vətəni birləşdirmək və s.) yolunda fədakarlıqla çalışırlar.

Milli ədəbiyyat yalnız etno-mədəni hadisə kimi başa düşülməməlidir. Milli ədəbiyyatı ictimai-siyasi, ideoloji təmayüllər və qlobal təsirlər formalaşdırır. Dil amili də milli ədəbiyyatın zənginləşməsində mühüm rola malikdir. Azərbaycanın tarixi-coğrafi mövqeyi, müxtəlif dillərin, mədəniyyətlərin, müxtəlif dini, siyasi-ideoloji sistemlərin bir-birini əvəzləməsi və ya yanaşı mövcud olması tarixən ədəbi-fəlsəfi irsin keyfiyyətinə də təsirsiz ötüşməmişdir. Şifahi və yazılı ədəbi ənənələr milli mədəniyyəti, eləcə də milli kimliyi bariz şəklidə ifadə edən vasitələrdir.

Bədii təcrübədə tarix milli-mənəvi, mədəni-estetik səciyyənin təzahürü kimi çıxış edirsə, müasirliyə də tarixi dəyərlərin meyarı və əlaməti kimi yanaşır.

Ədəbiyyatın başlıca məziyyətlərindən biri də xalqın milli xarakterinin açılması, keçmişinin, milli simasının ifadəsdir. Ona görə də, “dəyər” anlayışının araşdırmaya cəlb olunması, “Azərbaycan” jurnalının fəaliyyətinin bu kontekstdə nəzərdən keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan yazıçı və publisistləri hələ sovet dövründə xalqın keçmişinə münasibətlərini ayrı-ayrı əsərlərdə ifadə etsələr də, sosrealizm çərçivəsində bunu istənilən şəkildə etmək mümkün olmurdu. Bu dövrdə Y.V.Çəmənzəminlinin “Qızlar bulağı”, “Qan içində”, M.S.Ordubadinin “Qılınc və qələm”, “Dumanlı Təbriz”, “Gizli Bakı”, A.Zöhrabbəyovun “Odlar yurdu” kimi romanları yazıldı və xalqın tarixi keçmişi kontekstində onun milli-mənəvi varlığı təsvir edildi.

Sovet dövrü tarixi romanlarının qəhrəmanı daha çox ədəbi-tarixi şəxsiyyətlərdən seçilir, milli dövlətçilik yönündə təsvirlərə qadağa qoyulurdu.

Ə.Cəfərzadənin “Vətənə qayıt”, “Yad et məni”, “Aləmdə səsim var” M.İsmayılovun “Xaqani”, Ə.Nicatın “Mirzə Şəfi Vazeh”, İ.Hüseynovun “Məhşər” romanlarının qəhrəmanları tarixi şəxsiyyətlərdir. Əsərlərdə xalqın milli-mənəvi dəyərləri, yaşadığı ağrı-acılar ustalıqla təsvir olunsa da, tarixi hadisələrə müasir elmi-bədii təfəkkür bucağından baxış yoxdur.

Lakin ədəbiyyatda sosrealizm prinsipləri zəiflədikcə, bu tendensiya da zəifləyir və 70-ci illərdən sonra tarixi keçmişə qayıdışda siyasi proseslərin təsvirinə geniş imkanlar yaranır. Fərman Kərimzadənin “Xudafərin körpüsü”, Əzizə Cəfərzadənin “Bakı-1501” və s. romanlarında ictimai-siyasi proseslərin təsvirinə də geniş yer ayrılır.

Tarixi mövzulara, tarixi və ədəbi-şəxsiyyətlərin bədii dövriyyəyə daxil edilməsinə artan maraq, bir tərəfdən, dövrün problemlərinin əks olunması üçün tarixə istinaddan bir priyom kimi istifadə məqsədindən qaynaqlanırsa, digər səbəb tarixin qaranlıq, yaxud təhrif olunmuş səhifələrində həqiqət axtarışları, onun bərpasına cəhd durur.

Müəyyən dövrdə siyasi ideologiyanın qadağan etdiyi mövzuların, eləcə də, tarixi şəxsiyyətlərin həyatı ilə bağlı mövzuların yenidən işlənilməsinə maraq roman janrı və dramaturgiya üçün müstəqillik illərində xüsusilə aktuallıq kəsb edir. Əlbəttə, tarixi

keçmişini gələcək nəsillərə çatdırmaq istəyi həm də xalqın varlığının, mənəvi dəyərlərinin yaşadılması niyyəti ilə üst-üstə düşür. Lakin ictimai-siyasi sistemin dəyişməsi ilə hər dəfə tarixə "yenidən baxılması" da düzgün yanaşma deyildir. Ədəbi düşüncə tarixi həqiqəti bədii həqiqətə çevirə biləndə tarixi və mənəvi yaddaş milli-mənəvi sərvətin qoruyucusu ola bilir.

1962-ci ildə "Azərbaycan" jurnalında (№6-8) İsmayıl Şıxlının "Dəli Kür" romanının I hissəsi çap olundu. "Dəli Kür" təkcə ədəbi mühitdə deyil, Azərbaycan oxucusunun rejimin xofundan, unutdurulmaq siyasətinin hesabına mürgüləyən yaddaşında şimşək kimi parladı. Romanda rus imperiyasının milli ucqarlarında ictimai-siyasi proseslərin və xalqın milli-mənəvi dəyərlərinin təsviri başlıca yer tutur. Kommunust ideologiyasının güclü olduğu dövrdə sinfi düşmən olan Cahandar ağaya rəğbət yazıçının müəllif mövqeyini əks etdirirdı. Oxucu vərdiş olunmuş mövqedən uzaqlaşma cəhdini heyrətlə izlədikcə, suallar qarşısında çaş-baş qalırdı; niyə Rus Əhməd yox (axı o, yeni düşüncəni təmsil edirdi?!), niyə Xəlil yox ("Qarlı aşırım" – Fərman Kərimzadə), Kərbəlayi İsmayıl, Cahandar Ağa? Bunun səbəbi təkcə yaratdıqları obrazlara müəllifin gizli rəğbəti ilə izah oluna bilməzdi. "*Adətən, böyük əkin sahələrinin kənarında qoruyucu zolaqlar salınır. Cahandar Ağa, Kərbəlayı İsmayıl, Abasqulu bəy, Ömər Koxa... kəndin, elin-obanın, adət-ənənələrin əmin-amanlığına xələl gətirə biləcək yad əsintiyə, bəd niyyətə qarşı salınan qoruyucu zolaqlardı və heyif ki, bütün bunları dərk etmək çox böyük itkilərdən sonra mümkün oldu. İ.Şıxlının bir azərbaycanlı yazıçı kimi genetik yaddaşında daşıdığı zərbə oxucuya çox şey verdi"* [4, s.91].

Cahandar ağanın uğrunda həlak olduğu dəyər məhz milli dəyərdir. Cahandar ağa xalqın yüzillərlə formalaşmış yazılmamış qanunlarının, dəyərlərinin daşıyıcısı kimi çıxış edir.

*"Dəli Kür" monumental, çoxşaxəli əsərdir: mənəvi dəyərlər, qadın-kişi münasibətləri, ata-oğul, yeniliklə köhnəliyin, cəhalətlə mütərəqqi ideyaların konflikti, Çar Rusiyasının işğalçı siyasətinin, dövrün ictimai-siyasi mürəkkəbliyinin təsviri və bunun Cahandar ağanın taleyinə təsiri..."* [22, s.10-11] fonunda oxucu Cahandar

ağanı ideoloji təbliğatın təqdim etdiyi düşmən yox, bütün ziddiyyətli və anlaşılmaz davranışları ilə, xalqın bir parçası, onun dəyərlərinin daşıyıcı kimi qəbul etdi.

İsmayıl Şıxlının bütün əsərlərində həyata, yaddaşa, kökə çağırışın səssiz-sözsüz təlqin gücü var. Yazıçının bütün yaradıcılığının mahiyyəti və gözəlliyi elə budur. Cahandar Ağanın çeşidli sərtliyində kobudluq yoxdur, Şahnigarın yalqızlığın usandırıcı yorğunluğundan keçirdiyi tərəddüdlərin acı sonluğuna nə qədər heyfslənsən də, bacı qatili Cahandar Ağanı qınamırsan. Çünki İsmayıl Şıxlıya inanırsan. Onu hər oxuyanda adama elə gəlir ki, "elə bil dünyada heç nə olmamışdı". Baxmayaraq ki, bu yazıçının əsərlərindəki zaman məhz dünəndi, olmuşlardı, bu olmuşlar haqqında düşüncələrin qüssəli ahəngində varislik duyğularını oyaq saxlayır.

Xalq yazıçısı Sabir Əhmədlinin yaradıcılığı üçün səciyyəvi olan sosial – mənəvi-əxlaqi problemlərin qaldırılması onun sovet dövrü yaradıcılığında olduğu kimi, müstəqillik dövrü yaradıcılığında da aktual olmuşdur. "Axirət sevdası", "Kef", "Ömür urası" romanlarında yazıçı zamanın, müharibələrin insan talelərində qoyduğu izlər, Qarabağ müharibəsi, Vətən, torpaq uğrunda savaşa könüllü gedərək şəhid olmuş oğlundan bəhs edir. Yazıçının "Ömür urası" romanı müharibə və insan probleminə baxış kimi maraq doğurur.*"Kişi öz həyatinə yaxınlaşmaqda özünə bununla təsəlli verirdi: erməni işğalçılarının törətdiyi bütün cinayətlər Nürnberqsayağı bir məhkəmədə açılmalıdır... Yalnız qırdığı dinc əhali, körpələrin intiqamı yox, qətlə yetirilmiş ağacların da cəzası verilməliydi. Bağ-bağçalara amansızcasına divan tutmuş qəsbkarlardan məhv etdikləri bitkilərin də qisası alınmalıdı..."* [61, s.39].

Cəmiyyətin hansı siyasi qanunlarla və ideologiya ilə idarə olunmasından asılı olmayaraq, insan – cəmiyyət – zaman problemi aktuallığını itirmir və sənətə, ədəbiyyata, mədəniyyətə öz diqtəsini edir. Azərbaycanın tarixində bu problemi "təzə" saxlayan kifayət qədər nümunə var. Çağdaş ədəbiyyatda Anar, Elçin, M.Süleymanlı, M.Oruc, İ.Fəhmi və başqalarının yaradıcılığında yaddaşa qayıdış kontekstində milli-mənəvi dəyərlərin bədii ifadəsinə geniş yer verilir. Anarın "Göz muncuğu", Elçinin "Baş", "M.Süleymanlının "Erməni adındakı hərflər", M.Orucun "Qısa qapanma",

"Qara güzgü", İ.Fəhminin "Qarğa yuvası" və s. romanlarında xalqın milli düşüncəsi və dəyərləri təsvir edilir.

60-cı illər ədəbi nəslinin digər bir görkəmli nümayəndəsi Elçinin bədii nəsri, xüsusən onun trilogiya kimi təqdim edilən üç əsəri – "Mahmud və Məryəm", "Ağ dəvə" və "Ölüm hökmü" romanları ümumən Azərbaycan nəsrinin yeniliyinin estetik kateqoriya anlamında təhlilinə imkan verir. Bu romanlarda yazıçı tarixi fakt çərçivələrini məharətlə qıraraq, nəsrdə dərk olunan tarixin milli tarix və milli tale olması ilə bağlı fikirlərə 80-ci illərin ədəbi gedişatında əsaslı təsdiq, yeni çalar gətirmişdir. *"Mahmud və Məryəm" romanında müəllif özünün insan – şəxsiyyət konsepsiyasını ifadə etmişdirsə,"Ağ dəvə" və "Ölüm hökmü" romanlarında XX əsr Azərbaycan gerçəkliyinin fəlsəfi-psixoloji aspektdən əks olunması Azərbaycan roman sənətində çox nadir rast gəlinən hadisələrindəndir"* [139, s.147] .

"Ağ dəvə" (polifonik romanı zamanın, müharibələrin, ölümün heç bir halda yox etməyə gücü çatmadığı əsl insan məhəbbəti haqqında "nəğmə" ilə başlayır və bu nəğmənin qəmli ahəngi ağ işıq saçır, insanda insanı öldürmək qəbahəti ilə insanda insanı görmək fəzilətinin əbədi qarşıdurmasında həyat təcrübəsinin məntiqi qənaəti kimi yekunlaşır: "*Sən mənim həyatım idin... İki ildən artıq idi ki, mən qəbiristanlıqdan qayıdanda yalnız bu sözlər yazılmış adsız, şəkilsiz qəbir daşının yanından ötürdüm... illərin küləyinin, qarının, yağışının, istisinin altında qaralıb-bozarıb köhnəlmiş, çopur-çopur olmuş bu qəbir daşı hər dəfə dərin bir kədərdən xəbər verirdi, vəfasızlıqdan, gəldi-gedərlikdən deyirdi, nə vaxtsa, kiminsə xoşbəxtliyindən və xoşbəxtliyin əbədi bir keçmişdə qalmağından, o keçmişin səsçatmazlığından, ünyetməzliyindən söyləyirdi"* [54, s.84].

Elçinin "Baş" romanında XIX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında baş verən hadisələr təsvir edilir. Yazıçı sosrealizm dövründə toxunulası mümkün olmayan hadisələri retrospektiv bucaqdan göstərir, Azərbaycanın işğal olunmasının real mənzərəsi yaradılır. Tənqidçi E.Akimovanın yazdığı kimi: *"...janrın yeni struktur texnologiyalarından yararlanmaqla, müəllif retrospeksiyanı əsərin strukturuna birbaşa zaman ünsürü kimi daxil edir. Zaman paralelləri, çoxqatlı məkan ölçüləri, biri digərini əvəzləyən surətlər polifoniyası hər biri qəhrəmanın kəsilmiş*

*başının nəzərlərində, oyanan yaddaşında, şəffaf və çəkisiz varlığında, sönməyən beyninin daxili bioloji ritmlərində baş tutur”* [22, s.7].

70-ci illərdə ədəbiyyata gəlmiş nəslin yaradıcılığı üçün səciyyəvi cəhətlər sırasında nəzərəçarpan cəhətlərdən biri Avropa və Qərb ədəbiyyatlarının təsiri altında yerli zəmindən uzaqlaşmaq cəhdləri idisə, müşahidə olunan başqa bir məqam, bədii həqiqəti mənəvi-əxlaqi dəyərlər prizmasından təqdim etmək səylərinin güclənməsi idi. Bu nəslin istedadlı nümayəndələrindən biri olan yazıçı Məmməd Orucun nəsri milli dəyərlərə söykənir, xüsusən indiki “Ermənistan” ərazisində tarixən yaşamış azərbaycanlıların həyatını, onun düşüncəsini, sosial-mədəni problemləri və faciələrini əks etdirir. Yazıçının “Köçürülmə” romanında azərbaycanlıların sovet dövründə dədə-baba torpaqlarından, indiki Ermənistan ərazisindən qeyri-insani şəkildə deportasiyası təsvir edilir. Azərbaycanlıların əzəli-əbədi torpaqlarında ermənilərin törətdikləri qanlı cinayətlər, xalqın çəkdiyi əzablar, deportasiya siyasətinin gətirdiyi faciələr, həmin ərazilərdə minillik milli-mədəni irsin məhv edilməsi verilir. “Oyun havası” – Sovet dönəmində, mühitin meyvəsi olan bir ZALIMIN həyatı haqqındadır. Amma bu ZALIM karikatura deyil, həm də xeyirxah əməllərdən xali olmayan bi insandır. Onu doğma kəndin qəbiristanlığında dəfn etməyə qoymurlar, meyidinə isə son anda keçmiş arvadı yiyə durur. Hətta onun vay xəbərini alandan sonra, ən yaxın qonşuda – barının o üzündə toy çaldırırlar. “Malakan kəndinin payızı” [136, s.26-52] Gədəbəydə bir malakan kəndinin tarixi təkamülü, qanunauyğun tənəzzülü fonunda, bu kəndə müxtəlif tellərlə bağlanmış azərbaycanlılar, daha doğrusu, bu kənddə rus dilində təhsil almış uşaqlardan birinin Şuşa ilə bağlı həyatı və ona həm də analıq etmiş, onu izləmiş rus dili müəllimini Rusiyada axtarması və s. etibar, inam, sədaqət kimi simvolların əbədiliyi haqqındadır. “Veteran”, “Susuz gölün sonası”, “Çəkiliş”, “Testeron”, “Atəşkəs yallısı”, “Şeytan tükü” və s. əsərlərində müstəqillik dövrü insanının müharibə, qaçqın və köçkünlərin çadır həyatı və günün ictimai mənzərəsinin acı reallıqlarından bəhs edilir.

Müxtəlif illərdə yazılmış romanları (“Qara güzgü”, “Köçürülmə”, “Qısa qapanma”) “Üç roman” kitabında, toplanmışdır və ayrı-ayrı zaman kəsiklərində azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyası ilə bağlıdır. “Köçürülmə”

haqqında görkəmli ədəbiyyatşünas Vilayət Quliyev Azərbaycan yazıçılarının onuncu qurultayındakı (1997-ci il 30 oktyabr) məruzəsində belə deyib: "...*"Köçürülmə" əsəri birbaşa və dolayısı yolla yetmiş illik sovet rejimi şəraitində xalqımıza, onun tarixinə, dilinə, dininə, mənviyyatına, bir sözlə, adi mövcudluq haqqına qarşı törədilən dəhşətli cinayətlərə həsr edilmişdir. M.Oruc "Köçürülmə" romanında bizim yalnız tarixi fakt kimi qavradığımız bu hadisənin arxasındakı insan faciələrini, hiss, duyğu və ehtirasları görə və göstərə bilmişdir"*.

Tənqidçi Vaqif Yusiflinin bu müşahidəsi dəqiqdir ki, yazıçının istənilən bir əsərinə "Köçürülmə"dən nəsə köçürülüb, yaxud istənilən bir əsərindən nəsə "Köçürülmə"yə köçürülüb.

Yazıçı bir ailənin, bir elin, bir xalqın faciələri kontekstində böyük bir epoxanın ziddiyyətlərini, mənəvi, ideoloji aşınmalarını, insanın, zamanın və cəmiyyətin faciəsini qələmə almışdır. Amma bir yazıçının günahı deyil ki, bu roman, faciəni bu təkrar və daha dərin yaşayan bir xalqın əlində ideoloji silaha çevrilmədi, romandakı əyilməz ruhu, məğlubiyyətlə barışmazlıq hissini – sələflərimizin əmanətini hifz edib, canımıza-qanımıza hopdurmadıq: *"Bura bax, qardaşoğlu, bəlkə sən də elə bilirsən ki, biz də bu yerlərdən həmişəlik gedirik? Belə şeyi ağlına da gətirmə". Abbasqulu bəyin sözlərini XX əsrin sonlarında Vedinin, Zəngilanın... daşına-divarına, dağına-qayasına yazmadıq: "Camaat, biz düşmənin qabağından qaçmırıq, biz müvəqqəti olaraq geri çəkilirik, biz qayıdacağıq"* [135].

Aydın məsələdir: ədəbiyyatın münaqişələri yatırmaq, savaşlara son qoymaq gücü yoxdur, ədəbiyyat bu işə kömək edən dəyərləri təbliğ etməklə, nəsillərarası rabitəni qoruyur. "*Hər bir nəslin psixologiyası sələflərin psixologiyası əsasında formalaşır. Bu rabitəni qorumaq nəsillərin psixoloji portretinin tamamlanması üçün vacibdir. Ədəbiyyat həm də bu portretin, başqa sözlə desək, milli mədəniyyətlərin taleyini virtual məkanın ümidinə qoymaq kimi yolverilməz səhvdən qoruyucudur. Tarixən məhv olmuş mədəniyyətlərin, süqut etmiş dövlətlərin aqibəti bunun bariz nümunəsi ola bilər*" [3, s.24-29]. Yazıçının "Qara güzgü" romanını 1992-ci ildə qələmə aldığı "Köçürülmə"nin əvvəli kimi yazması bu niyyətə və tarixi yaddaşın bərpasına xidmət edir. Ədəbi mühitdə bu əsər böyük maraq doğurdu və dərhal

"Vedibasar dastanı" kimi qiymətləndirildi: *"Qara güzgü" romanı bir Vedibasar dastanıdır ki, artıq yüz ilə qədərdi vedibasarlıların ürəyində, beynində çoxlu epizodları, süjetləri, motivləri (və unudulmaz qəhrəmanları) ilə dolaşırdı. Onu ən gözəl bir şəkildə Vedibasarın görkəmli yazıçısı Məmməd Oruc qələmə aldı... Ancaq vedibasarlıların bu dünyaya daha böyük (və möhtəşəm) bir dastan borcları var – Vətənə dönənlərin dastanı*" [48, s.14].

Müəllifin "Köçürülmə" romanının əvvəli kimi düşündüyü "Qara güzgü" əsərində Vedibasarda xalqın başına ruslar tərəfindən gətirilən oyunlar milli-mənəvi dəyərlər kontekstində verilir. Yazıçı daşnakların azərbaycanlıları öz tarixi torpaqlarından didərgin salmasını real, həyati cizgilərlə verir. Yüz illər boyu yaşadıqları bu torpaqlardan qopması xalqın mənəvi dəyərlərinə böyük bir zərbə vurur: *"Abbasqulu bəy xəbər göndərdi ki, daha başqa yolumuz yoxdur, günü sabah Vedidən çıxmalıyıq, daşnaklar dağlara ingilis topu çıxarıblar. ...iki il mühasirədə qalan, iki il səngərdə gecələyən Vedi camaatını ingilis topu qorxutmadı, amma Abbasqulu bəy elə bir el ağsaqqalı idi ki, onun verdiyi qərar müzakirə olunmurdu. Onun sözü bütün vedibasarlılara qanun idi"* [135, s.23].

M.Oruc xalqın ruhunun, əsrlərlə qoruyub yaşatdığı milli-mənəvi özəlliyin təsvirini verir və qəribədir, XX əsrin əvvəllərinin Vedisində qız-gəlinin namus anlayışına münasibətini XX əsrin sonunda Murovu aşan ana-bacılarımız, erməni əlində əsir olmaqdansa, dağ çayının axarında qərq olmaq nəsibini seçməklə təkrarlayırdılar. *"O günlər Vedidə elə bir qız-gəlin tapılmazdı ki, qoftasının yaxasından bir dişdəm zəhər asmasın. Kənd düşmən əlinə keçsə, qız-gəlinin xilas yolu bu bir dişdəm zəhər ola bilərdi"* [135, s.24].

Müstəsna dərəcədə qəhrəmanlıqdır, di gəl, Məmməd Orucun qələmində pafosdan uzaq bir ştrixdir. Əslinə qalsa, təbii yanaşmadır, çünki xalqın qanından, əxlaqından gəlir, məişətinin, mənəviyyatının yazılmamış qanunlarını dildə-sözdə vəsf etməyi bu xalqın kişisi özünə sığışdırmaz, eləcə, həyat norması kimi qəbul və təqdim edər. Yazıçı da bu müstəsna addımı məhz bu cür təqdim edir. Təqdir olunası baxışların, məişət əxlaqının nadancasına özünəvurğunluğu ilə lokallaşdırılması onun yazıçı təfəkkürünə və qələminə yaddır.

Yazıçı-dramaturq Maksud İbrahimbəyovun nəsrinin süjet yaradıcılığı şəhər insanının milli-mənəvi dəyərləri üzərində qurulur. Onun qəhrəmanlarının xarakterində mənəviyyat məsələləri başlıca yer tutur. M.İbrahimbəyovun bədii düşüncəsində insan azadlığı anlayışı yalnız düşüncə azadlığı ilə məhdudlaşmır, bura hüquq azadlığı anlayışı da daxildir. Yazıçının bədii publisistikasında, müsahibələrində yalançı vətənpərvərlik tonu, "bu məqamda məhz heysiyyətinə toxunulmuş çoxluğun xoşuna gəlmək lazımdır, sonrası düzələr" – düşüncəsi yoxdur, onu düzgün başa düşməzlər nigaranlığı deyil, hər necə ağır və acı olsa da, həqiqət həmişə və hər yerdə öndə olmalıdır – prinsipi var. 1989-cu ilin oktyabrında yazıçının populyar "Drujba narodov" jurnalında dərc olunmuş "Sabah gec olacaq" məqaləsi – birmənalı qarşılanmayan bu xəbərdaredici müraciət Azərbaycan ziyalısının ictimai-siyasi mövqeyini bəyan edirdi. Tarixin gərgin məqamlarında eşidilməmək publisistikanın məğlubiyyəti, zəifliyi, kəsərsizliyi haqqında tələsik nəticələrə gətirsə də, "ağıllı adam bəlanı, müdrik adamsa, bəlanı törədən səbəbləri aradan qaldırandır" məsəli yada düşür.

Həmin illərdə sosial-tarixi şəraitin gərginliyi içində fərqinə varmaq ağıla gəlməsə də, üstündən illər keçəndən sonra yazıçının həmin xəbərdarlığının-çağırışının məğzindəki humanizmi qiymətləndirə bilsəydilər, bəlkə də, bu gün Qafqaz etnik münaqişələr ocağına çevrilməzdi. İncəsənətin, mədəniyyətin təsir və təlqin gücünün özünü doğrultması üçün onun mənimsənilməsi səviyyəsi, ən azı, bu mədəniyyətin səviyyəsində olmalıdır. Hər cür ziddiyyətin, anlaşılmazlığın, ümidsizliyin qarşısına tək çıxmağın hansı nəticələrə gətirəcəyini duyan, bilən, dərk edən sağlam yazıçı düşüncəsi bəşəri humanizm ideallarından çıxış edir. Əksər həmkarlarının başı imkan və əlaqələrin köməyi ilə zəngin irslərini tərtib və təbliğə bərk qarışdığı vaxtda (halbuki özünütəbliğ heç vaxt fəal vətəndaş mövqeyi sayılmayıb), o, Azərbaycanı təhdid və göstəriş vərdişlərindən heç cür əl çəkə bilməyənlərə vəzifələrini və yerini "diplomatiyanın mülayim tonu çərçivəsində" xatırladan azərbaycanlı kişinin və ziyalının mövqeyini bəyan edir, yaxud ətrafda baş verən hadisələrə, cəmiyyəti müşayiət edən vəziyyətə münasibətini bildirir. Həm də bu zaman – qiymət verərkən, təhlil edərkən, xəbərdarlıq bildirərkən – vaxtın və

vəziyyətin orbitinə qapanıb qalmadı. Zamanın və hadisələrin fövqündə dayanıb söz dedi və bütün hallarda, həmişə olduğu kimi, özünə hörmət, ləyaqət və ədalət hissini unutmayaraq, şəxsiyyətin və bir də ağsaqqal sözünə biganəliyin "çəyirtkə mövsümü"nü də yaşamalı olmuş Vətəninin heysiyyətini əsilzadə nəcabətlə yüksək tutmağın nə olduğunu nümayiş etdirdi: *"Mən fəxr edirəm ki, ölkəmin vətəndaşları hətta müharibə dövründə də amansızlaşmadılar və insana layiq işlər görməyi unutmadılar".*

Bu xətt oxucuya yazıçının "Ondan yaxşı qardaş yox idi" povestindən tanışdır. Povestin qəhrəmanı Cəlil bir dam altında özgələşmənin ağrısını çəkə-çəkə əriyirdi. Bu "özgə hava" C.Məmmədquluzadənin "Anamın kitabı" əsərində Gülsabahın yalvarış – ittihamındakı özünüdərkə səslənməni yada salır.

Onun qəhrəmanlarının xarakterini mənəvi-etik seçim məsələləri maraqlandırır.

Yazıçının "Dənizdə qasırğa" tarixi – sərgüzəştli romanı tarixi şəxsiyyətlər, yazıçı təxəyyülünün məhsulu olan obrazlar, yaxın tarixin konkret hadisələri fonunda müharibə, azadlıq, mühacirət insanının düşüncələri və forma orijinallığı ilə nəsrimizin uğurlu nümunələri sırasındadır. Xasay bəy Rəsulbəyli cümhuriyyət qurucularının mühacirətdə yaşamalı olmuş nümayəndələrinin ümumiləşdirilmiş obrazı kimi verilib. Məlum tarixi hadisələrdə Stalinlə görüşü baş tutmuş M.Ə.Rəsulzadənin prototipi kimi görür: *"Xasay bəy gəlişi üçün hazırlanmış süfrəyə dəvətdən imtina edib ağır-ağır kresloya çökür, ...otel nömrəsində hökm sürən bayram ovqatı ilə kəskin təzad təşkil edən ölgün səslə sözə başlayır: – İki saat əvvəl eşitdiyim sözlər uzun illər qürbətdə mənim qəlbimə təpər verən bütün ümidləri məhv etdi... Mən Qafqazda yaşayan bütün türkdilli xalqları müstəqil Azərbaycanın himayəsi altında birləşdirməyi, onun ərazisini əvvəlki qanuni sərhədlərimizədək genişləndirməyi arzu etmişəm..."* [95, s.82].

Maksud İbrahimbəyovun bütün yaradıcılığı mənəvi yadlaşmanın ağrısını unutmamaq, fəsadlarını xatırlatmaq xəbərdarlığıdır. "Şəxsiyyətin tarix qarşısında məsuliyyəti" anlayışının sərhədləri və məğzi budur; insanları bir-birindən uzaqlaşdıran, ayıran, tənhalığa yuvarlayan səbəbləri axtarmaq, göstərmək və xilas imkanları axtarışına ipucu vermək. *" ...Vədlərə aldanıb, belə qənaətə gəlmişdim ki,*

*bu ittifaq mənim xalqıma müstəqillik və bütün dünya məmləkətləri ilə bərabər hüquqlar bəxş edəcək, heç bir zəmanət – filan tələb etmədən, quru sözlərə inanırdım. Bu gün isə sizə deyirəm: Mən səhv etmişəm! Qəzəbdən, ümidsizlikdən ürəyim partlayır; biz o qədər uzağa getmişik ki..."* [95, s.83].

Yazıçıya sanki tarixi-mənəvi taleyin milli bədii düşüncədə əks etdirilməsi məsuliyyətinin yazdırdığı bu əsər üçün seçdiyi epik-analitik üsluba sonrakı illərdə də müraciət olunmuşdur. S.Əhmədlinin "20 Yanvar hekayələri", F.Qocanın "Qarlı – qanlı qərənfillər", İ.Muğannanın "Qırx kisə qızıl" povesti epik-analitik üslubda yazılmış əsərlər kimi səciyyələndirilir. Yaxın tariximizin qanlı səhifələrini əks etdirən povesti, yazıçının əsrdaşı insana epistolyar janrın uğurlu nümunəsi olan "Norveç səfirinin bəyanatı ilə bağlı bir neçə qeyd" sərlövhəli məktubunu xatırlatmaq yerinə düşərdi; faktlarla işləmək səriştəsi və bizim günlərimiz üçün heç də xarakterik olmayan kübar ifadə tərzi (bu sarıdan kasadlığımız yalnız təəssüf doğurur) ilə sarkazmın (məzh belə!) etiraza yer qoymayan səriştəli uyarlığı həm də yüksək peşəkarlıq mədəniyyətindən xəbər verir. 2003-cü ilin 16 oktyabr hadisələri ilə bağlı Norveçin ölkəmizdəki səfiri Steynar Gilin rusdilli mətbuatda dərc olunmuş mülahizələrinə cavab olaraq yazdığı açıq məktub, əslində, bir səfirə deyil, Azərbaycanın daxili işlərinə müdaxiləni və diqtəni özlərinə rəva bilən beynəlxalq təsisatlara, diplomatik qurumlara müstəqil bir ölkənin vətəndaşının heysiyyətini və qanunlara hörmət hissini qoruyan ziyalının – yazıçının ismarıcıdır: *"Sizə deməliyəm ki, son illər Azərbaycanda bədxah bir ənənə yaranıb: başqa ölkələrdən təşrif gətirən bəzi rəsmi şəxslər – bizim müşahidələrimizə görə, bu dərəcədə yüksək missiyanı yerinə yetirmək üçün mənəvi-əxlaqi keyfiyyətlərdən xali olan kəslər radikal müxalifətlə münasibətləri necə qurmalı olduğumuzu təkidlə, sanksiyalarla hədələyərək bizə öyrətməyə girişirlər"* [96, s.146]. Zamanın bu həqiqəti təsdiq etməsini gözləmək çox uzun çəkmədi; Avropanın "oyanması" baş verdi və bu məqam bir də bu fikri yada salır ki, bədii sözün missiyası, əhəmiyyəti yazıldığı zamandan daha çox, tarixin yaddaş dərsləri ərazisindədir.

Onun yazıçı və vətəndaş nigaranlığı yalnız Azərbaycanla bağlı deyil: *"Ehkam həqiqətlərin özündən müştəbeh, standart beyinli təbliğçiləri, müsahibini adam balası*

*kimi dinləməyi bacarmayan və heç dinləmək də istəməyən kəslər başa düşmürlər ki, Qafqazda ədalətli sülh bərpa edilməyincə, Avropada da davamlı sülh ola bilməz...”* [96, s.147].

Yazıçının müsahibələri (“Pəncərələri Avropa prospektinə açılan ev”, “Mühüm mövzu ətrafında bəzi düşüncələr”, “Komplimentlər demək zamanı deyil”) Azərbaycan – beynəlxalq institutlar münasibətlərinin təhlilində siyasətlə bağlı düşüncələri, dünyanın siyasi-iqtisadi-maliyyə mənzərəsində ölkəsinin yeri və mövqeyi ilə bağlı mülahizələri, bu mülahizələrdə güclü məntiq və reallığı heç bir halda unutmamaq, uzaqgörənlik, dərin zəka məziyyətləri ilə limhəlim doludur. Bu müsahibələri üçün xarakterik olan publisist amansızlıq “vəzifə və status”, “özgə-özününkü” bölgüsü tanımır və etiraf edək ki, Azərbaycanın ən yaxın tarixində qazandıqlarımızla yanaşı, itirdiklərimiz də az deyil. Bu, yalnız itirilmiş torpaqlar, dağıdılmış infrastruktur, qırılmış xarici əlaqələr deyildi. Bu həm də insanların içərisində öldürülən inam idi; əqidəni vasitə yox, məqsəd, ideal bilən insanların qəlbini alt-üst edən, mübarizə ruhuna və inamına vurulan zərbə idi.

Onun yaradıcılığı ümumən dünyaya ünvanlanan sualıdır, həyat, insan, yaradılış haqqında, insan münasibətlərinin çeşidləri, ömrün mənası ilə bağlı düşüncələrdir.

Müstəqillik dövrünün ilk illərində “Azərbaycan” jurnalının ən fəal müəllifləri sırasında Xalq yazıçısı Əzizə Cəfərzadənin adı çəkilir. Hər şeydən əvvəl, o, jurnalın çətin məddi-mənəvi sıxıntılar yaşamalı olduğu 90-cı illərin əvvəllərində qonorardan imtina edərək, irihəcmli əsərlərini bir-birinin ardınca jurnala təqdim edir. Avtobioqrafik səciyyəli “Xəzərin göz yaşları” romanında yaxın tariximizin məlum 37-ci il faciələrindən heç də geri qalmayan 38-ci il hadisələri qələmə alınmışdır. “*Bölünən millətlər var dünyada. Almaniya bölünmüşdü, aşdı o divardan. Koreya bölünmüşdü, çırpınır, atmaq istəyir çiynindən, belələri var. Biz onların içində ikiqat talesiz millətik. Bir var bölünmüşdük – Araz yarmışdı sinəmizi, Arazdan keçmişdik, xəncər yarasından... Və bu faciəni dünyaya çatdıran da yoxdu. Və bu faciəyə – 38-ci il faciəsinə abidə qoyan da yoxdu, 37-dən çox yazılıb, 38-dən yox”* [50].

Müstəqillik dövründə nəsrin müraciət etdiyi mövzular arasında milli azadlıq və milli kimlik probleminin qabardılması ilə yanaşı, İ.Muğanna, S.Əhmədli,

Ə.Cəfərzadə, İ.Şıxlı, Elçin, M.Süleymanlı, M.Oruc, E.Mehrəliyev və b. yazıçıların roman və povestlərində tarixi həqiqətlərə, repressiya ağrılarına fokuslanır. Məhz bu dövrdə tarixi roman yazıçıların sevimli janrına çevrilir. Ə.Cəfərzadənin, M.Çəmənlinin, İ.Fəhmi və başqalarının nəsrində tarixi şəxsiyyətlərin həyatına ideoloji yarlıqlardan kənar qiymət verilir.

M.Süleymanlının "Erməni adındakı hərflər [155], M.Orucun "Qısa qapanma", "Qara güzgü" romanlarında xalqın milli düşüncəsi və dəyərləri təsvir edilir.

Xalq yazıçısı Elçinin "Baş" romanında tarixi yaddaşa müraciət edilir və XIX əsrin əvvəllərində Çar Rusiyasının Qafqazı işğalı zamanı Azərbaycanın ictimai-siyasi həyatında baş vermiş hadisələr təsvir edilir. Yazıçı sosrealizm dövründə toxunulması mümkün olmayan hadisələri retrospeksiya vasitəsilə göstərir, Azərbaycanın işğal olunmasının real mənzərəsi yaradılır. *"...janrın yeni struktur texnologiyalarından yararlanmaqla, müəllif retrospeksiyanı əsərin strukturuna birbaşa zaman ünsürü kimi daxil edir. Zaman paralelləri, çoxqatlı məkan ölçüləri, biri digərini əvəzləyən surətlər polifoniyası hər biri qəhrəmanın kəsilmiş başının nəzərlərində, oyanan yaddaşında, şəffaf və çəkisiz varlığında, sönməyən beyninin daxili bioloji ritmlərində baş tutur".*

A.Abbasın "Dolu" [25] romanını Qarabağ müharibəsini ilk dəfə xalq müharibəsi kimi qələmə alınan, milli varlıq barəsində, milli varlığımıza ayna tutan, bir roman kimi səciyyələndirən AMEA-nın müxbir üzvü, tənqidçi T.Əlişanoğlu yazır: *"Millət məzmununun yuxarıdan – üstdən başlayıb, cəmiyyətin bütün səviyyələrində sarsıldığı, az qala yoxa çıxdığı bir zamanda Müharibə... Millət şüurunun altqatında, altşüurda olan, daha dərin genetik kodları oyadır, hər cür yalançı ictimai təsisatlardan xali torpaq – yurd duyğularını, milli mənəviyyat-qeyrət hisslərini hərəkətə gətirir"* [66, s.398].

Bu sırada memuar ədəbiyyatı da tarixi həqiqətə nüfuzetmənin bir vasitəsi kimi dəyərləndirilə bilər. Q.Sadıqzadənin "Son mənzili Xəzər oldu", B.Azəroğlunun "Ömürdən ötən illər", Ə.Cəfərzadənin "Xəzərin göz yaşları", Anarın "Kərəm kimi", Ə.Ağaoğlunun "67 il sonra" və b. yazıçıların bədii-sənədli nəsrində obrazlaşan tarixi və ədəbi şəxsiyyətlər, eləcə də ictimai-siyasi reallıqlar "*ötən epoxanın, XX əsrin ikinci*

*yarısının soyumamış nəfəsini olduğu kimi çatdırmaq əzmi ilə*" (T.Əlişanoğlu) əlaqələndirilir. Ə.Əmirlinin "Ağdamda nəyim qaldı?" avtobioqrafik romanı, sosial mündəricə, uşaqlığın təsviri üstünlük təşkil etməklə yanaşı, *"50-60 il öncənin Ağdamının, Qarabağın, bütövlükdə Azərbaycanın, insanlarımızın yaşantılarını canlı, dolğun əks etdirən"* [119, s.24] əsər kimi qiymətləndirilir.

Müstəqillik dövrünün həqiqətlərini sərt realistik boyalarla təqdim edən əsərlərdən biri də Aslan Quliyevin "Keçmiş döyüşçü və oğlan" povestidir. Azərbaycan ordusuna, onun döyüşçülərinə qarşı ədalətsiz münasibəti sərt bədii formada rədd edən əsər haqqında tənqidçi Rəhim Əliyev yazır*: "Odun-alovun içində vətənin şərəfini qorumuş insanlara qarşı qəddar münasibət cəmiyyətdə dərin əxlaqi deqradasiyadan xəbər verir. Aslanın qəhrəmanı sonranı düşünmədən məmurlara və səlahiyyətli mafiyaya qarşı ölüm-dirim mübarizəsinə girir. Onun əsas məqsədi adidir: istəyir ki, məmurlar vətən yolunda qan tökmüş döyüşçülərlə hesablaşsınlar. Yazıçı sayır ki, həqiqi döyüşçülər həm də milli genefondun sağlamlığının əsas daşıyıcısıdır"* [73, s.83].

"Azərbaycan" jurnalında dərc olunmuş nümunələr belə deməyə əsas verir ki, mövzu-məzmun etibarilə rəngarənglik Azərbaycan cəmiyyətini, eləcə də çağdaş dünyanı narahat edən bir çox məsələlər nəsrin mövzu obyektinə çevrilmişdir. Xüsusilə Qarabağ müharibəsinin, didərginlik, köçkünlüyün gətirdiyi çox ciddi – sosial-siyasi, mənəvi-əxlaqi problemlər müxtəlif ədəbi nəsillərə mənsub yazıçıların bədii və bədii-publisistik yaradıcılığında əks olunmuşdur.

Müstəqillik dövrünün dramaturgiyaya gətirdiyi mövzular həyatın, ictimai münasibətlər dəyişikliyinin diqtə etdiyi mövzulardır. Bu mövzularda dünənin sosializm düşüncəsi ilə kapitalizmin gətirdiyi yanaşmalar qarşılaşdırılır. Xaos, mənəvi aşınmalar, təzadlı dünyanın çətinlikləri qarşısında vahiməyə düşən insanın düşüncələri 90-cı illərdə Elçinin, demək olar, bütün pyeslərində, Ə.Əmirlinin, F.Mustafanın, ikimininci illərdə A.Məsudun, İ.Fəhminin, K.Talıbzadənin dram əsərlərində komik və tragik situasiyalarda təqdim olunur. Bu əsərlərdə Azərbaycan cəmiyyətinin son 30 ilinin mənzərəsi sürətli dəyişkənlik fonunda yeni dəyərlərlə uyğunlaşa bilməyən insanın çətinlikləri ilə yanaşı, tarixin təhrif olunmuş səhifələri,

tarixi və ədəbi şəxsiyyətlərin ideoloji təqdimatdan arınmış bədii obrazı təqdim olunur. "*Milli dramaturgiyamızda modern estetika duruş gətirəcəkmi, ənənəvi isə öz yaşarılığını qoruya biləcəkmi? – suallarının həll olunduğu doxsanıncı illər keçidinin başa çatması ilə dramaturji prosesdə yeni mərhələ öz başlanğıcını götürmüşdür*" [168, s.762]. Müstəqillik dövrü "Azərbaycan" jurnalında Elçin, Anar, Ə.Əmirli, K.Abdulla, A.Məsud, F.Mustafa, İ.Fəhmi, A.Talıbzadə və b.-nın dərc olunmuş pyesləri bu suala cavab verməklə yanaşı, dramaturgiyamızda modern estetika ilə ənənəyə yenidən baxışın dinamikasını izləməyə imkan verir. Milli komedioqrafiya ənənələrindən məharətlə bəhrələnəm dramaturq, Xalq yazıçısı Elçinin yaradıcılığında ənənələr sadəcə davam etdirilmir. Janrın ənənələrinə müəyyən mənada yenilik də verə bilmiş Elçin, akademik N.Paşayevanın təbirincə desək, komediya mətnində XX əsr realizminə xas olan bir model yaratmışdır. Dramaturgiyada bir mərhələ kimi səciyyələndirilən bu yaradıcılıqda absurd dramaturgiyanın ünsürləri olsa da, yaradıcılığının ilk illərinə aid olan bu əsərləri yazıçı, niyəsə "dramatik povestlər" kimi təqdim etmişdir. Müstəqilliyin ilk illərindən başlayaraq, o, ədəbiyyatımızda, bir növ, arzuolunmaz mövzulardan olmuş "dəlilik" mövzusu ilə "dəlixanadan dəli qaçıb", "Mənim ərim dəlidir", "Mənim sevimli dəlim" və s. kimi maraqlı əsərlərdə cəmiyyəti, insanları narahat edən ciddi sosial problemləri qabartmışdır. Bu problemlər əlində sıxılan insanların yaşayışı, düşüncələri, əslində, çoxluqdan fərqlənsə də, yazıçı bu "fərqi" insan – cəmiyyət tandemində bağların zəifləməsi ilə əlaqələndirir.

Xalq yazıçısı Anarın "Şəhərin qış gecələri" [29, s.3-22] pyesində oxucu müəllifin "Şəhərin yay günləri" [30, s.114-168] pyesindən ona tanış olan prinsipial, ideal sovet ziyalısı, ali məktəb müəllimi Qiyas Zeynallı ilə qarşılaşır. Qiyas müəllimin prinsipiallığını, əqidəsini "ictimai-siyasi ab-hava" dəyişə bilməyib; o, yenə də mübarizə aparır, indi Azərbaycanın müstəqilliyi naminə "vuruşur". Hadisələr məşum 20 Yanvar ərəfəsində, "eyni masa ətrafında" baş verir. "20 Yanvar hadisələrinin 30 illiyinə həsr etdiyi bu pyesi ilə Anar milli ziyalı modelini təqdim edir. Bu dəyərlər qloballaşan dünyada az qala "survival qalıq" kimi təqdim olunsa da, günün reallığı məhz belə dəyərlərin qorunub yaşadılmasında israrlıdır. Bu işdə

“Azərbaycan” jurnalının xüsusən son on-on beş illik fəaliyyətini ədəbi tənqid belə ümumiləşdirir: “*Jurnalın həm ayrı-ayrı saylarında, həm də ayrıca “Dramaturgiya” buraxılışında müasir Azərbaycan və dünya dramaturgiyasının yeni nümunələri dərc olunur. Təbii ki, bu sırada ilk dram əsərlərinin müəllifi olan cavanlar da görünür. Deyə bilərəm ki, heç bir nəşriyyatın və digər ədəbi dərgilərin görmədiyi işi “Azərbaycan” jurnalı təkbaşına yerinə yetirir”* [176, s.164].

Xalq yazıçısı İ.Şıxlının “Ölüləri qəbiristanlıqda basdırın” pyesinin qəhrəmanı Cavanşir o cavanlardandı ki, bolşeviklər belələrini asanlıqla kəməndə salır, kənddəki maneələri məhz belələrinin əliylə aradan qaldırmağa üstünlük verirlər. Yeni quruluşun verdiyi imkanlar bu gənci çox uzaqlara aparır, hətta o qədər uzaqlara ki, bu uzaqlıqlarda sevgini də, duz-çörəyi də sinfi mənafeyə qurban vermək “mükafatlandırılır”. ...Vəzifə pillələri onu təkcə kənddən, ailədən, adət-ənənələrdən ayırmadı, sürgünə göndərdiyi nişanlısının qolçomaq atasını öldürən bu firqəçi gənci çox ağır cəzalandırdı: *“Cavanşir özünü yetirəndə artıq evləri yanıb külə dönmüşdü. O, dəli kimi oldu. Özünü oda atdı, tüstü-duman içində anasını axtardı. Anası yox idi... Onu evə yaxın qoymadılar. Anasının yanıb kösövə dönmüş cəsədini göstərmədilər”* [159, s.7- 46]. Xeyli sonra isə... eldən uzaqlaşan, elin-obanın adət-ənənələrinə, yazılmamış qanunlarına naxələf çıxan Cavanşir keçmiş nişanlısı, kənddən didərgin saldığı Həcərin qisasının qurbanı olur. Onu el qəbiristanlığında yox, ayrıca bağda dəfn edirlər və sonra... restoran döşəməsinin altında qalan məzar yaddaşlardan silinir. Və bu taleyə görə təkcə rejimi günahlandırmağa dəyməz. Bu mövzuya yazıçının sonralar da müraciət etməsinin, hekayənin motivləri əsasında eyniadlı pyes yazmasının səbəblərindən biri də, görünür, belə izah olunmalıdır ki: *“İsmayıl Şıxlı yalan dünya ilə haqq dünyasını, maddiyyat düşkünləri ilə mənəvi paklığı uca tutanları, iblislərlə munisləri qarşılaşdırmaqla oxucularını əsl mətləblərdən agah edir, onların düşüncə sferasını genişləndirir və dərinləşdirir*” [104, s.6].

Jurnalda dərc olunmuş nəsr və dramaturgiya nümunələri belə deməyə əsas verir ki, bu janrlar yeni inkişaf mərhələsindədir, klassik ənənələrlə novator meyillər yanaşı yaşayır.

İlyas Əfəndiyev dramaturgiyasının səciyyəsi kimi, iyirminci yüzil

Azərbaycanının, azərbaycanlısının həyatının “mənəvi-psixoloji barometri” ifadəsinin qüvvətli və kəsərli olmasının kökündə onun yazıçı üslubunun lirizmi, “köhnə ilə yeninin”, mühafizəkarlıqla qabaqcıl düşüncənin “dil tapıb yola getməsi” və bir də, fonosemantikanın tədqiqi üçün geniş imkanlar verən sözlərin, səslərin musiqili ahəngi, rəngli sözlərin və rəngli fikirlərin mozaik zənginliyi mühüm rol oynayıb.

90-cı illərdə Azərbaycan tarixi faciələrinin, böyük səhvlərinin acısını yenidən yaşayanda Xalq yazıçısı İlyas Əfəndiyev Ağabəyim Ağanın dili ilə xalqa səsləndi: *“Qoy böyük Yaradan sizin kimi Azərbaycan igidlərinin qılıncını əlindən salmasın. Bu yalnız bizim faciəmiz deyil. İbrahim xanın rus padşahının sözlərinə inanıb, ona tabe olması bizim gələcək nəsillərimizin də faciəsidir. Mənim əziz həmvətənlərim, Azərbaycan türkləri heç bir zaman yadelli padşahın zülmünə tabe olmayacaq. Həmişə vətənin azadlığı uğrunda vuruşacaq”* [59, s.37].

Hər bir sənətkarın xarakterində müşahidə edilən fərdi və xüsusi keyfiyyətləri bu və ya digər dərəcədə müstəsnalıq kimi görünməkdən əlavə, yaradıcılığının novatorluq istiqamətini səciyyələndirir. Azərbaycan ədəbiyyatında və teatr sənətində böyük xidmətləri olmuş İlyas Əfəndiyevin “bioqrafik üslubunun” mühüm bir cizgisini qeyd etmək lazım gəlir. O, sənətkar ömrünü ictimai fəaliyyətə, vəzifəyə, məmur kreslosuna həsr etmədi, özünü sözə, yazıçılığa bütöv verdi. Halbuki ədəbiyyata gətirdiyi obrazların yeniliyinə qarşı hücumlardan, tənqiddən sığortalanmağın ən səmərəli yollarından biri də “kreslo zəhminə” güvənmək idi. Həyatdakı mövqeyi yazıçının müxtəlif obrazlarının səciyyəvi mənəvi keyfiyyətində ifadə olunurdu.

Müstəqillik dövrünün dramaturgiyaya gətirdiyi mövzular həyatın, ictimai münasibətlər dəyişikliyinin diqtə etdiyi mövzulardır. Bu mövzularda dünənin sosializm düşüncəsi ilə kapitalizmin özü ilə gətirdiyi yanaşmalar qarşılaşdırılır. Xaos, mənəvi aşınmalar, bir sözlə, təzadlı dünyanın çətinlikləri qarşısında vahiməyə düşən insanın düşüncələri 90-cı illərdə Elçinin, Əli Əmirlinin, Firuz Mustafanın, ikimininci illərdə Afaq Məsudun, İlqar Fəhminin, Aydın Talıbzadənin dram əsərlərində komik və tragik situasiyalarda təqdim olunur. Elçinin doxsanıncı illərdə qələmə aldığı komediyalarında, Əli Əmirlinin “Ağqoyunlular və Qaraqoyunlular”, “Köhnə ev”, “Varlı qadın”, “Ünvansız qatar”, “Mesenat”, “Bütün deyilənlərə rəğmən, yaxud Ağa

Məhəmməd şah Qacar", "Nuri – didəm ..", "Ah, bu uzun sevda yolu", Firuz Mustafanın "Qəfəs", "Tabut", "Müqəvva", Vaqif Əlixanlının "Dənizə baxan pəncərə", İlqar Fəhminin "Zümrüd parıltısı", "Şokolad market", "Hər şey tərsinə və ya Müsibəti-Fəxrəddin", Afaq Məsudun "Qatarın altına atılan qadın", Aydın Talıbzadənin "Tubinot" pyeslərində Azərbaycan cəmiyyətinin son 30 ilinin mənzərəsi dəyişən zamanın xaosunda çaşbaş qalan, sürətli dəyişkənlik fonunda yeni dəyərlərə uyğunlaşa bilməyən insanın çətinlikləri ilə yanaşı, tarixin bədii təhrif olunmuş səhifələri, tarixi şəxsiyyətlərinin ideoloji təqdimatdan arınmış bədii obrazı təqdim olunur. Bu *"Əli Əmirlinin "Köhnə ev" komediyasında obrazların qarşılıqlı münasibətləri fonunda cəmiyyət hadisələrinin təsirini hiss edirik. Köhnə ev iki mənada anlaşılır. Sovet dövrünün Sosialist Əməyi Qəhrəmanı Qüdrət kişi yeni həyat tərzini qətiyyən bəyənmir və yaşadıqları evin satılmasına ciddi müqavimət göstərir. Ancaq keçmişi qaytarmaq mümkün deyil və kapitalist münasibətlərinin bu evə və ailəyə müdaxiləsini hiss edincə: "Mən daha bu evdə qala bilmərəm" deyir. Köhnə ev həm də yaşarı ənənələrin süqutu, milli dəyərlərin tənəzzülə uğraması deməkdir"* [176, s.152].

Doğrudur, bu dövrün dramaturgiyasındakı "müsbət insanlar" çağın ədəbi qəhrəmanları kimi səciyyələndirilə bilməz. *"Bununla belə, biz yenə də qəhrəman arzusundayıq, halbuki bu gün qəhrəmanlığın yox, liderliyin zamanıdır, qəhrəmandan fərqli olaraq, lider heç nəyi qurban vermək fikrində deyil, əksinə, tələb edir"* [5, s.38]. Bəs, bu gün dramaturgiyada dövrün sosial mənzərəsi fonunda hansı mənəvi-əxlaqi dəyərlər aktuallaşır? Əli Əmirlinin yaradıcılığı timsalında teatrşünas Aydın Talıbzadə bu suala belə cavab verir: *"Əli Əmirlinin komediyalarını oxuyub müasir azərbaycanlıları tanımaq və anlamaq olur. Əli Əmirlinin komediyaları xalqın müstəqillik və azadlıq sərgüzəştlərinin, eynilə də "xalqın mentaliteti" deyilən bir nəsnənin güzgüsüdür, "xalqın mentaliteti" deyilən bir anlayışın içidir, tutumudur"* [160, s.154].

Xalq yazıçısı Anarın "Şəhərin qış gecələri" pyesində oxucu müəllifin "Şəhərin yay günləri" pyesindən ona yaxşı tanış olan prinsipial, ideal bir sovet ziyalısı, ali məktəb müəllimi Qiyas Zeynallı ilə qarşılaşır. Zəmanə dəyişib, dövran dəyişib, amma

Qiyas müəllimin prinsipiallığını, əqidəsini "ictimai-siyasi ab-hava" dəyişə bilməyib; o, yenə də mübarizə aparır, indi Azərbaycanın müstəqilliyi naminə "vuruşur". Hadisələr məşum 20 Yanvar ərəfəsində, "eyni masa ətrafında" baş verir. 20 Yanvar hadisələrinin 30 illiyinə həsr etdiyi bu pyesi ilə Anar milli ziyalı modelini təqdim edir. Bu dəyərlər qloballaşan dünyada az qala "survival qalıq" kimi təqdim olunsa da, günün reallığı məhz belə dəyərlərin qorunub yaşadılmasında israrlıdır. Bu işdə dramaturgiya nümunələrini çap edən 100 illik tarixi olan "Azərbaycan" jurnalının: "*Müasir Azərbaycan dramaturgiyasının çapı və təbliğində "Azərbaycan" jurnalının fəaliyyətini xüsusi qeyd etmək istərdim. Jurnal son on-on beş ildə dram əsərlərinə ötən onilliklərlə müqayisədə misli görünməmiş bir missiyanı yerinə yetirir. Jurnalın həm ayrı-ayrı saylarında, həm də ayrıca "Dramaturgiya" buraxılışında müasir Azərbaycan və dünya dramaturgiyasının yeni nümunələıri dərc olunur. Təbii ki, bu sırada ilk dram əsərlərinin müəllifi olan cavanlar da görünür. Deyə bilərəm ki, heç bir nəşriyyatın və digər ədəbi dərgilərin görmədiyi işi "Azərbaycan" jurnalı təkbaşına yerinə yetirir*" [176, s.164].

Azərbaycan dramaturgiyası yeni bir inkişaf mərhələsindədir. Bu dramaturji tendensiyanın yeni modernist estetikanın ənənəvi dramaturgiyanı üstələməsi ilə bağlı iddialara rəğmən, "Azərbaycan" jurnalında dərc olunan nümunələr onu deməyə əsas verir ki, dramaturgiyaya yeni imzalar gəlir, klassik ənənələrlə novator meyillər yanaşı yaşayır. Modernist dram estetikasının maraqlı nümunələrinin artması yalnız milli dramaturgiya faktı hesabına deyil; dünya klassik və müasir dramaturgiya nümunələrinin tərcümə edilib dərc olunması da jurnalın ədəbi siyasətinin bir istiqamətidir.

### 3.2. Haqq savaşımız və şəhidlik ali, sakral dəyər kimi

Müstəqillik özü ilə bərabər ədəbiyyatımıza müəyyən mövzular da gətirdi. Bunlardan biri də şəhidlik mövzusudur. Şəhidlik mövzusu XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında (xüsusən poeziyada) müəyyən qədər işlənsə də,

kommunist ideologiyası dini məfhum kimi qəbul etdiyi bu sözü, ümumən dilin aktiv lüğət tərkibindən çıxışdırmağa nail oldu. Şəhidlik mövzusuna mənəvi dəyərlər kontekstindən yanaşdıqda onun tarixi çox-çox qədimlərə gedib çıxır və təbii ki, bu mövzunun müxtəlif sənət növlərində, eləcə də ədəbiyyatda əks olunması tarixi də çox qədimdir.

"Şəhid" sözü ərəbcə olub, mənası: "baxan, görən, şahid, bir məslək, əqidə yolunda öldürülən, həlak olan [75, s.784] deməkdir. Orta əsrlər Şərq və Azərbaycan ədəbiyyatında bu söz daha çox dini məfhum kimi işlədilir.

Azərbaycan ədəbiyyatında Kərbəla hadisəsinə həsr edilən ilk əsər – M.Füzulinin "Hədiqətüs-süəda" ("Xoşbəxtlər bağçası") əsəri bədii-dini nəsrin ən klassik örnəyi sayılır: "*Zillət ilə ləzzəti olmaz həyatın, dustlar,// Nəğdi-can sərf eyləyib dünyada kam almaq gərək. // Əcz ilə dönmək ədudən səşldir, himmət tutub,// Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək"* [120, s.209].

Orta çağ Azərbaycan poeziyasında İslama, Məhəmməd peyğəmbərə, imamlara həsr olunmuş, Kərbəla müsibəti ilə bağlı şeirlərin yazılması təbii idi. XIX yüzildə də A.A.Bakıxanov, S.Ə.Şirvani, M.Nəvvab kimi tanınmış şairlərin yaradıcılığında da Kərbəla faciəsi, şəhidlik mərsiyələrin, növhələrin mövzusunu təşkil edirdi.

XX əsrdə ermənilərin Azərbaycan torpaqlarına hücumu, faciənin mənzərəsi M.M.Nəvvab və M.S.Ordubadinin publisistik əsərlərində faktlarla qeyd olunmuşdur. 1918-ci ilin mart qırğınları 1905-1907 faciələrinin daha amansız təkrarı idi. Lakin ideoloji iqtidar bu faktların məzmununun tamamilə fərqli yozumda şərhini uyğun gördü. Üstəlik, iyirminci-otuzuncu illərdəki kütləvi repressiya – xalqın düşünən beyinlərinin, günahsız oğul və qızlarının totalitar rejim despotizminin qurbanlarına çevrilməsi də bir müddət dilə gətirilmədi. Minlərlə azərbaycanlı uzaq Sibir çöllərində şəhid oldu. Lakin repressiya qurbanlarının bəraəti ilə tarixdə yeni bir mərhələ başlandı. Azərbaycan cəmiyyətində Hüseyn Cavidin məzarının uzaq Sibirdən Vətənə gətirilməsi ilə bu mərhələ yeni məzmun qazandı. Milli ədəbi-bədii düşüncə tariximizin repressiya səhifələrinə fokuslanmaqla, faciə qurbanlarının xatirəsini nəsrdə, poeziyada, dramaturgiyada, bədii və sənədli publisistikada əks etdirməyə başladı. Aydın məsələdir ki, bu əsərlərdə də şəhidliyin milli-mənəvi dəyər kimi

əksindən danışılmırdı; daha çox repressiya şəhidlərinin müsibəti, sağ qalanların sürgündən Vətənə qayıtması yazıya alınırdı. R.Rzanın "Qızılgül olmayaydı" poeması da 37-ci illərin insan talelərində qoyduğu izlərin poetik şəklindən əlavə, həm də qalanların və susanların etirafıdır.

Şəhidliyin milli-mənəvi dəyər kimi məzmun qazanması 90-cı illərlə bağlıdır. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu xalq hərəkatını boğmaq məqsədilə Bakıda dəhşətli qırğın törətdi. Tarix boyu Azərbaycan torpaqlarına iddialı olmuş ermənilər bu fürsətdən istifadə edərək, 1988-ci ilin fevralında başladıqları işi daha da genişləndirdilər: azərbaycanlıları – Ermənistan ərazisindən qovub çıxardıqları azərbaycanlıları indi də Dağlıq Qarabağdan didərgin saldılar və nəticədə, Azərbaycan torpaqlarının beşdə bir hissəsi işğal olundu, bir milyondan çox azərbaycanlı qaçqın və köçkün həyatı yaşamağa məcbur qaldı. "*Bütün bu hadisələr zamanı minlərlə azərbaycanlı şəhid oldu. Şəhid insan, Şəhid şəhər, Şəhidlər qəbiristanlığı, Şəhid ruhlar…bu sözlər 90-cı illərdən – 20 Yanvar faciəsindən sonra Azərbaycan ədəbiyyatında, xüsusilə poeziyada ən çox işlənən, həm də ən kədərli, ən üzüntülü sözlərə, ifadələrə çevrildi"* [177, s.7].

Şəhidliyin milli-mənəvi dəyər səciyyəsi ictimai-siyasi, bədii-estetik mahiyyəti etibarilə Vətən və Allah sevgisindən qaynaqlanır. "Azərbaycan" jurnalında dərc edilmiş bədii və publisistik nümunələrdə bu amilin aparıcı olduğunu qeyd edə bilərik. Bu nümunələr, eyni zamanda şəhidliyin obrazını, onun məna və mahiyyətini, ictimai-tarixi və bədii-estetik funksiyasını aydınlaşdırmağa, ədəbi mənzərədə bu obrazın səciyyəsini təyin etməyə imkan verir. *"Poeziya üçün bu mövzunun əhəmiyyəti onda idi ki, həmin mövzu onun forma və məzmunca zənginləşməsində mühüm rol oynadı. Çünki bu mövzuda yazılan şeirlər və poemalar təkcə 20 Yanvara aid deyildi, həm də xalqımızın qəhrəmanlıq və şəhidlik səhifələrini vərəqləyirdi, keçmişlə bu gün arasında mənəvi bir körpü yaradırdı* [175, s.329-330].

Mövzunun işlənməsində ilk illərdə daha çox matəm, elegiya motivinin güclü olması müşahidə olunurdusa, 2000-ci illərdən sonra bədii tərəqqi şəhidliyin fəlsəfi-estetik dərkinin üstünlüyünü ifadə edirdi. Bu dövrdə şəhidliyin daha çox qəhrəmanlıq kimi təqdimatı xətti güclüdür. "*1990-cı ilin 20 Yanvarı şəhadətindən doğulan*

*Azərbaycanın təvəllüd tarixidir; Azərbaycan xalqı bu tarixdə öz məqsədini və həqiqi amalını – həqiqət, ləyaqət, şərəf, heysiyyət, azadlıq... kimi dəyərlərin mükəmməl mahiyyətini zamanın, cəmiyyətin mütləq əhəmiyyətli statusu səviyyəsində bərqərar etməklə, Xeyirlə Şərin əbədi qarşıdurma meydanında sabitqədəm mövqeyini və tərəfini bir daha bəyan etdi*" [12, s.13].

Azərbaycan müstəqilliyin sabahına bu səhərdən keçib getdi. Bu səhər azadlığa təşnə bir xalqın, millətin istibdadla son savaş meydanı oldu. Bu meydanda cismən ölən azərbaycanlılar olsa da, ruhən məğlub olan müstəbidlik, qırmızı imperiya idi.

Qarışıq və mürəkkəb tariximizin bu təhlükəli anında 20 Yanvar şəhidləri Azərbaycanı xalq, millət kimi Bütövlük, Birlik adına Meydana yığa bildilər. Bu birlik vətənin ərazi bütövlüyünə olunan müdaxiləyə etirazın yox, azadlığına susamış, müstəqillik qərarını qətiləşdirmiş millətin birliyi idi. *"Sanki millətin ləyaqət, həyat haqqında təsəvvüründən tərəddüd pərdəsini götürdü. Bu hiss bir də şəhidliyin dinamik məzmununu daha parlaq boyayan Mübariz İbrahimovun mübarək əməlində yaşandı. Bu hissdə ölümün əzabı, ömrün faciəli sonu susmuşdu, əvəzində dinən "aydın, məğrur, hər şeyə qadir insan ləyaqəti və onun dəyəri" (V.Vindelband)" kütləni xalqa çevirdi"* [15, s.164].

Faciənin sarsıntısına ilk poetik reaksiya kimi Məmməd Aslanın "Ağla, qərənfil, ağla" və Qabilin "Mərsiyə" şeirləri yadda qaldı və ümumxalq kədərinin ifadəsi kimi emosional ovqatı əks etdirdi. Qərənfil yeni bir obraz kimi şəhid qanı ilə assossiasiya olunaraq ümumxalq hüznünün rəmzinə çevrildi:

*Bu səngiməz ağrıya,*
*Bu qan sızan sarğıya,*
*Bu Allahsız qurğuya*
*Ağla, qərənfil, ağla!*

*Uzaq mənzil, acı yol,*
*Yoldu, yol, əlacı yol!*
*Şəhidlərə bacı ol;*
*Ağla, qərənfil, ağla!* [37, s.6-8].

Xalq şairi Qabilin “Mərsiyə” şeiri də çoxməzmunlu ovqatı ilə seçilir; 20 Yanvar qırğınının təşkilatçıları və icraçılarını ittihamla yanaşı, bunun işğal olduğu bəyan edilir. Bundan başqa, şair orta əsrlər Şərq, o cümlədən Azərbaycan şeirinin geniş yayılmış növlərindən biri olan mərsiyənin məzmununa yeni çalar qatdı; qəsidədə konkret şəxsin yox, bir xalqın müsibətini yazdı:

*Tutulub vahimədən nitq bu gün, dil bu səhər,*
*Bəzəyib Abşeronu qanlı qərənfil bu səhər,*
*Bakı fəryad eləyir, gözdən axır sel bu səhər.*
*Gəmilər nalə çəkir, ərşə çıxır zil bu səhər,*
*Gecəni ataş ilə qırmızı qan eylədilər,*
*Xalqımı-millətimi gülləbəran eylədilər!* [100, s.317].

Bu motiv – faciənin elegik mahiyyəti həmin dövrdə yazılmış onlarla poetik nümunələrdə aparıcı amil oldu. B.Azəroğlu, M.Dilbazi, C.Novruz, R.Məmmədzadə, Z.Yaqub, F.Qoca, E.Baxış, N.Kəsəmənli, F.Sadıq və başqa onlarla şairlərimizin şeirlərinin elegiya motivi vətəndaşlıq ağrısı ilə birləşib güclü emosional təsir gücü ilə seçilirdi:

*Qan qızıl boyadı qara torpağı,*
*Düşdü gənc oğullar nahaq qırğına*
*Bir xalqın köksünə çəkdilər dağı,*
*Ey dünya! Nə üçün dözürsən buna?* [51, s.16]

Təkcə poeziyada deyil, publisistik yazılarda da həmin faciəyə Qanlı Tarix kimi yanaşıldı: *“...biz balaca təsəllidən toxtaqlıq tapırıq: tarix boyu itirə-itirə gələn, qanı su ilə yumağa adətkar bir xalqın indi müqəddəs and yeri var – onu həmişə səfərbər eləməyə, Vətən hissini başı üstündə bayraq kimi qaldırmağa gücü çatan müqəddəs qəbirlər var. Şəhid qəbirləri!* [98, s.4-5].

20 Yanvarın 20-ci ilində tənqidçi-publisist, “Azərbaycan” jurnalının baş redaktoru İ.Qasımzadə 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıda Azərbaycan tarixinin ən qanlı hadisələrindən birinin baş verməsini cinayət, 20 Yanvarı “Azərbaycan xalqının şəhidlik məktəbi” adlandırır. Rus-sovet imperiyasının

ağır hərbi texnika ilə silahlanmış ordusunun 4 istiqamətdən şəhərə soxulub əliyalın dinc əhalini gülləbaran etməsinə başqa ad vermək mümkün deyil: *"Ölkə rəhbərliyindən, şəxsən Mixail Qorbaçovdan xüsusi tapşırıq almış quduz hərbçilər həmin gecə öz istiqlalı uğrunda ayağa qalxmış bir milləti, iki milyon əhalisi olan bir şəhərin vətəndaşlarını qanına qəltan etməli, onların azadlıq, müstəqillik arzularını qan içində boğmalı idilər. Onlar bir qismi Moskvada, bir qismi isə, Bakıda oturmuş rəhbərlərinin tapşırığını yerinə yetirdilər, əliyalın dinc əhalini tanklarının altına saldılar, cəsədlərini tanınmaz hala saldılar. 20 Yanvar Azərbaycan xalqının şəhidlik məktəbidir!"* [105, s.3-4]. Əgər hadisənin ilk dövrlərində 20 Yanvar faciəsinə əsasən, "isti-isti" publisistik və poetik münasibət bildirilirdisə, zaman keçdikcə yazıçılarımız 20 Yanvar faciəsinə daha təmkinli və ciddi yanaşır, onun səbəblərini və dərslərini "yaddaş" kateqoriyası ilə əlaqələndirirdilər. Xalq şairi Fikrət Qocanın "Şəhidlər xiyabanı" poeması istiqlal tariximizin bədii salnaməsidir, azadlığın tarixini yazan oğulların tarix dərsidir. O dərsin müəllimi şəhidlərimiz, şagirdləri isə millətdir – "Oddan keçənlər"dir. Müəllif olub-keçənlərdən tarixi dərs çıxarmağa, bu hadisənin, faciənin mahiyyətini dərk etməyə çağırır. Şairə görə 20 Yanvar müsibətinin dərsləri deyir ki, *"Azad ölkən var, /dilin var, /Bayrağın var, /Prezidentin var"* [79, s.18]. Bu isə o deməkdir ki, müstəqilsən, azadsan. Lakin bu müstəqillik və azadlıq 20 Yanvar şəhidlərinin qanı-canı bahasına alınmışdır. Ona görə də bu ölkə öz yolunu bir istiqamətdə müəyyənləşdirməli və bu yolla getməlidir. Bu yol isə müstəqillik və azadlıq yoludur: "*Bir ölkə eyni anda gedə bilməz iki yola. //Yol birdi,// ya zəfərdi, ya qəbirdi. //Dərdimiz çoxdur, //yalan deyil, //Yaraların hamısı birdən sağalan deyil. //Gərək sağaldaq bir-bir. //Buna da zəhmət, dözüm, //Səbir, səbir gərəkdir"...* [79, s.19].

Qarabağ, Vətən, Şəhidlik mövzusu İsa İsmayılzadənin müstəqillik dövrü yaradıcılığının əsasını təşkil edir. Onun şeirləri forması və emosional təsir gücü ilə seçilir. Bu şeirlərin baş qəhrəmanı Vətəndir. Şairin "Əmr versin – hücum əmri komandan Vətən", "Hər şəhidin yaşıdı – Qarabağ", "Bu da sənin yazın deyil, Qarabağ" və s. şeirlərində Vətənin yaşadığı ağrının rəsmini çəkir. *"...Yolların şəhid, çöllərin şəhid,/Dərələrin şəhid, düzlərin şəhid./Torpağın, daşın şəhid,/Ağacın, quşun*

*şəhid”,* – deyə şair Vətənin şəhid yaralarını sarımağa çalışırdı. Şair Vətənin üzləşdiyi ağır gerçəkliyi sərt, ifşa dili ilə ifadə edirdi:

*Hara qaçırsan, Oğul?*
*Hara qaçırsan, Vətən?*
*Sən qurtaran yerdə Ölüm başlayır.*
*Hara qaçırsan, Vətən oğlu,*
*Şəhid çöllər, şəhid yollar*
*Ayağına dolaşmır,*
*Şəhid qəbirləri kəsmir qarşını.*
*Ağla, axıt göz yaşını* [97, s.3-16].

Müstəqilliyimizin Azərbaycan ədəbiyyatında ilk şəhid obrazlarından biri Ülvi Bünyadzadəyə də bir çox şeirlər yazılıb. Almaz Ülvinin “Bir ölümün acığına” avtobioqrafik kitabı şəhid Ülvi Bünyadzadəyə həsr olunub. Janr etibarilə xatirə-memuar formasında qələmə alınmış bu əsərdə müəllif gənc, istedadlı bir tələbənin şəhidliyə gedən yolunu işıqlandırır: *“1989-cu ilin son ayları idi. Bakı Dövlət Universitetində (özü APXDİ-də təhsil alırdı) Şimali Azərbaycan Azad Tələbələr İttifaqı (ŞAATİ) təsis etdilər. Proqram və Nizamnaməsini bir gecəni səhərəcən yatmayıb işlədi, səhərə yaxın səliqəylə üzünü çıxarıb apardı. Meydanda “millətimizin başını pambıqla üzən” partbiletini ağappaq ovcunun içindəcə yandırdı. Gələndə gördüm ovcunun içi yanıb; “Xalqı bu mübarizə yolundakı qələbəyə inandırmaq üçün, lazım olsa, bütün cismimizi yandırmağa hazır olmalıyıq” – üzümdə sezdiyi narahatçılığımıza belə cavab verdi Ülvi”* [167, s.7].

20 Yanvar dəhşəti rus işğalçılarına nifrət, çətin günlərdə milli həmrəylik, azadlıq – istiqlal məfkurəsi poeziyanın əsas mövzularına çevrildi. Bu faciədən iki il sonra – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı baş verdi. Təbii ki, bədii ədəbiyyatda, xüsusilə poeziyada Xocalı faciəsi ümummilli faciə kimi, soyqırım kimi tariximizə yazıldı. Xalq şairi Z.Yaqubun “O qızın göz yaşları” poemasının əsasında Xocalı faciəsinin 13-cü ildönümü ilə əlaqədar yas mərasimi – şəhidləri anma gününün keçirilməsi durur. 21 yaşlı Xocalı qızı Xəzangül başına gələnləri anladır. Ermənilər onun 36 yaşlı anası Rəna xanımı, 5 yaşlı bacısı Yeganəni Əsgəran

meşəsində güllə ilə dəlik-deşik etmişdilər. 38 yaşlı atası Təvəkkülü 8 yaşlı Xəzangülün gözü qarşısında diri-diri ağaca sarıyıb yandırmışdılar. Ona görə ki, Təvəkkül "Qarabağ erməni torpağıdır" deməmişdi:

*O gün qan üstündə açıldı səhər,*
*O gün Xocalıda yer qırmızıydı.*
*Qırmızı-qırmızı üzümə durdu,*
*İblis görkəmində şər qırmızıydı.*

*Doğrandı dayağı, kəsildi soyu,*
*Qan oldu bayramı, yas oldu toyu.*
*Qarı ağ görmüşdük ömrümüz boyu,*
*O gün Xocalıda qar qırmızıydı* [173, s.4].

Poema bir qızın dərdi timsalında Qarabağdan, torpaq itkisindən, xalqın bu ağır dərdi necə yaşamasından, sabaha inamından da söz açır.

Əslən Xocalıdan olan Ələmdar Quluzadə 1500 misralıq "Şəhid şəhər" poemasında lirik-publisistik bir tərzdə təkcə Xocalıda deyil, bütün Qarabağda baş verən erməni terrorundan, qanlı hadisələrdən söz açır, Xocalı faciəsini XX əsrin Xatın, Xirosima faciələri ilə yanaşı tutur.

"Azərbaycan" jurnalında işıq üzü görmüş əsərlərdən başqa, Xocalı şəhidlərinə həsr olunmuş daha iki əsərdə – Ədalət Əsgəroğlunun "Dərdimizin qan rəngi" və Nurəngiz Günün "Xocalı simfoniyası" poemaları Xocalı faciəsinə ümumxalq kədərinin poetik ifadəsidir. Tənqidçi V.Yusiflinin yazdığı kimi, Ə.Əsgəroğlu *"..konkret bir mövzuya müraciət etsə də, hədəf daha genişdir. Burada son iyirmi ilin Azərbaycan məmləkəti "dərdimizin qan rəngi" obrazında metaforikləşib. Qan burada Xocalıdan bütün dünyaya yayılan fəryadın, ahın, kədərin simvoludur. Qan burada tarixdir – bir məmləkətin təklənməsi, səsinin, fəryadının boğulması, öz içində qərq olmasıdır"* [77, s.3].

Ədəbiyyatşünas M.Nəcəfova "Xocalı simfoniyası" rekviyem – poemasını *"Erməni qəddarlığını, vəhşiliyini, qaniçənliyini, rəhmsizliyini, nanəcibliyini,*

*hiyləgərliyini, xəyanətini, cinayətini... unutmağa qoymayan poetik abidə"* adlandırır [127, s.7].

*Ah, mənhus düşüncə!*
*Necə yəni, Allah yaradanı sən,*
*Bir gecədə yox edəsən?!*
*Əhsən, ey İnsan, əhsən,*
*Sən bu antik işinə*
*Xirosima, dəhşəti, Xatın faciəsini də*
*Çox-çox arxada qoydun!* [85]

Xocalı faciəsinin qurbanlarına həsr olunmuş poetik nümunələr sırasında Pünhan Sədanın ağıları da qeyd olunmalıdır: *Salam, şəhid olanım // Tanklarla doğrananım! //Kəfəni köynəyindən // Qüslü qandan olanım!, yaxud "Allahım, rəhmin hanı?// Müsibətin yox sanı. //Burda bir yurd salmışdım//Gəzirəm, yox nişanı"; "Layla, Xocalım, layla,//Şəhidləri harayla// Qanlı bir qundaq tapdım, Ağı deyim, ya layla?"* [147, s.69-74]. Bir ananın dilindən söylənilən ağı Azərbaycan qadınının sonsuz kədərinin ifadəsi olmaqdan daha çox, Qadının müharibəyə, savaşa üsyanı kimi dərk olunur. Ağrının şəkli isə Çingiz Mustafayevin kamerasında "donub":

*Meyidin başı soyulub,*
*Birinin gözü oyulub,*
*Körpə pis günə qoyulub –*
*Eşiblər goreşən kimi.*
*İnsanı söküb – cırıblar,*
*Dağıdıblar – kövşən kimi.*
*Ana gərəkdir ağlaya,*
*Göz gərəkdir bunu görə...* [79, s.14]

Şəhidliyin milli-mənəvi dəyər kimi anlaşılması yalnız o zaman baş verir ki, şəhidlik həm də qəhrəmanlıq kimi mənalanır. Ümumiyyətlə, XX əsrdə – türk dünyasında, şəhidlik missiyası dini-ideoloji kontekstdən ayrılır, Vətən, millət uğrunda gedən savaşlarla, istiqlal mübarizələri ilə bağlı olur. Xüsusilə, qardaş türk ədəbiyyatında Nihal Atsız, Mehmet Akif, Yəhya Kamal, Azərbaycan poeziyasında

Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk kimi şairlərin poetik tərənnümündə şəhidlik anlayışı qəhrəmanlıq kimi dərk olunur.

Xalq şairi B.Vahabzadənin “Şəhidlər” poeması 20 Yanvar mövzusunda yazılan əsərlərin ən kamili və bədii sənətkarlıq baxımından ən mükəmməlidir – desək, yanılmarıq. Bu poema əvvəl qeyd etdiyimiz Vətənpərvərlik – Şəhidlik – Qəhrəmanlıq üçbucağını tam əhatə edir. Poema həm bədii-estetik, həm fəlsəfi, həm də ideya-məzmun baxımından Azərbaycan poeziyasında yeni bir hadisə idi. Yüz ildən sonra hər hansı bir “Ədəbiyyat tarixi”ndə şəhidlik mövzusu ilə bağlı geniş bir oçerk yazılarsa, B.Vahabzadənin bu poeması bədii fikrimizin, xalq tarixinin poeziyada əks olunmasının yüksək örnəklərindən biri kimi qeyd olunacaq. Bəxtiyar Vahabzadə bu poemada təkcə şairlik qüdrətini nümayiş etdirməmiş, həm də vətənpərvərlik ideyasının lideri kimi diqqəti cəlb edir. Poemanın proloqu və bundan sonrakı bir neçə fəsli bir qədər bədbin, elegik təsir bağışlayır.

*Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar,*
*Haqsızlığın üstündən haqqa körpü saldılar.*
*Vətəni sevmək üstdə günahkar sayıldılar,*
*Vətəni sevmək niyə günah olmuş, ay Allah?* [169, s.3-25]

Poemada Azərbaycan şəhidlərinin parlaq, unudulmaz obrazları ümumiləşdirilir:

*O gecə dağlardan enən sel təki,*
*Qəzəbdən köpürüb daşdı millətim.*
*O şənbə gecəsi ürəyimdəki*
*Qorxu hasarını aşdı millətim.*

*Bu ölüm, bu qırğın dərs olsun bizə,*
*Deməyək boş yerə candan keçdilər.*
*Onlar şəhid olub millətimizə,*
*Cəsarət dərsini təlim keçdilər.*

Şair bu poemadan əvvəl elə “Azərbaycan” jurnalında “Şənbə gecəsinə gedən yol” publisistik məqaləsini yazmış, 20 Yanvar faciəsinin səbəbləri haqda geniş söz

açmışdı. Həmin yazıda B.Vahabzadə böyük bir qürur hissilə yazırdı: *“Mən bir daha inandım ki, bu xalqı qırmaq olar, əzmək olar, amma sındırmaq olmaz”* [170, s.20].

Şəhidliyin milli-mənəvi dəyərə çevrilməsi – 90-cı illərdə qüvvətlənən bu proses 2000-ci illərdə də davam etdi. “Şəhidlik qəhrəmanlıqdır” – bu ideya 2010-cu ildə torpaqlarımızın bütövlüyü uğrunda canını fəda etmiş, şəhidliyin dinamik məzmununu daha parlaq boyayan Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun həyatının mənasına çevrildi: “*O,Vətən kəlməsini şah kəlməyə çevirdi,//Qorxunu, vahiməni öz taxtından devirdi.//Mürgülü vicdanları silkələdi Mübariz, //Qaniçən bir orduya “intiqam”ı, “qisas”ı,//Görk elədi Mübariz.//Şəhidlərin ruhunu o, darlıqdan qurtardı,//Koroğlunu, Nəbini şüarlıqdan qurtardı* [65, s.4-5].

Əlbəttə, şəhidlik və Qarabağ mövzusu çağdaş ədəbiyyatımızın prioritet istiqamətlərdən biri kimi mühüm yer tutur. Lakin biz burada bu mövzuya həsr olunmuş əsərlərin yalnız bir qismi haqqında təhlillər apardıq. Nəticə isə bundan ibarətdir ki, bədii düşüncəmizdə Qarabağ müharibəsi və şəhidlik mövzusu hələ uzun müddət aktuallığını saxlayacaqdır. Azərbaycan ordusunun 44 günlük İkinci Qarabağ müharibəsində qalib gəlməsində, şübhəsiz, ədəbiyyatın da müəyyən rolu olmuşdur. Çünki bədii yaddaş bu məsələni yaşatmaqla yanaşı, qələbənin də mənəvi əsasını qoymuşdur. Azərbaycan ordusu məhz bu mənəvi güclə düşmən üzərində qələbəyə nail olmuşdur.

F.Qocanın “Azadlıq şərqisi”, “Şəhidlər xiyabanı, M.Ələkbərlinin “Mübarizlik dərsi” poemaları xalqın hərb, qəhrəmanlıq tarixinin janr və üslubi baxımdan keyfiyyətcə yenilənməsini ifadə edir. 20 Yanvarın faciə yox, şərəf tarixi kimi qavrayan gənc nəsil 44 günlük II Vətən müharibəsində bir daha sübut etdi ki, “Azərbaycan təkcə haqq işi, doğma torpaq uğrunda savaşmadı, Azərbaycan ordusu təyinləri dəyişdi, mifi dağıtdı, epik siqlətli süjetyaratma ənənəsini cilaladı, hərb, qəhrəmanlıq və barış tarixinin janr və üslubi keyfiyyətlərini yenilədi. “Azərbaycan” jurnalı şəhid və qazi şairlərin şeirlərini – “Sözü Vətən olanlar” təqdim etməklə, bu həqiqəti bir daha təsdiqlədi ki, ədəbiyyatımız Haqq savaşında xalqımızla bir cəbhədədir.

# NƏTİCƏ

Bəşər cəmiyyətinin tarixi təcrübəsi göstərir ki, mənəvi dəyərlər sistemi və bu sistemi təşkil edən komponentlər xalqın sosial-mədəni, dini-mənəvi həyatı və həyat tərzi əsasında yaranmaqla həm də mədəniyyəti formalaşdırır. Əsrlərlə formalaşmış maddi-mənəvi, psixoloji meyillərin məcmusu kimi yaranan dəyərlər həm də milli kimliyin formalaşmasına güclü təsir edir. Milli kimliyi bariz şəkildə ifadə edən vasitələr sırasında şifahi və yazılı ədəbi ənənələr mühüm yer tutur.

Azərbaycan cəmiyyətinin timsalında demək mümkündür ki, milli mədəniyyət, eləcə də milli ədəbiyyat yalnız etno-mədəni hadisə kimi başa düşülməməlidir. Milli ədəbiyyatı ictimai-siyasi, ideoloji təmayüllər və qlobal təsirlər formalaşdırır. Dil amili də milli ədəbiyyatın zənginləşməsində mühüm rola malikdir. Azərbaycanın tarixi-coğrafi mövqeyi, müxtəlif dillərin, mədəniyyətlərin, müxtəlif dini, siyasi-ideoloji sistemlərin bir-birini əvəzləməsi və ya yanaşı mövcud olması tarixən ədəbi-fəlsəfi irsin keyfiyyətinə də təsirsiz ötüşməmişdir. Şifahi və yazılı ədəbi ənənələr milli mədəniyyəti, eləcə də milli kimliyi bariz şəklidə ifadə edən vasitələrdir.

Etnik və sosial-mədəni identikliyin dayanıqlılığında milli-mənəvi dəyərlərin, mədəni ənənələrə bağlılığın səviyyəsi mühüm rol oynayır. Qaçılmaz olan qarşılıqlı əlaqələr, qarşılıqlı asılılıq və qarşılıqlı nüfuz dəyərlərin yenidən qiymətləndirilməsini aktuallaşdırır. Dəyərlər sisteminin daşıyıcısı kimi çıxış edən fərdin, etnosun fəaliyyəti, inkişafı da hansı dəyər oriyentasiyalarına istinad etməsi ilə şərtlənir. Məsələn, Sovet imperiyasının və kommunist-bolşevik rejiminin süqutundan sonra müstəqillik qazanmış bütün respublikalarda olduğu kimi, Azərbaycanda da milli-mənəvi dəyərlər aktuallıq kəsb edir. Bu, hər şeydən əvvəl, milli kimliyin etnik mənsubluq və coğrafi məkan kontekstində dərk olunması ilə yanaşı, cəmiyyətin tarixi təkamül yolunun öyrənilməsi tendensiyasını aktuallaşdırır. Bu sırada gündəlik ünsiyyət və davranışlarda fərqli mədəni səciyyələrin artan təsiri də unudulmamalıdır.

Burada "humanitar hücum" anlayışını xatırlatmaq lazım gəlir. Onun əhatə dairəsinə dil və mədəniyyəti təbliğ edən konsepsiyalar, proqramlar (dərnəklər,

kurslar, məktəblər, mədəni tədbirlər səviyyəsində və s.) daxildir. Elmi-mədəni nailiyyətlərin mənimsənilməsində (tutaq ki, müxtəlif dillərin öyrənilməsində) əhəmiyyəti danılmayan "humanitar hücum" müəyyən mənada ənənə ilə müasirliyin sintezinə də müsbət zəmin ola bilər, lakin milli identikliyin möhkəmləndirilməsinə təhlükəsi inkar oluna bilməz. Bu və bu qəbildən olan təhlükələrdən sığortalanmaq üçün cəmiyyət öz milli kimliyini qorumaqda sərvaxt strategiyaya malik olmalıdır.

Bu strategiyanın əsasında duran əsas amillərdən biri dil faktorudur. Dilin qorunması, inkişafı, zənginləşməsi və coğrafiyası bədii təfəkkürün səviyyəsi, inkişafı, yayılma arealı ilə birbaşa əlaqəlidir. Bu müstəvidə hər bir xalqın yüksək, ali mənəvi dəyərlərindən biri olan ədəbiyyatın rolu, əhəmiyyəti xüsusi məzmuna malikdir.

"Azərbaycan" jurnalının sovet və postsovet dövrü tarixi və ideya istiqamətləri öyrənilməklə yanaşı, ilk dəfə olaraq "jurnal" diskursunda milli-mənəvi dəyərlərin əksi problemi filoloji müstəvidə təhlilə cəlb edilir.

Jurnalın nəşri tarixi, strukturu və başlıca yaradıcılıq təmayülləri, bədii mətnlərin janr və forma müxtəlifliyi çağdaş ədəbiyyatımızın prioritet istiqamətlərini müəyyənləşdirdi.

Mənəvi dəyərlərin təbliğində "Azərbaycan" jurnalının rolu və əhəmiyyəti danılmazdır. Jurnalda dərc olunmuş ədəbi-bədii mətnlər əsasında milli-mənəvi dəyər kateqoriyasının mahiyyəti etika, kulturoloji, ədəbiyyatşünaslıq aspektlərində açıqlanmağa, müxtəlif janrlarda və formalarda gerçəkləşməsi təsvir və tədqiqə səy göstərilir.

Tədqiqatın nəticələri onu deməyə əsas verir ki, ədəbi-bədii nəşrin spesifik sahəsinə – profil media nümunəsinə çevrilməsi ədəbi prosesin təşkilində mühüm rol oynamışdır.

Postsovet dövrünü jurnalın tarixində ən mürəkkəb dövr kimi səciyyələndirmək lazım gəlir. Belə ki, 70 illik siyasi-ideoloji sistemin çöküşü ilə mənəvi dəyərlərə münasibət də dəyişdi.

Müstəqillik dövründə "Azərbaycan" jurnalı nəsr və poeziyanın, bədii publisistikanın maraqlı örnəkləri ilə tarixi yaddaşın bərpa olunması, milli

özünüdərkin inkişafı, milli mənlik şüurunu gücləndirdi və yeni mənəvi dəyərlər formalaşdırdı.

90-cı illərdə “Azərbaycan” jurnalı, zəif büdcə imkanlarına rəğmən, nəşrini davam etdirmiş, yaradıcılıq istiqamətlərini genişləndirmiş, yeni bir cəmiyyətin formalaşmasında mühüm rol oynamışdır.

Jurnalın mənəvi dəyərlərin bədii ifadəsi sahəsində rolu və əhəmiyyətinin müəyyən edilməsində milli-mənəvi dəyər anlayışının mahiyyəti fəlsəfi, kulturoloji, ədəbiyyatşünaslıq kontekstində özünü daha çox büruzə verir.

Azərbaycan xalqının etnik identikliyi, tarixi, adət-ənənəsi ilə, mifoloji düşüncəsi, dünyagörüşü ilə bağlı məsələlər bədii-estetik düşüncədə aktuallaşdı.

“Azərbaycan” jurnalında dərc olunmuş əsərlərdə mənəvi dəyərlərin səciyyəsi onu göstərdi ki, ədəbi, bədii düşüncə azad olarkən xalqın milli ruhunu daha yaxşı ifadə edir və qoruyur.

Müstəqillik dövrü “Azərbaycan” jurnalında dərc olunmuş əsərlərdə milli-mənəvi dəyərlər müxtəlif janr formalarında davamlı ifadəsini tapır.

“Azərbaycan” jurnalında şəhidlik və qazilik sakral dəyər kimi vəsf və təbliğ olunur. Şəhidlik Azərbaycan poeziyasının əsas mövzularından və motivlərindən biri kimi, demək olar ki, bütün ədəbi nəsillərin yaradıcılığında mühüm yer tutur. Qarabağ müharibəsi nəsr əsərlərinin süjetini və ideyasını təşkil edir. Yüksək mənəvi dəyərlər (şəhidlik, qazilik, istiqlal, türkçülük, azərbaycançılıq və s.) ədəbi dəyərlər sırasına daxil olur, bədii (poetik) mətnlərin ritorikasını və üslubunu formalaşdırır.

Türkçülük, etnik-ideoloji inancın adı olub, mənəvi dəyər statusu qazanır və bədii mətnlərin emosional substratını təşkil edir.

Neosufizm, tanrıçılıq axtarışları toplumu birləşdirən mənəvi dəyər kimi yenidən gündəmə gəlir və jurnal bu imkanları dəyərləndirə bilir.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında milli-mənəvi dəyərlər yeni düşüncə kontekstində ifadə olunur. Bunu şərtləndirən əsas amillərdən biri bədii düşüncənin sovet buxovundan, senzura əsarətindən çıxması və milli-mənəvi dəyərlərə önəm verilməsidir. Ana dili, türkçülük, şəhidlik və s. kimi milli-mənəvi dəyərlər “Azərbaycan” jurnalında, demək olar, bütün janr formalarında öz əksini tapır.

“Azərbaycan” jurnalı senzuranın total nəzarətinə, siyasi-ideoloji yasaqlara baxmayaraq, xalqın düşüncəsini əks etdirdi, onun mədəni-mənəvi dəyərlərinə sadiq qaldı.

20 Yanvar, şəhidlik və Qarabağ mövzusu çağdaş ədəbiyyatımızın prioritet istiqamətlərindən biri kimi bədii düşüncədə (nəsr, poeziya, publisistika, esse, dramaturgiya, hekayə və s.) əks olundu. İgid Azərbaycan əsgərinin 44 günlük Qarabağ müharibəsində möhtəşəm zəfərində milli ədəbiyyatın da rolu danılmazdır.

Ümumiyyətlə, milli və ədəbi düşüncənin tarixi, bədii-estetik dərki yönündən qiymətləndirilərsə, “Azərbaycan” öz böyük sələflərinin – “Molla Nəsrəddin” və “Füyuzat”ın ideya – məslək məramını yalnız davam etdirməmişdir, müasir dünyanın ədəbi-estetik çağırışlarına cavab vermişdir.

“Azərbaycan” jurnalının tarixi və məzmunu göstərir ki, Azərbaycan dövlətçiliyinin bərpasında mənəvi dəyərlərin qorunub saxlanılması son dərəcə vacib şərtlərdən biridir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində:


1. Ağabalayeva, S. Çağırış // “Azərbaycan” jurnalı, – 2011, №10. – s.14.
2. Ağabalayeva, S. Gedək ömrə gərək olan bir savabı diriltməyə...// Karvan yolu, tənha yolçu.... / S.Ağabalayeva. – Bakı: Səda, – 2005. – 197 s.
3. Ağabalayeva, S. Xüsusi təyinatlı söz // “Azərbaycan” jurnalı, – 2020, №11. – s.24-29.
4. Ağabalayeva, S. Kür meydanı ram eləmək// Vaxtın nə günahı... / S.Ağabalayeva. – Bakı: Səda, – 2011. – 358 s.
5. Ağabalayeva, S. Meyar unudulmasa // “Azərbaycan” jurnalı, – 2011, №4. – s.38.
6. Ağabalayeva, S. Məndən qəmli məktub yoxdu... //525-ci qəzet. – 2021, 27 may, – s.18.
7. Ağabalayeva, S. Məni bayraq kimi tutun yuxarı // “Azərbaycan” jurnalı, – 2011, №9. – s.167
8. Ağabalayeva, S. Nizami Cəfərov: obrazın üslubu, enerjisi və sintez tizfəhmi // “Azərbaycan” jurnalı, – 2019, № 9. – s.64-68.
9. Ağabalayeva, S. Rakurs: milli – estetik təfəkkür // “Azərbaycan” jurnalı, –2017, №1. – s.158.
10. Ağabalayeva, S. Söz Tanrıdandır // “Azərbaycan” jurnalı, – 2010, №1, – s.87-90.
11. Ağabalayeva, S. Söz Tanrıdandır // Vaxtın nə günahı / S.Ağabalayeva. –Bakı: Səda, – 2011. – 358 s.
12. Ağabalayeva, S. Şəhadətin zəfər yolu // “Azərbaycan” jurnalı, – 2021, №1. s.13.

13. Ağabalayeva, S. Tarix, Ritm, Karpentyer və İbrahimbəyov qardaşları // “Azərbaycan” jurnalı, – 2010, №5. – s.19.

14. Ağabalayeva, S. Tənqid və əxlaq // “Azərbaycan” jurnalı, – 2008, №5. – s.158-163.

15. Ağabalayeva, S. Yanvar düşüncələri // “Azərbaycan” jurnalı, – 2018, №1, – s.164.

16. Ağabalayeva, S. Yaradıcılıq, mənəvi mühit və... // 525-ci qəzet. – 2022-ci il, 22 iyun, – s.14-15.

17. Ağabalayeva, S. Yaşımdan aşacağam / Firuzə Məmmədli. Savaş fəsli-poetik toplu. – Bakı: YYSİB, – 2021. – s.7-18

18. Ağabalayeva, S. Yüz ilin birinciləri // “Azərbaycan” jurnalı, – 2023, №1. – s.168.

19. Ağabalayeva, S. Sınıq ümidlərlə yaşamaq olmur // “Azərbaycan” jurnalı, – 2013, №8. – s.178-182.

20. Ağayev, S. Yeddinci yetgin //Azərbaycan” jurnalı, – 2004, №10. – s.63.

21. Axundov, N. Qarabağ və Qarabağnamələr // “Azərbaycan” jurnalı, – 1990, №1. – s.158-164.

22. Akimova, E. “Dəli Kür”: dəyişən dəyərlər və roman texnologiyası kontekstində // “Ədəbiyyat” qəzeti. – 1999, 22 iyun. – s.10-11.

23. Akimova, E. Çağdaş poeziya və ədəbi təmayüllər / E.Akimova. – Bakı: Elm və təhsil, – 2015. – 312 s.

24. Akimova, E. Heydər Əliyev – azərbaycançılıq əsərinin ən ciddi səhifələrini yazdı.//edebiyyatqazeti.az. 12 dekabr 2021 – ci il, – s.3.

25. Aqil, A. Dolu // “Azərbaycan” jurnalı, – 2007, №12.

26. Anar. Azərbaycançılıq haqqında düşüncələr / Anar. – Bakı: Nurlan, – 1999. – 90 s.

27. Anar. Gecə düşüncələri // “Azərbaycan” jurnalı, – 2001, №8. – s.14-57; №9. – s.8-25; №11. – s.10-39.

28. Anar. Kərəm kimi // “Azərbaycan” jurnalı, – 2010, №5. –s.76-122.

29. Anar. Şəhərin qış gecələri // “Azərbaycan” jurnalı, – 2019, №10. – s.3-22.

30. Anar. Şəhərin yay günləri // “Azərbaycan” jurnalı, –1978, №4. – s.114-168.

31. Anar. Şəxsiyyətin miqyası // “Ədəbiyyat” qəzeti. –1998, 4 may, – s.2.

32. Anar. Türkün sözü // “Azərbaycan” jurnalı, – 2019, №9. – s.61.

33. Anar. Yusifin son kitabı //Yusif Səmədoğlu. Deyilənlər gəldi başa (hekayələr və romanlar). – Bakı: XXI .Yeni nəşrlər evi, – 1999. – 344 s.

34. Anar. Zəfərin mübarək, Nazım! // “Azərbaycan” jurnalı, – 2010, № 5. – s.77-80.

35. Arabaçı, A. Bayraq // “Azərbaycan“ jurnalı, – 2020, №12. – s.6-7.

36. Arif, M. Heyne və faşizm // “Vətən uğrunda” jurnalı, – 1942, №1. – s.46.

37. Aslan, M. Ağla, qərənfil, ağla // “Azərbaycan” jurnalı, – 1990, № 2. – s.6-8.

38. Astanbəyli, M. Adsız şeirlər // “Azərbaycan” jurnalı, – 2009, №2. – s.113-117.

39. Azərbaycan SSR-nin suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya Qanunu. – Bakı: 1978, – s.5.

40. Bağırova, A. Səməd Vurğunun nəzəri-estetik görüşlərində klassik irs problemi / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2010, – 127 s.

41. Bayatlı, V. Yupyumru bir eşq ilə / V.Bayatlı. – Bakı: Çinar Çap, – 2008. – 336 s.

42. Bəhmənli, V. Hamı. Şeirlər / V.Bəhmənli. – Bakı: Çağdaş, – 2012. – 400 s.

43. Bəydili, C. Köçəbə ruhu // “Azərbaycan” jurnalı, – 2005, №4. – s.171-180.

44. Bünyadov, Z., Rəhimov Ə. Tarixi həqiqətlər...yoxsa təhriflər? // “Azərbaycan” jurnalı, –1989, №4. – s.172.

45. Cabbarlı, N. Qurtuluşdan sonra. Yeni nəsil ədəbiyyatı / N.Cabbarlı. – Bakı: Xan, –2017. – 240 s.

46. Cavid, H. Peyğəmbər (bir parça) // “Maarif və mədəniyyət” jurnalı, – 1923, №1. – s.16; №7. – s.11-28; №9. – s.1-7; №10. – s.2-7; №12, – s.3-9.

47. Cəfərov, M.C. Faşist vandalları // “Vətən uğrunda” jurnalı, –1942, №1. – s.45.

48. Cəfərov, N. Məmməd Orucun Vedibasar dastanı // “Azərbaycan” jurnalı, – 2016, №3. – s.9-14.

49. Cəfərov, N. O qapılar bizim ədəbi təfəkkürümüz üçün bağlanıb... (A.Talıbzadənin “Əbuhübb” romanı ilə bağlı tənqidçi N.Cabbarlı ilə söhbət) // “Azərbaycan” jurnalı, – 2017, №4. – s.138-150.

50. Cəfərzadə, Ə. Xəzərin göz yaşları // “Azərbaycan” jurnalı, – 2003, №4. –s.12-54.

51. Dilbazi, M. Qanlı yanvar // “Azərbaycan” jurnalı, – 1990, №3. – s.16.

52. Elan. “Həyat”. – 1906, 3 sentyabr.

53. Elçin. 100 ilin mühüm ədəbi salnaməsi // “Azərbaycan” jurnalı, –2023, №1. – s.7.

54. Elçin. Ağ dəvə. // “Azərbaycan” jurnalı, – 1985, №3. – s.84-139; №4. – s.3-100.

55. Elçin. Ədəbi düşüncələr // “Azərbaycan” jurnalı, – 2000, №9. – s.16.

56. Elçin. Sosrealizm bizə nə verdi? // Sovet dövrü Azərbaycan ədəbiyyatı haqqında. Məsələnin oyuluşuna dair. “Azərbaycan” jurnalı, – 2011, №1. – s.145-165.

57. Eyvazov, S. Fətəli fəthi // “Azərbaycan” jurnalı, – 1988, №11. – s.183-186.

58. Əfəndiyev, Ə. “Azərbaycan” – 80 biblioqrafik göstəricisi. – Bakı: Çinar Çap, – 2004. – 544 s.

59. Əfəndiyev, İ. Hökmdar və qızı // “Azərbaycan” jurnalı , – 1989, №10. – s.37

60. Əhmədli, B. Cümhuriyyətin üçlü formulu // “Azərbaycan” jurnalı, –2017, №11. – s.24; № 12. –s.84.

61. Əhmədli, S. Ömür urası // “Azərbaycan jurnalı, – 2004, №7. – s.39.

62. Əhmədov, B., Səfərov, S. Qarşıdan 37-ci il gəlirdi // “Azərbaycan” jurnalı, – 1990, №1. – s.169-176.

63. Əhmədov, N. Türkiyəyə məhəbbətlə (Azərbaycan ziyalılarının yaradıcılığında Türkiyə həyatı. 60-80-ci illər) // “Azərbaycan” jurnalı, – 2018, №4. – s.176-180.

64. Ələkbərli, M. İlahi, keç mənim günahlarımdan…// “Azərbaycan” jurnalı, – 2006, №10. – s.50-51.

65. Ələkbərli, M. Mübarizlik dərsi-poema // “Azərbaycan” jurnalı, – 2011, №1. – s.4-5.

66. Əlişanoğlu, T. Aqil Abbasın yazıçı – vətəndaş missiyası //Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı [2 cilddə] / T.Əlişanoğlu. AMEA Nizami adına Ədəbiyyat İnstitutu, – c.2. – 2016. – 1088 s.

67. Əlişanoğlu, T. Yeni zamana giriş: ədəbi tənqiddə dirskurslar. Ədəbi proses 2020-2021.VIII – IX. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. – Bakı: –2022. – s.139.

68. Əliyarlı, S. Buz qırıldımı? // “Azərbaycan” jurnalı, – 1989, №1. – s. 181-189.

69. Əliyev, A. Türklüyün fədaisi // “Azərbaycan” jurnalı, – 2001, №10. – s.153-156.

70. Əliyev, H. “Azərbaycan Yazıçılar Birliyinin “Azərbaycan” jurnalına // “Azərbaycan” jurnalı, – 2003. – s.4.

71. Əliyev, M. Azərbaycan ruhu // “Azərbaycan” jurnalı, – 1989, № 3. – s.176-183.

72. Əliyev, M. Mirzə Bala Məmmədzadə // “Azərbaycan” jurnalı, – 1989, №10. – s.118-124.

73. Əliyev, R. Əşirət xəstəliyi // “Tənqid.net” jurnalı, – 2007, № 3. – s.81-86.

74. Əmirli, Ə. Ədəbiyyatın yolu “Azərbaycan” dan keçir // “Azərbaycan” jurnalı, – 2023, №1. – s.112-115.

75. Ərəb və fars sözləri lüğəti. – Bakı: EA nəşriyyatı, – 1967. – s.784.

76. Əsgərli, Ə. İstiqlal şairi Xəlil Rza Ulutürk. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə] / Ə.Əsgərli. – Bakı: Elm və təhsil, – c.1. – 2016, – 800 s.

77. Əsgəroğlu, Ə. Dərdimizin qan rəngi / Ə.Əsgəroğlu – Bakı: Mütərcim, –2009. – 48 s. S. 3

78. Əsgərova, S. Elçinin əsərləri Türkiyədə // “525-ci” qəzet. – 2003, 12 aprel, – s.15.

79. Fikrət Qoca. “Şəhidlər xiyabanı” poeması // “Azərbaycan” jurnalı, – 2006, №10.

80. Fikrət Qoca. Bayraq tutan oğullar//https://kultur.az – 2018, 06 dekabr.

81. Fikrət Qoca. Cənnətdən qovulanlar. Seçilmiş Əsərləri / F.Qoca. – Bakı: UniPrint, – c.6. – 2015. – 367 s.

82. Fikrət Qoca. Seçilmiş Əsərləri [10 cilddə] / F.Qoca. – Bakı: UniPrint, – c.6. – 2015. – 218 s.

83. Fikrət Qoca. Şəhidlər xiyabanı // “Azərbaycan” jurnalı, – 2006, №10. – s.5-22.

84. Fikrət Qoca. Yaratdığımdan mənzərələr // “Azərbaycan” jurnalı, – 2004, №11. – s.40.

85. Gün, N. Xocalı simfoniyası (Poemadan parçalar) // “525-ci” qəzet. – 2017, 27 fevral.

86. Hacı, S. Qurani-Kərimə giriş / S.Hacı. – Bakı: Nafta-Press, – 2017. –156 s.

87. Haqverdiyev, Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə.Haqverdiyev. – Bakı: Şərq-Qərb, – c.2. – 2005. – 408 s.

88. Həbibbəyli, İ. Böyük yaradıcılıq məktəbi // “Azərbaycan” jurnalı, – 2018, №1. s.5-8.

89. Həbibbəyli, İ. Davamlı ədəbi ənənələrin və yeniləşmələrin jurnalı // “Azərbaycan” jurnalı, – 2023, №1. – s.11-14.

90. Həbibbəyli, İ. Tənqidi realizmin estetikasına realist elmi baxış // “Ədəbiyyat” qəzeti. – 2019, 11 fevral.

91. Həmidov, İ. Mirzə Fətəli Axundzadə və ərəb – islam mədəniyyəti.// “Azərbaycan” jurnalı, – 2013, №1. – s.166-172.

92. Həsənzadə, N. Almas İldırımın adına küçə // https:// turuz. com

93. Həsənzadə, N. Nuru Paşa // “Azərbaycan” jurnalı, – 2010, №2. – s.8.

94. Xanəmir. Gecə // “Azərbaycan” jurnalı, – 1999, №11. – s.17-20.

95. İbrahimbəyov, M. Dənizdə qasırğa // “Azərbaycan” jurnalı, 1998, №3-4. –s.21-78; №5. – s.68-121.

96. İbrahimbəyov, M. Fraqmentlər” (üç dildə) / M.İbrahimbəyov. – Bakı: Səda, – 2008. – 267 s.

97. İsmayılzadə, İ. Haran ağrıyır, Vətən? // “Azərbaycan” jurnalı, – 1996. № 4-6. – s.3-16.

98. İsmayılzadə, İ. Şəhid ucalığı // “Azərbaycan” jurnalı, – 1991, №1. – s.4-5.

99. Kamal, R. Güzgü günü / R.Kamal. – Bakı: Çaşıoğlu, – 2017. – 276 s.

100. Qabil. Əsərləri [7 cilddə] / Qabil. – Bakı: Adiloğlu, – c.2. – 2017. – s.317-318.

101. Qarayev, Y. Seçilmiş Əsərləri. Cümhuriyyətə qədərki ədəbiyyatda milli intibah və istiqlal ideyaları: [5 cilddə] / Y.Qarayev. – Bakı: Elm, – c.5. – 2016.

102. Qarayev, Y. Seçilmiş Əsərləri. Yaddaşdan, idrakdan görünən yaxınlar və uzaqlar: [5 cilddə] / Y.Qarayev. – Bakı: Elm, – c.4. – 2016, – 776 s.

103. Qasımov, Ə. Genosid (ermənilərin xalqımıza qarşı törətdiyi soyqırım bəşəriyyətə cinayətdir) // “Azərbaycan” jurnalı, – 2007, №11. – s.162-170.

104. Qasımov, H. İsmayıl Şıxlı yaradıcılığının milli-mənəvi qaynaqları // “Xalq qəzeti”. – 2009, 4 aprel, №71. – s.6.

105. Qasımzadə, İ. Narahat ruhlar // “Azərbaycan” jurnalı, – 2010, №1. – s.3-4.

106. Qasımzadə, İ. Bir redaktor kimi mən tam sərbəst və azadam // “Azərbaycan” jurnalı, –2019, №10. – s.140-152.

107. Qasımzadə, İ. Yoldan teleqram // “Azərbaycan gəncləri” qəzeti. – 1969, 22 mart, – s.3.

108. Qasımzadə, İ. Yüzə nə qaldı... // “Azərbaycan” jurnalı, – 2022, №1. – s.12.

109. Quliyev, Q. “Ayrılarmı könül candan... Bədii fikirdə Vətən // “Azərbaycan” jurnalı, – 2011. – s.164-165.

110. Quliyev, Q. Postmodernizm // “Azərbaycan” jurnalı, – 2005, № 9. – s.172-174.

111. Quliyev, M. Bir neçə söz // “Maarif və mədəniyyət” jurnalı, – 1923, №1. – s.3.

112. Quliyev, M. Yeniyetmələr: Oktyabrdan sonrakı köhnə ədəbiyyat // “İnqilab və mədəniyyət” jurnalı, – 1928, №9. – s.9.

113. Quliyev, V. Azərbaycan qədər yaşayacaq “Azərbaycan”// “Azərbaycan” jurnalı, – 2018, №1. – s.59-60.

114. Quliyev, V. Azərbaycanımızın “Azərbaycan”ı” // “Azərbaycan” jurnalı, – 2018, №1, – s.60.

115. Qurani-Kərim. Tövbə9/19.

116. Qusarçaylı, R. Azərbaycan bayrağı // “Azərbaycan” jurnalı, – 2018, №12. – s.77-85.

117. Qusarçaylı, R. Vətən // “Azərbaycan” jurnalı, – 2021, №11. – s.24.

118. Mehmet, R. Milli kimliyin formalaşmasında irfani ənənələr / R.Mehmet. – Bakı: Elm və təhsil, – 2014. – 391 s.

119. Məcid, R. “Ağdamda nəyim qaldı? – avtobioqrafik roman // “525-ci qəzet”. – 2015-ci il, 5 dekabr, – s.24.

120. Məhəmməd Füzuli. “Hədiqətüs-süəda”/ Məhəmməd Füzuli. – Bakı: Gənclik, – 1993. – s.209.

121. Məmməd, T. Neosufizm: yaradıcılıq və nəzəriyyə / T.Məmməd. – Bakı: Xan, – 2016. – 120 s.

122. Məmmədzadə, R. Sənə sığınmışam // “Azərbaycan” jurnalı, – 2004, №4. –s.120.

123. Musayeva, İ. İntiqam Qasımzadə və yaxud sonuncular // “525-ci qəzet”. – 2018, 25 avqust, – s.15.

124. Mustafa, N. Şeytan qulluğundan Tanrı dərgahına // “Cahan” jurnalı, –1997, №2.

125. Mümtaz, S. Azərbaycan şairlərindən: İmadəddin Nəsimi // “Maarif və mədəniyyət”, –1923, №1. – s.20-30.

126. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə]. – Bakı: Elm və təhsil, – c.2. – 2016. – 1088 s.

127. Nəcəfova, M. Nurəngiz Günün “Xocalı simfoniyası:haqlı davamızın aynası // “525-ci” qəzet. – 2016, 25 fevral, – s.7.

128. Nəzirli, Ş. 37-nin general qurbanları // “Azərbaycan” jurnalı, – 1998, №12. – s.157.

129. Nisə Bəyim. “Kitabi-Dədə Qorqud”a sevgilə” silsiləsi // “Azərbaycan” jurnalı, – 1998, №8. – s.3-6.

130. Novruz, C. Allaha yalvarış. Seçilmiş Əsərləri / C.Novruz. – Bakı: Lider, – 2014. – 288 s.

131. Novruz, C. Hərb bitəcək // “Azərbaycan” jurnalı, – 1998, №5. – s.3.

132. Novruzov, İ. Ömrün on səkkiz anı // “Azərbaycan” jurnalı, – 1998, № 11. – s.16-56.

133. Nuri, Ə. Adını çəkdim, Allah!..// “Azərbaycan” jurnalı, – 2012, №1-2. – s.67-68.

134. Nuri, Ə. Allah girib yuxuma // “Azərbaycan” jurnalı, – 2004, №10. – s.100..

135. Oruc, M. Köçürülmə / M.Oruc. – Bakı: Qanun, – 2016, – 327 s.

136. Oruc, M. Malakan kəndinin payızı // “Azərbaycan” jurnalı, – 2019, №3. – s. 26-52.

137. Osmanlı, D. Böyük Çölün yovşanlığında həsrətin qoxusuyam // “Azərbaycan” jurnalı, – 1999, №11. – s.13-16.

138. Paşayeva, A. Azərbaycan jurnalında publisistika məsələləri (1953-2010) / A.Paşayeva. – Bakı: Elm və təhsil, – 2019. – 216 s.

139. Paşayeva, N. İnsan bədii tədqiq obyekti kimi (Xalq yazıçısı Elçinin yaradıcılığı əsasında) monoqrafiya / N.Paşayeva. – Bakı: YNE, – 2003. – 256 s.

140. Pərvanə, S. Uçuş məsafəsi / S.Pərvanə. – Bakı: Qanun, – 2006. – 64 s.

141. Rəsulzadə, M. Ə. Qafqaziya türkləri // “Azərbaycan” jurnalı, – 1990, №12, – s.142-157; – 1991, №1. – s.152-168.

142. Rəsulzadə, M. Ə. Pantürkizm haqqında. Qafqaz problemi ilə əlaqədar // “Azərbaycan” jurnalı, – 1991, № 6-8. – s.102-122.

143. Rəsulzadə, M.Ə. Əsrimizin Siyavuşu // “Azərbaycan” jurnalı, – 1990, №9. – s.132-151.

144. Rövşən, R. Kəpənək qanadları. Nəfəs-kitablar kitabı / R.Rövşən. – Bakı: Qanun, – 2006. – 750 s.

145. Salamoğlu, T. Azərbaycan tənqidi realizminin estetikası / T.Salamoğlu. – Bakı: “Orxan” NPM. – 2018. –184 s.

146. Salmanov, Ş. Kamillik // “Azərbaycan” jurnalı, – 1998, № 3-4. – s.160.

147. Səda, P. Xocalı soyqırımının qurbanlarına // “Azərbaycan” jurnalı, – 2004, №8. – s.69-74.

148. Səhənd. Yasaq. Seçilmiş Əsərləri / Səhənd. – Bakı: Şərq-Qərb, – 2006, –280 s.

149. Səmədoğlu, V. Atamın məktublarına cavab / V.Səmədoğlu. – Bakı: Parlaq imzalar, – 2022. – 116 s.

150. Səmədoğlu, V. Günün baxtı / V.Səmədoğlu. – Bakı: Gənclik, – 1972, – 45 s.

151. Səmədoğlu, V. Mən burdayam, İlahi / V.Səmədoğlu. – Bakı: Gənclik, –1996. – 440 s.

152. Səmədoğlu, V. Vyetnam dərdi // Mən burdayam, İlahi / V.Səmədoğlu. –Bakı: Gənclik, – 1996. – 440 s.

153. Səmədoğlu, Y. “Azərbaycan” jurnalının 70 yaşı tamam olur // “Azərbaycan” jurnalı, – 1993, №1-2. – s.4.

154. Səmədoğlu, Y. Qətl günü // “Azərbaycan” jurnalı, – 1984, №4.

155. Süleymanlı, M. Erməni adındakı hərflər // “Azərbaycan” jurnalı, –2007, №8. – s.6-61; №9. – s.6-59.

156. Süleymanov, M. Müsəlman dünyasında ilk cümhuriyyət // “Azərbaycan” jurnalı, –1998, №11. – s.127-144.

157. Şəmsizadə, N. İtmiş nəslə üvertura // “Azərbaycan” jurnalı, – 2009, №6. – s.164.

158. Şərifova, S.Müasir dramaturgiya və teatr. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə] / S.Şərifova. – Bakı: Elm və təhsil, – c.2. – 2016. – 1088 s.

159. Şıxlı, İ. Ölüləri qəbiristanlıqda basdırın // “Azərbaycan” jurnalı, –2011, №4. – s.7-46.

160. Talıbzadə, A. Azərbaycanlıların müstəqillik sərgüzəştləri // “Azərbaycan” jurnalı, – 2019, №1. – s.154.

161. Talıbzadə, A. Əbü hübb / A.Talıbzadə. – Bakı: Qanun, –2014. – 320 s.

162. Talıbzadə, A. Kəpənək modeli – 102 // “Azərbaycan” jurnalı, – 2008, №5. – s.34-88.

163. Talıbzadə, A. Kəpənək və ya təfsiri-şərhi-hali Nəsimi // “Azərbaycan” jurnalı, – 2000, №4. – s.164-171.

164. Talıbzadə, A. Ramana // “Azərbaycan” jurnalı, – 2019, №12. – s.97-109.

165. Turan A. İrfan çobanı / A.Turan. – Bakı: Araz, – 2003. – 184 s.

166. Turan, A. Əzəl – axır dünya türkün dünyası // “Azərbaycan” jurnalı, –2008, №10. – s.174.

167. Ülvi, A. Günəşinə qovuşan Ülvim // “Azərbaycan” jurnalı, –1994, №1-3. – s.7.

168. Vahabzadə, B. Seçilmiş əsərləri: [2 cilddə] / B.Vahabzadə. – Bakı: Öndər, – c. 1. – 2004. – 328 s.

169. Vahabzadə, B. Şəhidlər // “Azərbaycan” jurnalı, – 1990, №12. – s.3-18.

170. Vahabzadə, B. Şənbə gecəsinə gedən yol // “Azərbaycan” jurnalı, – 1990, №10. – s.24.

171. Vəkilov, M. Ömür dedikləri bir karvan yolu // “Azərbaycan” jurnalı, – 1976, №3. – s. 37

172. Vurğun, S. İnsan // “Vətən uğrunda”, –1945, №2-3, – s.17-26.

173. Yaqub, Z. O qızın göz yaşları // “Azərbaycan” jurnalı, 2014 №2. –s.3-9.

174. Yaqub, Z. Peyğəmbər // “Azərbaycan” jurnalı, – 2009, №1-3.

175. Yusifli, V. Poeziyanın yolları və illəri – 1960-2000-ci illər / V.Yusifli. – Bakı: Mütərcim, – 2009. – s.329-330.

176. Yusifli, V. Son illərin dramaturgiyası // “Azərbaycan” jurnalı, – 2020, №10. – s.152.

177. Yusifli, V. Şəhidlik – qəhrəmanlıq // “Ədalət” qəzeti, – 2011, 20 yanvar, – s.7.

178. Yusifli, V. Vətən” poetik epopeyası // Kredo. – 2022, 23-30 mart, – s.3.

**Rus dilində**

179. Бахтин, М. эстетика словесного творчества / М.Бахтин. – Москва: Искусство, –1979. – 424 s.

180. Документы и материалы XVI съезда. – Москва: – т.2. 1962, – с.648.

181. Каган, М.С. Философская теория ценности / М.С.Каган. – СПб.: ТОО ТК “Петрополис”, –1997. – 205 с.

182. Столович, Л. Философия. Эстетика. Смех / Л.Столович. – С.-Петербург: Тарту, – 1999. – 384 с.

183. Эльчин. Нарциссы из Турции// Литературная газета. –1981, 15 апреля, – стр.15.